**Bank TuranBank ASC-nin 2021-ci il üzrə İllik İdarəetmə hesabatının tərkibi aşağıdakılardan ibarətdir:**

1.1.1. Emitentin tam və qısaldılmış adı:

**Bank "TuranBank" Açıq Səhmdar Cəmiyyəti, Bank "TuranBank" ASC**
**Vergi ödəyicisinin eynəlişdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi: 1300016391 115 saylı Şəhadətnamə, 31.12.1992-ci il, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi**

1.1.2. Emitentin hüquqi ünvanı və olduğu yer:

**Bakı şəhəri, Nizami küçəsi 53, AZ 1025**

**Bakı şəhəri, İ.Qutqaşınlı küçəsi 85, AZ 1073**

1.1.3. Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkili forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkili forması, həmin hüquqi şəxslərin adları:

**Təşkilatın adında və təşkilati-hüquqi formasında heç bir dəyişikliklər olmamışdır.**

1.1.4. Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar:

Göyçay filialı, Göyçay ş., R.Rza küçəsi 83D AZ2300, 115/19, 23.12.2021

1.1.5. Emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilatı-hüquqi forması, təşkilatı-hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti:

| Hüquqi şəxsin adı | Olduğu yer | Dövlət qeydiyyat tarixi və nömrəsi | Nizamnamə kapitalında payı (%) |
|---|---|---|---|
| TuranLizinq MMC | Bakı şəhəri, Nizami küçəsi 53, AZ 1025 | № 0106-P246-46525 21.08.2006 | 100 |

1.1.6. Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyat göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı:

**Daxil deyildir.**

1.1.7. Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri:

**31 dekabr 1992-ci il tarixli 115 saylı lisenziyası ilə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alınmış lisenziya əsasında fəaliyyətin təmin edir.**

1.1.8. Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri:

**Emitent və ona aidiyyəti şəxslər son 3 (üç) maliyyə ili ərzində müvafiq olaraq bank fəaliyyəti ilə məşğuldur. Likvidliyin artırılması, kredit portfelinin artması, bank normativ göstəricilərinin**

**yaxşılaşdırılması, risk dərəcələrinin azaldılması.**

**Emitentin fəaliyyət müddətinin sonu qeyri-müəyyəndir.**

1.1.9. Emitentin təklif etdiyi məhsullar və xidmətlər:

Fiziki şəxslər üçün milli və xarici valyutada əməliyyatları; Hüquqi şəxslər və fərdi sahibkarlar üçün milli və xarici valyutada əməliyyatları; Birja əməliyyatları; Akkreditiv, sənədli əməliyyatlar və zəmanətlər; Sürətli Pul köçürmələri; Plastik kartlar keçirilən əməliyyatlar; Fərdi bank seyfləri; Əmanət məhsulları; İstehlak kreditləri; Mikro kreditlər; SME kreditlər; İpoteka krediti.

1.1.10. Emitentin işçilərinin sayı və onun rüblük dinamikası;

| | **Yanvar-Mart 2021** | **Aprel-İyun 2021** | **İyul-Sentyabr 2021** | **Oktyabr-Dekabr 2021** |
|---|---|---|---|---|
| **Ümumi işçi sayı** | 506 | 520 | 545 | 569 |
| **İşə qəbul** | 10 | 45 | 56 | 54 |
| **Xitam** | 21 | 31 | 31 | 30 |

1.1.11. Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı:

**Müşahidə Şurası:**

| Müşahidə Şurasının tərkibi A.S.A | Müşahidə Şurasında tutduğu vəzifəsi |
|---|---|
| Kazımov Rauf Kazım oğlu | Müşahidə Şurasının Sədri |
| Sadıqov Nazim Cavad oğlu | Müşahidə Şurasının üzvü |
| Kərimov Akif Əkbər oğlu | Müşahidə Şurasının üzvü |
| Məmmədov Abid Eyyub oğlu | Müşahidə Şurasının üzvü |
| Qasımov Ramiz Məmməd oğlu | Müşahidə Şurasının üzvü |

**İdarə Heyəti:**

| İdarə Heyətinin tərkibi A.S.A | Vəzifəsi |
|---|---|
| Musayev Fəzail Misgər oğlu | İdarə Heyətinin Sədri |
| Qarayev Orxan İslam oğlu | İdarə Heyətinin Sədr müavini |
| Ağayev Çingiz Əmiraslan oğlu | İdarə Heyətinin Sədr müavini |
| Mustafayeva Kəmalə Mustafa qızı | İdarə Heyətinin üzvü |
| Məmmədov Bəxtiyar Fazil oğlu | İdarə Heyətinin üzvü |

**Audit Komitəsi:**

| Audit Komitəsi ASA | Vəzifələr |
|---|---|
| Kələşov Məhəmməd Nizami oğlu | Audit Komitsinin Sədri |
| Davud Quliyev Həmid oğlu | Audit Komitsinin üzvü |
| Nəbiyev Famil Akif oğlu | Audit Komitsinin üzvü |

1.1.12. Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayrılıqda sayı:

**Emitentin səhmdarları 20 fiziki şəxsdən 8 hüquqi şəxsdən ibarətdir.**

1.1.13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı, hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı:

| Hüquqi şəxsin tam adı (fiziki şəxsin soyadı, adı, atasının adı) | Ödənilmiş səhmlər say ilə | Emitentin nizamnamə kapitalında payı (faizlə) |
|---|---|---|
| | | |

1.1.14. Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı:

| Hüquqi şəxsin adı | Olduğu yer | Dövlət qeydiyyat tarixi və nöömrəsi | Nizamnamə kapitalında payı (%) |
|---|---|---|---|
| Başak İnam Sığorta Şirkəti ASC | AZ1001 Bakı, B.Sərdarov küç 15 | № 52 09.08.1996 | 7,1% |

2.1.15. Emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat: Hesabat dövründə Səhmdarların 3 Ümumi Yığıncağı keçirilmişdir. Həmin iclasda illik hesabat, İdarəetmə orqanlarının tərkibin yenilənməsi, Nizamnamə kapitalının artırlması, Audit Komitəsinin hesabatları barədə məsələlər müzakirələr olmuş və qərarlar qəbul edilmişdir.

2.1.16. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir):

| Sıra № | Qiymətli kağızın növü və forması | Buraxılışın dövlət qeydiyyat tarixi | Buraxılışın dövlət qeydiyyat nömrəsi | Buraxılışın məbləği |
|---|---|---|---|---|
| 1 | Adi adlı səhm, sənədli | 10.06.2021 | AZ1002005549 | 4 999 922 manat |
| | | | | |

2.1.16.5. Hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir);

**Dividend ödənilməyib.**

2.1.16.6. Faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi;
**Illik %.**

| | |
|---|---|
| 2.1.17. Emitent tərəfidən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar: | Mövcud deyil |
| 2.1.17.1. Əqdin məbləği; | Mövcud deyil |
| 2.1.17.2. Hesabat tarixinə əqdin ödənilməmiş hssəsi. | Mövcud deyil |
| 2.1.18. Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar: | Mövcud deyil |
| 2.1.18.1. Bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği; | Mövcud deyil |
| 2.1.18.2. Aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi. | Mövcud deyil |

2.1.19. İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi:

2.1.20. Hesabatın açıqlanma mənbəyi haqqında məlumat.

**http://www.turanbank.az**

# “TURANBANK” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

**Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun Hazırlanmış Konsolidə edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi**
31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə

# “TURANBANK” ASC

## MÜNDƏRİCAT

**Səhifə**


31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI ........ 1

MÜSTƏQİL AUDİTORLARIN RƏYİ ........ 2-4

31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARI:

- Maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabat ........ 5
- Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında konsolidə edilmiş hesabat ........ 6
- Kapitalda dəyişikliklər haqqında konsolidə edilmiş hesabat ........ 7
- Pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabat ........ 8-9
- Konsolidə edilmiş maliyyə hesabatları üzrə qeydlər ........ 10-88

## 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

Aşağıdakı hesabat müvafiq olaraq müəssisənin rəhbərliyinin və müstəqil auditorların Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") və "TuranBank" Açıq Səhmdar Cəmiyyətinin ("Bank") və onun törəmə müəssisələrinin (birlikdə "Qrup" adlandırılır) konsolidə edilmiş maliyyə hesabatları ilə bağlı məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik, 31 dekabr 2021-ci il tarixinə Qrupun konsolidə edilmiş maliyyə vəziyyətini, həmin tarixdə başa çatmış il üzrə konsolidə edilmiş əməliyyat nəticələrini, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini əks etdirən konsolidə edilmiş maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun şəkildə hazırlanması üçün məsuliyyət daşıyır.

Konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-yə müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa onun konsolidə edilmiş maliyyə hesabatlarında bəyan edilməsi və izahı; və
- Yaxın gələcəkdə Qrup işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə konsolidə edilmiş maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Qrup daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Qrupun konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq düzgün hazırlanması və Qrupun konsolidə edilmiş maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Qrupun aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə konsolidə edilmiş maliyyə hesabatları 17 may 2022-ci il tarixində Qrupun Rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

İdarə Heyəti adından:

| | |
|---|---|
| **Fəzail Musayev** | **Əlizaman İbrahimov** |
| İdarə Heyətinin sədri | Maliyyə menecmenti departamentinin direktoru |
| 17 may 2022-ci il | 17 may 2022-ci il |
| Bakı, Azərbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |

Azərbaycan Respublikası «Turanbank» ASC «Turanbank» OJSC Azerbaijan Republic

bakertilly

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
www.bakertilly.az

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"TuranBank" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarları və İdarə Heyətinə:

### *Rəy*

Biz "TuranBank" Açıq Səhmdar Cəmiyyətinin və onun törəmələrinin (bundan sonra "Qrup") 31 dekabr 2021-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatdan, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında konsolidə edilmiş hesabatdan, kapitalda dəyişikliklər haqqında konsolidə edilmiş hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, konsolidə edilmiş maliyyə hesabatlarına edilən qeydlərdən ibarət konsolidə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş konsolidə edilmiş maliyyə hesabatları Qrupun 31 dekabr 2021-ci il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

### *Rəy üçün Əsaslar*

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Konsolidə edilmiş Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Qrupdan asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

### *Əsas Audit Məsələləri*

Əsas audit məsələləri bizim peşəkar mülahizəmizə əsasən, cari dövrün maliyyə hesabatlarının auditi zamanı ən çox əhəmiyyət kəsb edən məsələlərdir. Bu məsələlər ümumilikdə maliyyə hesabatlarının auditi çərçivəsində və bu hesabatlarla bağlı rəyimizi formalaşdırılması zamanı nəzərə alınmışdır və və biz bu məsələlərlə bağlı ayrıca rəy bildirmirik.

*Müştərilərə və banklara verilmiş kreditlər üzrə ehtimal olunan kredit zərəri ehtiyatı*

Konsolidə edilmiş maliyyə hesabatlarının 8 və 9 saylı Qeydlərinə baxın.

*Əsas audit məsələsi*

Müştərilərə verilmiş kreditlərin və bank qalıqlarının əhəmiyyətinə və müvafiq ehtiyatın hesablanması üçün tələb olunan mülahizələrin və təxminlərin əhəmiyyətinə görə biz bu məsələyə diqqət yetirdik.

Ehtiyat, müştərilərə və banklara verilmiş kreditlər üzrə ehtimal olunan kredit zərərləri ("EOKZ") ilə bağlı rəhbərliyin ehtimallarını əks etdirir.



Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

EOKZ-un kollektiv qiymətləndirilməsi balanslara təyin edilmiş daxili formalaşdırılmış risk ölçülərindən istifadə edən modellərə əsaslanır. EOKZ-un fərdi qiymətləndirilməsi müxtəlif ssenarilər ilə fərdi qalıqlarla bağlı ehtimal olunan gələcək pul vəsaitlərinin axınından istifadə edən modellərə əsaslanır. Modellərin tərtibi və məlumatlar rəhbərliyin mühakiməsinə tabedir.

2 saylı Qeyd "Hazırlığın Əsasları" və 3 saylı Qeyd "Mühüm Mühasibat Uçotu Prinsipləri", 4 saylı Qeyd "Siyasətinin Tətbiqi Zamanı Əhəmiyyətli Ehtimallar və Mülahizələr", 8 saylı Qeyd "Banklara verilmiş Kreditlər və Depozitlər", 9 saylı Qeyd "Müştərilərə verilmiş Kreditlər", 26 sayl Qeyd "Risklərinin İdarə edilməsi" ehtiyat haqqında ətraflı məlumat verir.

*Audit zamanı bu məsələ necə nəzərdən keçirilmişdir?*

Banka münasibətdə:

Biz MHBS-nin tələblərinə uyğunlaşdırılması üçün EOKZ ehtiyatının hesablanmasına üçün əsas metodologiyaları qiymətləndirmişik.

Rəhbərlik tərəfindən EOKZ-un fərdi qiymətləndirilməsini tələb edən kimi müəyyən edilməmiş əhəmiyyətli kreditləri sınaqdan keçirdik (nümunə əsasında) və bunun məqsədəuyğun olub-olmaması ilə bağlı öz mülahizəmizi formalaşdırmışıq.

Biz (nümunə əsasında) EOKZ-un kollektiv və fərdi qiymətləndirilməsi üçün istifadə edilən modellərin və hesablamaların əsasını və əməliyyatını, istifadə olunan məlumat və fərziyyələri sınaqdan keçirdik. Bizim işin həcminə mövcud kənar sübutlarla irəli sürülmüş əsas fərziyyələrin və təxminlərin müqayisəsi, digər təcrübələr və faktiki təcrübə biliklərimiz, təkrar icra yolu ilə modellərin sınaqdan keçirilməsi, müxtəlif təhlillər və digər prosedurlar daxildir.

### *Konsolidə edilmiş Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri verilmiş Şəxslərin Məsuliyyəti*

Rəhbərlik konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün şəkildə təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olmadığı konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Konsolidə edilmiş maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Qrupu ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Qrupun maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

### *Konsolidə edilmiş Maliyyə Hesabatlarının Auditinə görə Auditorların Məsuliyyəti*

Bizim məqsədimiz konsolidə edilmiş maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Konsolidə edilmiş maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Qrupun daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Bankın fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda konsolidə edilmiş maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Bankın fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, konsolidə edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetmə səlahiyyətləri verilmiş şəxslərə məlumat veririk.

Biz həmçinin idarəetmə səlahiyyətləri verilmiş şəxslərə bəyan edirik ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq hallarda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalara riayət etmişik.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərin nəzərinə çatdırılmış məsələlərdən cari dövr üzrə konsolidə edilmiş maliyyə hesabatlarının ən əhəmiyyətli olanlarını və bu səbəbdən əsas audit məsələləri hesab olunanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat verməninn mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmış şəkildə güman edildikdə, biz bu məsələnin hesabatımızda bildirilməməsini qərara alırıq və bu məsələləri auditor hesabatımızda təsvir edirik.

Baker Tilly Azerbaijan

17 may 2022-ci il
Bakı, Azərbaycan Respublikası

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT**
**31 DEKABR 2021-Cİ İL TARİXİNƏ**
*(Əksi göstərilmədiyi halda, min Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7 | 173,498 | 118,046 |
| Banklara verilmiş kreditlər və depozitlər | 8 | 45,596 | 39,614 |
| Müştərilərə verilmiş kreditlər | 9, 30 | 414,385 | 326,656 |
| İnvestisiya qiymətli kağızları | 10 | 27,794 | 11,382 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 11 | 17,550 | 15,986 |
| Təxirə salınmış mənfəət vergisi aktivi | 24 | - | 759 |
| Digər aktivlər | 12 | 7,727 | 5,749 |
| **CƏMİ AKTİVLƏR** | | **686,550** | **518,192** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR:** | | | |
| Banklardan və digər maliyyə təşkilatlarından alınacaq depozitlər və qalıqlar | 13, 30 | 62,399 | 68,842 |
| Cari hesablar və müştərilərdən alınmış depozitlər | 14, 30 | 419,384 | 280,697 |
| Digər borc alınmış vəsaitlər | 15 | 129,227 | 106,160 |
| Subordinasiya borcları | 15, 30 | 12,865 | 11,798 |
| İcarə öhdəliyi | 16 | 1,453 | 885 |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 24 | 120 | - |
| Digər öhdəliklər | 17 | 3,374 | 1,959 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **628,822** | **470,341** |
| **KAPİTAL:** | | | |
| Səhmdar kapitalı | 18 | 80,005 | 75,005 |
| Səhm mükafatı | 18 | 724 | 724 |
| Binaların yenidən qiymətləndirilməsi üzrə artım | | 1,644 | 1,644 |
| Yığılmış zərər | | (24,645) | (29,522) |
| **CƏMİ KAPİTAL** | | **57,728** | **47,851** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **686,550** | **518,192** |

İdarə Heyəti adından:

**Fəzail Musayev**
İdarə Heyətinin sədri

17 may 2022-ci il
Bakı, Azərbaycan Respublikası

**Əlizaman İbrahimov**
Maliyyə menecmenti departamentinin direktoru

17 may 2022-ci il
Bakı, Azərbaycan Respublikası

10-88-ci səhifələrdəki qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
## 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Əksi göstərilmədiyi halda, min Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə (yenidən təsnif edilmiş) |
|---|---|---|---|
| **Davam edən əməliyyatlar:** | | | |
| Faiz gəliri | 20, 30 | 41,001 | 35,267 |
| Faiz xərci | 20, 30 | (27,547) | (22,832) |
| **Ehtimal olunan kredit zərərinin bərpasından əvvəl xalis faiz gəliri** | | **13,454** | **12,435** |
| Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərlərinin bərpası və kreditlə bağlı öhdəliklər | 8, 9,17, 30 | 4,335 | 2,690 |
| **Xalis faiz gəliri** | | **17,789** | **15,125** |
| Haqq və komissiya gəliri | 21, 30 | 5,730 | 3,142 |
| Haqq və komissiya xərci | 21, 30 | (2,332) | (1,464) |
| Xarici valyutalarla ticarət üzrə əldə olunmuş gəlir | | 2,578 | 283 |
| Xalis xarici valyuta mübadiləsi əməliyyatları üzrə (zərər)/gəlir | | (462) | 690 |
| Müsadirə edilmiş girovların ədalətli dəyərindəki dəyişiklik | | (155) | (309) |
| İlkin tanınmada maliyyə alətlərinin ədalətli dəyəri üzrə xalis gəlir | 9, 15 | - | 158 |
| Digər gəlirlər, xalis | | 11 | - |
| **Xalis qeyri-faiz gəliri** | | **5,370** | **2,500** |
| **Əməliyyat gəliri** | | **23,159** | **17,625** |
| İşçi heyəti ilə bağlı xərclər | 22, 30 | (9,242) | (7,582) |
| Ümumi və inzibati xərclər | 23 | (8,057) | (7,316) |
| **Mənfəət vergisindən əvvəl mənfəət** | | **5,860** | **2,727** |
| Mənfəət vergisi xərci | 24 | (1,185) | (287) |
| **Davam edən əməliyyatlardan əldə olunan gəlir** | | **4,675** | **2,440** |
| **Dayandırılmış əməliyyatlar:** | | | |
| Fəaliyyəti dayandırılmış törəmə müəssisənin fəaliyyətindən yaranan zərər | 25 | (19) | (36) |
| Törəmə müəssisənin satışından əldə edilən gəlir | 25 | 271 | - |
| Mənfəət vergisi xərci | 24 | (50) | (7) |
| **Dayandırılmış fəaliyyətlərdən əldə olunan gəlir** | | **202** | **(43)** |
| **İl üzrə xalis mənfəət** | | **4,877** | **2,397** |
| **Digər məcmu gəlir:** | | | |
| **İl üzrə cəmi məcmu gəlir** | | **4,877** | **2,397** |
| Hər səhm üzrə əsas və azaldılmış mənfəət (AZN ilə göstərilmiş) | 19 | 67.8 | 37.0 |

İdarə Heyəti adından:

**Fəzail Musayev**
İdarə Heyətinin sədri

17 may 2022-ci il
Bakı, Azərbaycan Respublikası

**Əlizaman İbrahimov**
Maliyyə menecmenti departamentinin direktoru

17 may 2022-ci il
Bakı, Azərbaycan Respublikası

10-88-ci səhifələrdəki qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
## 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi göstərilmədiyi halda, min Azərbaycan Manatı ilə)*

| | Səhmdar kapitalı | Səhm üzrə mükafat | Binaların yenidən qiymətləndi-rilməsi üzrə əlavə vəsaitlər | Yığılmış zərər | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **1 yanvar 2020-ci il** | **70,004** | **724** | **1,644** | **(31,919)** | **40,453** |
| Adi səhmlərin buraxılması | 5,001 | - | - | - | 5,001 |
| İl üzrə xalis mənfəət | - | - | - | 2,397 | 2,397 |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | **75,005** | **724** | **1,644** | **(29,522)** | **47,851** |
| Adi səhmlərin buraxılması | 5,000 | - | - | - | 5,000 |
| İl üzrə xalis mənfəət | - | - | - | 4,877 | 4,877 |
| **31 dekabr 2021-ci il tarixinə qalıq** | **80,005** | **724** | **1,644** | **(24,645)** | **57,728** |

İdarə Heyəti adından:

**Fəzail Musayev**
İdarə Heyətinin sədri

17 may 2022-ci il
Bakı, Azərbaycan Respublikası

**Əlizaman İbrahimov**
Maliyyə menecmenti departamentinin direktoru

17 may 2022-ci il
Bakı, Azərbaycan Respublikası

10-88-ci səhifələrdəki qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Əksi göstərilmədiyi halda, min Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Alınmış faizlər | | 40,253 | 33,727 |
| Ödənilmiş faizlər | | (25,767) | (22,507) |
| Alınmış haqq və komissiyalar | | 5,730 | 3,142 |
| Ödənilmiş haqq və komissiyalar | | (2,332) | (1,464) |
| İşçilərlə bağlı ödənilmiş xərclər | | (9,124) | (7,667) |
| Ödənilmiş ümumi və inzibati xərclər | | (6,586) | (5,656) |
| Xarici valyutalarla ticarət üzrə əldə olunmuş gəlir | | 2,578 | 283 |
| Ödənilmiş mənfəət vergisi | | (436) | (69) |
| **Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətləri üzrə daxil olan/(yönələn) pul vəsaitləri** | | **4,316** | **(211)** |
| *Xalis (artma)/azalma:* | | | |
| Banklara verilmiş kreditlər və depozitlər | | (3,201) | (283) |
| Müştərilərə verilmiş kreditlər | | (86,926) | (4,516) |
| Digər aktivlər | | 11 | 52 |
| *Xalis artma/(azalma):* | | | |
| Banklardan və digər maliyyə təşkilatlarından alınacaq depozit və qalıqlar | | (6,147) | 7,320 |
| Cari hesablar və müştərilərdən alınmış depozitlər | | 137,577 | 37,686 |
| Digər öhdəliklər | | 1,024 | 373 |
| **Əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **46,654** | **40,421** |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Satış üzrə daxilolmalar çıxılmaqla, investisiya qiymətli kağızlarının satın alınması | | (16,442) | (439) |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin satın alınması | | (2,289) | (842) |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin silinməsi üzrə daxilolmalar | | - | 44 |
| **İnvestisiya fəaliyyətləri üzrə istifadə olunan pul vəsaitlərinin hərəkəti** | | **(18,731)** | **(1,237)** |
| **MALİYYƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Digər borc alınmış vəsaitlərin əldə olunması | 15 | 68,383 | 43,771 |
| Digər borc alınmış vəsaitlərin ödənilməsi | 15 | (45,445) | (35,439) |
| Subordinasiya borclarının alınması | 15 | 5,253 | - |
| Subordinasiya borclarının ödənilməsi | 15 | (4,250) | - |
| İcarə öhdəliklərinin əsas hissəsinin ödənilməsi | 16 | (398) | (355) |
| Səhmdar kapitalının buraxılması üzrə daxilolmalar | 18 | 5,000 | 5,001 |
| **Maliyyə fəaliyyəti üzrə daxil olan pul vəsaitləri** | | **28,543** | **12,978** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma** | | **56,466** | **52,162** |

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
## 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ (Davamı)
*(Əksi göstərilmədiyi halda, min Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Valyuta məzənnəsindəki dəyişikliklərin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | (1,014) | 2,228 |
| İlin əvvəlində pul vəsaitləri və onların ekvivalentləri | 7 | 118,046 | 63,656 |
| **İlin sonunda pul vəsaitləri və onların ekvivalentləri** | 7 | **173,498** | **118,046** |

İdarə Heyəti adından:

**Fəzail Musayev**
İdarə Heyətinin sədri

17 may 2022-ci il
Bakı, Azərbaycan Respublikası

**Əlizaman İbrahimov**
Maliyyə menecmenti departamentinin direktoru

17 may 2022-ci il
Bakı, Azərbaycan Respublikası

Azərbaycan Respublikası «Turanbank» ASC «Turanbank» OJSC Azerbaijan Republic

10-88-ci səhifələrdəki qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## 1. ÜMUMİ MƏLUMAT

Bu konsolidə edilmiş maliyyə hesabatlarına “TuranBank” Açıq Səhmdar Cəmiyyətinin (“Bank”) və onun törəmə müəssisəsi olan “TuranLizinq” MMC-nin (bundan sonra birlikdə “Qrup” adlanacaq) satış tarixinə olan 26 may 2021-ci il tarixinədək olan maliyyə hesabatları daxildir.

Bank 12 iyun 1992-ci il tarixində Azərbaycan Respublikasında açıq səhmdar cəmiyyət kimi təsis edilmişdir. Bankın əsas fəaliyyət istiqamətlərinə əmanətlərin qəbulu, müştəri hesablarının saxlanması, kreditlərin və zəmanətlərin verilməsi, nağd pul və hesablaşma əməliyyatları, qiymətli kağızlarla əməliyyatlar və xarici valyuta mübadiləsi əməliyyatları daxildir. Həmçinin Bank lisenziyasına uyğun olaraq qiymətli metallarla əməliyyatlar aparmaq hüququna malikdir. Bankın fəaliyyətləri Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən tənzimlənir. Bank ümumi bank lisenziyasına, qiymətli metallarla əməliyyatlar aparmaq lisenziyasına sahibdir və Azərbaycan Respublikasında dövlət əmanətlərin sığortalanması proqramının üzvüdür.

Bank 29 dekabr 2006-cı il tarixli “Əmanətlərinin sığortalanması haqqında Qanun”da nəzərdə tutulan əmanətlərin sığortalanması üzrə dövlət proqramında iştirak edir. Azərbaycan Əmanətlərin Sığortalanması Fondu aşağıdakı meyarlara cavab verən fərdi depozitlərin 100% ödənilməsinə zəmanət verir:

“Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən sığortalanmış əmanət, əmanətçinin xidmət göstərildiyi iştirakçı bankda sığorta hadisəsi baş verdiyi təqdirdə qorunan əmanətin Əmanətlərin Sığortalanması Fondu tərəfindən ödəniləcək hissəsidir. 1 iyun 2020-ci il tarixindən etibarən milli valyutada qorunan əmanətlər üzrə illik maksimum faiz dərəcəsi 12%, xarici valyutada isə - 2.5% müəyyən edilmişdir. 19 yanvar 2016-cı il tarixli və sonuncu dəfə 18 dekabr 2020-ci il tarixində düzəliş edilmiş “Əmanətlərin tam sığortalanması haqqında” başqa bir qanuna əsasən, Əmanətlərin Sığortalanması Fondunun Qəyyumlar Şurası tərəfindən müəyyən edilmiş illik faiz dərəcəsi daxilində qorunan bütün əmanətlər məbləğindən asılı olmayaraq, 2021-ci il 5 aprel tarixinədək tam sığortalanır. Sığorta hadisəsi baş verdiyi təqdirdə, 5 aprel 2021-ci il tarixindən etibarən hər əmanətçi əmanət müqaviləsinin tam məbləği üzrə Əmanətlərin Sığortalanması Fondundan 100 min AZN-dən çox olmayan təzminat almaq hüququna malikdir.

Bankın Azərbaycan Respublikası ərazisində 15 filialı və iki şöbəsi (2020-ci il: 14 filial və 2 şöbə) fəaliyyət göstərir.

31 dekabr 2021-ci il tarixinə Bankın hər birinin səhm payı 10%-dən az olan 28 səhmdarı olmuşdur (2020-ci il: hər birinin səhm payı 10%-dən az olan 28 səhmdarı). Bankın Qrupun əməliyyatlarını öz qərarı ilə və şəxsi mənfəəti üçün idarə edəcək səlahiyyətə malik olan son nəzarətçi tərəfi yoxdur. Bankın hüquqi ünvanı İsmayıl bəy Qutqaşınlı küçəsi 85, AZ1073, Bakı, Azərbaycan Respublikasıdır.

31 dekabr 2021 və 2020-ci il tarixlərinə Qrupun strukturu aşağıdakı kimi olmuşdur:

| | | **Təsisçi payı/səsvermə hüquqları (%)** | | |
|---|---|---|---|---|
| **Adı** | **Fəaliyyət göstərdiyi ölkə** | **31 dekabr 2021-ci il** | **31 dekabr 2020-ci il** | **Əməliyyat-ların növü** |
| “TuranBank” ASC | Azərbaycan Respublikası | Ana müəssisə | | Bankçılıq |
| **Törəmə müəssisə** | | | | |
| “TuranLeasing” MMC | Azərbaycan Respublikası | - | 100% | Lizinq |

Bank 21 avqust 2006-cı il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində “TuranLizinq” MMC-ni qeydiyyatdan keçirmişdir. Şirkət 2006-cı ilin sentyabr ayından etibarən fəaliyyətə başlamışdır və 2021-ci ildə sərəncama çıxana qədər 100% Banka məxsus olmuşdur.

26 may 2021-ci il tarixində Qrup hər bir səhmin nominal dəyəri 20 AZN olan 5 adi səhmin üçüncü şəxs rezident fiziki şəxsə 100 AZN-ə satılması yolu ilə “TuranLizinq” MMC-dəki 100% sahiblik hüququnu tam olaraq ləğv etmişdir.

## 2. HAZIRLIĞIN ƏSASLARI

### Hesabatların uyğunluğunun bəyanı

Qrupun 31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə konsolidə edilmiş maliyyə hesabatları Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Beynəlxalq Maliyyə Hesabatları Standartları (“MHBS”) və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi (“MHBSŞK”) tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır.

### Fasiləsizlik prinsipi

Bu konsolidə edilmiş maliyyə hesabatları Qrupun fasiləsizlik prinsipi əsasında yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik hesab edir ki, Qrup yaxın gələcəkdə öz fəaliyyətini davam etdirəcək və Qrupun likvidasiyasına nə istək, nə də ehtiyac olacaq, eləcə də fəaliyyəti dayandırmaq və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlardan qorunmaq üçün müdafiə axtarmaq üzrə nə niyyət, nə də zərurət mövcuddur. Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyət gedişində Bankın aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olması fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Qrupun fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Rəhbərliyin fasiləsizlik prinsipi üzrə ehtimalının qiymətləndirilməsi, müəyyən bir müddətdə, hadisələrin və ya şərtlərin gələcək inkişafı ilə əlaqədar subyektiv qərarların qəbul edilməsini nəzərdə tutur.

## 3. MÜHÜM MÜHASİBAT UÇOTU PRİNSİPLƏRİ

### Əməliyyat valyutası

Qrupun hər bir müəssisəsinin konsolidə edilmiş maliyyə hesabatlarına daxil edilən maddələr, müəssisənin fəaliyyət göstərdiyi əsas iqtisadi mühitdəki valyutanı (“Azərbaycan manatı”) istifadə etməklə ölçülür. Qrupun və onun törəmə müəssisəsinin əməliyyat valyutası Azərbaycan Manatıdır (“AZN”). Qrupun konsolidə edilmiş maliyyə hesabatları Manatla təqdim olunmuşdur. Başqa qeydlər olmadığı təqdirdə bütün maliyyə məlumatları yaxın minlik ədədinə qədər yuvarlaqlaşdırılmışdır.

### Konsolidasiyanın əsasları

Hazırkı konsolidə edilmiş maliyyə hesabatlarına Bankın və onun törəmə müəssisəsinin (struktur müəssisələr daxil olmaqla) maliyyə hesabatları daxildir. Nəzarət aşağıdakı hallarda həyata keçirilir:

- Bank investisiya qoyulan müəssisə üzərində səlahiyyətə malik olduqda;
- Bank investisiya qoyulan müəssisə ilə iş birliyindən gəlir əldə etdikdə və ya belə gəlirlər üzrə hüquqa malik olduqda; və
- Bank gəlirlərə təsir etmək üçün öz səlahiyyətindən istifadə etmək qabiliyyətinə malik olduqda.

Fakt və mövcud vəziyyətlər nəzarətin yuxarıda qeyd olunan üç elementindən birinə və ya daha çoxuna dəyişiklər edildiyini göstərdiyi təqdirdə, Bank investisiya qoyulan müəssisəyə nəzarət edib-etməməsini yenidən qiymətləndirir.

Törəmə müəssisənin konsolidə olunması Bank bu törəmə müəssisə üzərində nəzarəti əldə etdiyi zaman başlayır və itirdiyi zaman dayandırılır. Xüsusilə, il ərzində törəmə müəssisənin əldə edilən və ya xaric olunan gəlir və xərcləri Bank tərəfindən müvafiq nəzarətin əldə edildiyi tarixdən belə nəzarətin dayandırıldığı tarixə qədər mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında konsolidə edilmiş hesabata daxil olunur.

Qrup törəmə müəssisə üzərində nəzarəti itirdikdə, silinmələr üzrə mənfəət və ya zərər (i) alınan məbləğin ədalətli dəyərinin məcmusu və hər hansı saxlanılan faizin ədalətli dəyəri və (ii) aktivlərin (qudvil daxil olmaqla) və törəmə müəssisənin öhdəliklərinin və hər hansı nəzarət olunmayan payların əvvəlki qalıq dəyəri arasındakı fərq ilə hesablanır. Törəmə müəssisənin aktivləri yenidən qiymətləndirilmiş dəyərlə və ya ədalətli dəyərlə uçota alındıqda müvafiq məcmu gəlir və ya zərər digər məcmu gəlirdə tanındıqda və kapitalda toplandıqda, əvvəllər digər məcmu gəlirdə tanınmış və kapitalda toplanmış məbləğlər, kapitalda toplanmış vəsaitlər Qrupun müvafiq aktivləri bilavasitə sildiyi kimi uçota alınır (yəniyəni, müvafiq MHBS ilə müəyyən edildiyi kimi mənfəət və ya zərərə yenidən təsnif edilmiş və ya birbaşa bölüşdürülməmiş mənfəətə köçürülmüşdür).

Lazım olduqda törəmə müəssisələrdə tətbiq edilən mühasibat uçotu qaydalarının Qrupdakı digər müəssisələr tərəfindən istifadə olunan mühasibat uçotu qaydalarına uyğunlaşdırılması üçün törəmə müəssisələrinin maliyyə hesabatlarına düzəlişlər edilir.

Bütün qrupdaxili əməliyyatlar və qalıqlar konsolidə edilməsi zamanı tam şəkildə silinir.

**Biznes birləşmələri**

Biznes birləşmələri satınalma tarixində satınalma metodundan istifadə edilərək uçota alınır və bu tarix, nəzarətin Qrupa ötürüldüyü tarixdir.

Qrup satınalma tarixində qudvili köçürülmüş kompensasiyanın ədalətli dəyəri (müəssisələrin birləşməsi mərhələlərlə əldə edildiyi təqdirdə əldə edilmiş müəssisədə əvvəllər saxlanılmış hər hansı səhm payının ədalətli dəyəri daxil olmaqla) və əldə edilmiş müəssisədə, əldə edilmiş müəyyən edilə bilən aktivlərin və qəbul edilmiş öhdəliklərin xalis tanınmış məbləği (ümumiyyətlə ədalətli dəyər) çıxılmaqla hər hansı nəzarəti olmayan faizlərin tanınmış məbləği kimi qiymətləndirir. Həyata keçirilmiş köçürmə, əvvəlcədən mövcud olan münasibətlərin həll edilməsilə bağlı məbləğləri əhatə etmir. Bu məbləğlər, ümumiyyətlə, mənfəət və ya zərərdə tanınır.

Ödəniləcək hər hansı şərti öhdəlik, satınalma tarixində ədalətli dəyərlə ölçülür. Əgər şərti öhdəliklər kapital kimi təsnifləşdirilirsə, o, yenidən qiymətləndirilmir və həll, kapital daxilində hesablanır. Əks halda, şərti dəyərin ədalətli dəyərindəki sonrakı dəyişikliklər mənfəət və ya zərərdə tanınır.

Qrup satın alınma tarixində nəzarət edilməyən mənfəətin ədalətli dəyərdə və ya əldə edilmiş müəssisənin müəyyən edilmiş xalis aktivlərinin tanınmış məbləğinin onların mütənasib payı ilə ölçülməsini əməliyyatların gedişatı əsasında seçir.

Qrup üçün müəssisələrin birləşməsi ilə əlaqədar yaranan, borc və ya səhm qiymətli kağızlarının buraxılması ilə əlaqəli xərclər xaricində olan əməliyyat xərcləri yarandıqca xərclərə aid edilir.

**Faiz gəliri və xərcinin tanınması**

Faiz gəliri və xərcləri amortizasiya olunmuş dəyərdə və ya DMGVƏD ilə əlavə etmə əsasında, effektiv faiz metodundan istifadə etməklə, borc alətləri üzrə uçota alınır. Bu metoda əsasən, faiz gəlirləri və xərclərinə müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün komissiya və haqlar, sövdələşmə xərcləri, eləcə də bütün digər mükafat və ya güzəştlər daxildir.

Effektiv faiz dərəcəsinə aid olan komissiya haqlarına maliyyə aktivinin yaradılması və ya alınması, yaxud maliyyə öhdəliyinin (məsələn, ödəmə qabiliyyətinin qiymətləndirilməsi, zəmanətlərin və ya girovun dəyərləndirilməsi və qeydə alınması, maliyyə alətinin təqdim edilməsi şərtlərinin razılaşdırılması və sövdələşmə sənədlərinin hazırlanması haqları) buraxılması ilə əlaqədar alınmış və ya ödənilmiş komissiya haqları daxildir. Bazar faiz dərəcələri ilə kreditlərin verilməsi üzrə öhdəlik üçün Qrup tərəfindən alınmış komissiya haqları, Qrupun xüsusi kredit müqaviləsini imzalayacağı ehtimal edildikdə və kreditin verilməsindən sonra qısa müddət ərzində onun realizasiyasını planlaşdırmadıqda effektiv faiz dərəcəsinin tərkib hissəsi hesab edilir. Qrup kredit verilməsi üzrə öhdəlikləri MZVƏD ilə ölçülən maliyyə öhdəlikləri kimi təsnif etmir.

Kredit dəyərsizləşməsi ilə əldə edilmiş və ya satın alınmış maliyyə aktivləri üçün effektiv faiz dərəcəsi ehtimal edilən pul vəsaitlərinin hərəkəti (ilkin ehtimal olunan kredit zərərləri də daxil olmaqla) ilkin tanınma zamanı ədalətli dəyərə (adətən alış qiyməti ilə) diskont edilmiş dərəcəsidir. Nəticədə, effektiv faiz dərəcəsi kredit uçotu ilə tənzimlənir.

Faiz gəlirləri, aşağıdakılar istisna olmaqla maliyyə aktivlərinin ümumi qalıq dəyərinə effektiv faiz dərəcəsini tətbiq etməklə hesablanır:

- faiz gəlirləri effektiv faiz dərəcəsini onların amortizasiya dəyərinə (EOKZ üzrə ehtiyat çıxılmaqla) tətbiq etməklə hesablanmış kredit üzrə dəyərsizləşməyə uğramış (3-cü Mərhələ) maliyyə aktivləri; və
- amortizasiya dəyərinə ilkin kreditə uyğunlaşdırılmış effektiv faiz dərəcəsi tətbiq edilən əldə edildikdə və ya satın aldıqda kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri.

**Haqq və komissiya gəliri və xərclərinin tanınması**

Bütün digər haqlar, komissiyalar və digər gəlir və xərc vahidləri dövr ərzində xidmətlərin bir hissəsi kimi göstərilən alıcının adətən Qrupun düz xətt üsulu üzrə olan mənfəətlərini alıb istifadə etməsinə istinad edərək hesablama metodu əsasında qeyd olunur.

Kreditlərin, səhmlərin və ya digər qiymətli kağızların alınması və ya müəssisələrin alqı-satqısı kimi üçüncü tərəf üçün danışıqların aparılmasından və ya əməliyyat danışıqlarında iştirakdan yaranan və Qrup icra öhdəliyini yerinə yetirdikdə qazanılan komissiyalar və haqlar əməliyyat başa çatdıqdan sonra uçota alınır. Portfel və digər idarəetmə məsləhət və xidmət haqları, adətən düz xətt əsasında Qrup tərəfindən yerinə yetirilən mənfəətlərin müştəri tərəfindən eyni anda alınıb istifadə edilməsi üzrə olan müddətdə tətbiq olunan xidmət müqavilələri əsasında tanınır. İnvestisiya fondları ilə bağlı aktivlərin idarə olunması üzrə olan haqlar müştərinin eyni vaxtda adətən düz xətt əsasında Qrup tərəfindən yerinə yetirilən mənfəətlərin alınıb istifadə edilməsi üzrə olan müddətdə tətbiq olunan xidmətlər əsasında tanınır. Eyni prinsip, uzun müddət ərzində davamlı təmin olunan mülkiyyətin idarə edilməsi, maliyyə planlaşdırılması və saxlama xidmətlərinə tətbiq edilir.

**Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları**

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya edilmiş dəyərlə qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

*Ədalətli dəyər* qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər ən yaxşı olaraq fəal bazarda alınıb satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar, qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb-satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir. Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir.

Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir.

*Əməliyyat xərcləri* əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

*Amortizasiya edilmiş dəyər* əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin qalıq dəyərinə daxil edilir.

*Effektiv faiz metodu* maliyyə alətinin qalıq dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis qalıq dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

***Maliyyə alətlərinin ilkin tanınması***

Maliyyə aktivi və ya maliyyə öhdəliyi, ilk öncə ədalətli dəyərdə, həmçinin əldə edilməsinə və buraxılmasına birbaşa aid olan mənfəət və ya zərər, əməliyyat xərcləri ilə ədalətli dəyərdə olmayan predmet üzrə ölçülür. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə sübut edilir. İlkin tanınma zamanı yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda yaranan mənfəət və ya zərər qeydə alınır. Ədalətli dəyər eyni maliyyə aləti ilə aparılan digər cari bazar əməliyyatlarının müşahidəsi və yaxud həmin bazarlardan əldə edilən məlumatlara əsaslanan qiymətləndirmə üsulu ilə sübut edilir.

Qanunvericilik və ya mövcud bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində alınıb-satılması nəzərdə tutulan maliyyə aktivləri (“standart şərtlərlə həyata keçirilən” alış və satışlar) Bankın maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar müəssisənin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduqda tanınır.

***Maliyyə alətlərinin təsnifatı***

Maliyyə aktivi amortizasiya dəyərində, digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə (“DMGVƏD”) ölçülmüş dəyərdə və ya mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə (“MZVƏD”) təsnif edilir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisinə cavab verdikdə və MZVƏD kimi müəyyən edilmədikdə, amortizasiya olunmuş dəyərində ölçülür:

- Aktiv müqavilə üzrə pul axınlarını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- Maliyyə aktivinin müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən (YƏMFÖ) ibarət olan pul axınlarına təkan verir.

Borc aləti aşağıdakı şərtlərin hər ikisinə cavab verdikdə və MZVƏD kimi müəyyən edilmədikdə, DMGVƏD-də ölçülür:

- Aktiv həm müqavilə üzrə pul axınlarının toplanması və həm də maliyyə aktivlərinin satılması məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- Maliyyə aktivinin müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən ibarət olan pul axınlarına təkan verir.

Ticarət üçün nəzərdə tutulmayan kapital qoyuluşunun ilkin tanınması zamanı Qrup ədalətli dəyərdəki sonrakı dəyişiklikləri digər məcmu gəlirdə (DMG) təqdim etməyi seçə bilər. Bu seçim hər bir kapital qoyuluşu üçün ayrıca edilir.

Bütün digər maliyyə aktivləri MZVƏD-də ölçülmüş kimi təsnif edilir.

Bununla yanaşı, ilkin tanıma zamanı Qrup amortizasiya olunmuş dəyərində və ya DMGVƏD-də ölçülmə tələblərinə uyğun gələn maliyyə aktivini MZVƏD kimi təsnif edə bilər, o halda ki, bu, meydana çıxacaq uçot uyğunsuzluğunu aradan qaldırsın və ya əhəmiyyətli dərəcədə azaltsın.

**Biznes modelinin qiymətləndirilməsi**

Qrup maliyyə aktivinin portfel səviyyəsində saxlandığı biznes modelinin məqsədini qiymətləndirir, çünki bu, biznesin idarə olunması və məlumatların rəhbərliyə təqdim edilməsi üsulunu daha düzgün əks etdirir. Bu zaman aşağıdakı məlumatlar nəzərə alınır:

- portfel üçün müəyyən edilmiş siyasətlər və məqsədlər, həmin siyasətlərin praktikada tətbiqi, xüsusilə rəhbərliyin strategiyasının müqavilə üzrə faiz gəlirlərinin əldə edilməsinə, xüsusi faiz dərəcəsi profilinin saxlanmasına, maliyyə aktivlərinin müddətinin həmin aktivləri maliyyələşdirən öhdəliklərin müddətinə uyğunlaşdırılmasına və ya aktivlərin satışı vasitəsilə pul axınlarının realizasiyasına fokuslanıb-fokuslanmaması;
- portfelin göstəricilərinin hansı tərzdə qiymətləndirilməsi və Qrupun rəhbərliyinə çatdırılması;
- biznes modelinin (və həmin biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivlərinin) performansına təsir edən risklər və bu risklərin hansı tərzdə idarə olunması;
- biznesin menecerlərinin hansı tərzdə mükafatlandırılması – məsələn, mükafatlandırma idarə olunan aktivlərin ədalətli dəyərindən və ya toplanmış pul axınlarından asılıdırmı; və
- əvvəlki dövrlərdə satışların tezliyi, həcmi və müddəti, bu satışların səbəbləri və gələcək satış fəaliyyəti barədə gözləntilər. Bununla belə, satış fəaliyyəti barədə məlumat ayrıca deyil, maliyyə aktivlərinin idarə olunması üzrə Qrupu məqsədinə necə nail olunmasının və pul axınlarının necə realizasiya edilməsinin ümumi qiymətləndirilməsi çərçivəsində nəzərə alınır.

**Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsi**

Bu qiymətləndirmənin məqsədləri üçün “əsas məbləğ” dedikdə, ilkin tanınma zamanı maliyyə alətinin ədalətli dəyəri nəzərdə tutulur. “Faiz” dedikdə, pulun zaman dəyəri, müəyyən dövr ərzində ödənilməmiş əsas məbləğlə bağlı kredit riski və digər əsas kredit riskləri və xərcləri (məs. likvidlik riski və inzibati xərclər), eləcə də mənfəət marjası üçün ödəniş nəzərdə tutulur.

Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsində Qrup alətin müqavilə şərtlərini nəzərə alır. Bu qiymətləndirmə maliyyə aktivində həmin aktivin bu şərtə əməl etməməsi ilə nəticələnən, müqavilə üzrə pul axınlarının müddəti və ya məbləğini dəyişə bilən müqavilə şərtinin olub-olmamasını əhatə edir.

Qiymətləndirmə zamanı Qrup aşağıdakıları nəzərə alır:

- pul axınlarının məbləği və müddətini dəyişəcək şərti hadisələr;
- kapitalın borca nisbətinin xüsusiyyətləri;
- vaxtından əvvəl ödəniş və müddətin uzadılma şərtləri;
- Qrupun iddiasını müəyyənləşdirilmiş aktivlərdən pul axınlarına məhdudlaşdıran şərtlər məsələn, reqressiz aktivlər; və
- pulun zaman dəyəri üzrə ödənişi dəyişən xüsusiyyətlər – məsələn, faiz dərəcələrinin mütəmadi olaraq yenilənməsi.

**Maliyyə alətlərinin yenidən təsnifi**

Maliyyə aktivləri Qrupun maliyyə aktivlərini idarə etmək üçün öz biznes modelini dəyişdirdikdən sonra dövr ərzində istisna olmaqla, maliyyə aktivləri ilkin tanınmalarından sonra yenidən təsnifləşdirilmir. Yenidən təsnifat perspektiv təsirə malikdir.

**Maliyyə alətlərinin dəyərsizləşməsi – EOKZ üzrə ehtiyat**

Qrup AD və DMGVƏD ilə ölçülmüş borc alətləri və kredit öhdəlikləri və maliyyə zəmanəti müqavilələri üzrə EOKZ-ni perspektiv əsasda ölçür. Qrup EOKZ-ni ölçür və hər hesabat dövrünə kredit zərəri üzrə ehtiyatı tanıyır. EOKZ ölçülməsi: (i) mümkün nəticələrin bir sıra qiymətləndirilməsi ilə təyin olunan qərəzsiz və ehtimallı məbləğini (ii) pul vəsaitlərinin müddət dəyərini və (iii) keçmiş hadisələr, gələcək şərtlər və gələcək şəraitin proqnozları barədə hər bir hesabat dövrünün sonunda qeyri-adekvat xərc və səy olmadan mövcud olan bütün məqbul və dəstəklənən məlumatları əks etdirir.

AD ilə ölçülmuş borc alnmış vəsaitlər EOKZ üzrə ehtiyat çıxılmaqla maliyyə vəziyyəti haqqında hesabatda göstərilir. Kredit öhdəlikləri və maliyyə zəmanətləri üçün, EOKZ üzrə ayrı ehtiyat, maliyyə vəziyyəti haqqında hesabatda öhdəlik olaraq tanınır. DMGVƏD-də borc alətləri üçün EOKZ üzrə ehtiyat çıxılmaqla amortizasiya dəyərindəki dəyişiklik, mənfəət və ya zərər və digər qalıq dəyərindəki dəyişiklik isə DMG-də gəlirlər DMGVƏD borc alətləri üzrə zərərlər çıxılmaqla tanınır.

Qrup dəyərsizləşmə üzrə üç mərhələli model tətbiq edir. Bu model ilkin tanımadan sonra kredit keyfiyyətində dəyişikliyə əsaslanır. İlkin tanımada kredit üzrə dəyərsizləşməyən maliyyə aləti 1-ci Mərhələyə təsnif edilir. 1-ci Mərhələdə maliyyə aktivləri EOKZ-nin ömürlük hissəsinə bərabər olan miqdarda növbəti 12 ay ərzində mümkün olan nəticələrə və ya daha qısa müddətdə (“12 aylıq EOKZ”) müqavilə müddətinə qədər ölçülür. Əgər Qrup KRƏA-nı ilkin tanımadan sonra müəyyən edirsə, aktiv 2-ci Mərhələyə köçürülür və onun EOKZ-si ömürlük EOKZ əsasında, müqaviləyə uyğun olaraq, son ödəmə müddətinə qədər, lakin əgər varsa (“Ömürlük EOKZ”) ehtimal olunan ödənişlər nəzərə alınmaqla hesablanır. Qrupun KRƏA-nı müəyyən etdiyi haqqında 26 saylı Qeydə nəzər salın. Əgər Qrup maliyyə aktivinin kredit üzrə dəyərsizləşməsini müəyyən edirsə, aktiv 3-cü Mərhələyə köçürülür və EOKZ Ömürlük EOKZ ilə ölçülür. Qrupun kredit dəyərsizləşməsi üzrə aktiv və defolt anlayışları 26-cı Qeyddə açıqlanır. Satın alındıqda və ya əldə edildikdə kredit üzrə dəyərsizləşməyə uğramış aktivlər (“SƏKD”) üçün EOKZ hər zaman Ömürlük EOKZ ilə ölçülür. SƏKD aktivləri ilkin tanınma zamanı, məsələn, əldə edilmiş dəyərsizləşdirilmiş kreditlər kimi dəyərsizləşmiş maliyyə aktivləridir. 26-cı Qeyd

EOKZ ölçülməsində istifadə edilən giriş, fərziyyə və qiymətləndirmə üsulları haqqında, eyni zamanda Qrupun EOKZ modellərində ehtimal edilən məlumatları necə əhatə etdiyini izah edir.

**Maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatda EOKZ üzrə ehtiyatın təqdim edilməsi**

EOKZ üzrə zərər ehtiyatları maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatda aşağıdakı kimi təqdim olunur:

- amortizasiya olunmuş dəyərdə ölçülən maliyyə aktivləri: aktivlərin ümumi qalıq dəyərindən çıxılma kimi;
- kredit öhdəlikləri və maliyyə təminatı müqavilələri: ehtiyat kimi;
- maliyyə aləti həm çıxarılmış, həm də istifadə edilməmiş komponentdən ibarət olduğu halda və Qrup, kredit öhdəliyi komponenti üzrə EOKZ-ni çıxarılmış komponentdən ayrı olaraq müəyyən edə bilmədiyi halda: Qrup hər iki komponent üzrə birgə zərər ehtiyatı təqdim edir. Birləşdirilmiş məbləğ yerinə yetirilmiş komponentin ümumi qalıq dəyərindən çıxılmaqla təqdim edilir. Çıxarılmış komponentin ümumi məbləği üzrə zərər ehtiyatının hər hansı bir hissəsi ehtiyat kimi təqdim olunur; və
- DMGVƏD-də ölçülən borc alətləri: aktivlərin qalıq məbləği onların ədalətli dəyəri olduğu üçün, heç bir zərər ehtiyatı maliyyə vəziyyəti haqqında hesabatda tanınmır. Bununla yanaşı, zərər ehtiyatı ədalətli dəyər ehtiyatının bir hissəsi kimi tanınır.

**Maliyyə aktivlərinin silinməsi**

Qrup bütün praktiki bərpaetmə səylərini tükətdikdə və bərpa etmək üçün ağlabatan bir gözləntinin olmadığı qənaətinə gəldikdə, maliyyə aktivləri tamamilə və ya qismən silinir. Silinmələr tanınmanın dayandırılmasını əks etdirir. Qrup, müqaviləyə əsasən ödənilən məbləğləri bərpa etmək istədiyi halda, hələ də icra fəaliyyətinə məruz qalan maliyyə aktivlərini silə bilər; lakin bərpa üçün ağlabatan gözlənti yoxdur.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Qrup aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Qrup maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Nəzarət qarşı tərəfin öz mülkiyyətində olan aktivi satış üzrə əlavə məhdudiyyətlər qoymadan əlaqəli olmayan üçüncü tərəfə satmaq üçün praktiki imkana malik olmadığı hallarda saxlanılır.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentlərinə dövriyyədəki nağ pul vəsaitləri, Azərbaycan Respublikasının Mərkəzi Bankındakı (“ARMB”) ilkin ödəniş müddəti 90 gündən az və ya bərabər müxbir hesablar və müddətli depozitlər üzrə məhdudlaşdırılmamış qalıqlar, Azərbaycan Respublikası Mərkəzi Bankı (“ARMB”) tərəfindən 90 günədək buraxılmış notlar və ilkin ödəniş müddəti 90 gündən az və ya bərabər olan kredit təşkilatlarından alınacaq və müqavilə yüklülüklərindən azad olan məbləğlər daxildir. 1 iş günündən artıq olan dövr üzrə məhdudlaşdırılan vəsaitlər yarandığı ilk vaxtdan etibarən həm konsolidə olunmuş maliyyə vəziyyəti haqqında hesabatdan, həm də konsolidə olunmuş pul vəsaitlərinin hərəkəti haqqında hesabatın məqsədləri üzrə pul vəsaitləri və onların ekvivalentləri kateqoriyasından kənarlaşdırılır. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş dəyərdə uçota alınırlar, çünki: (i) müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması üçün saxlanılır və həmin pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təqdim edir və (ii) onlar MZVƏD olaraq təyin edilmir.

**Azərbaycan Respublikasının Mərkəzi Bankındakı məcburi ehtiyatlar**

Azərbaycan Respublikasının Mərkəzi Bankında olan məcburi ehtiyatlar, onların əlçatanlığını məhdudlaşdıran Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilmiş tələblərə uyğun olaraq Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən onların mövcudluğu ilə bağlı məhdudiyyətlərə dair qoyulmuş məcburi ehtiyatların məbləğini təqdim edir. Yuxarıda göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən tələb olunan minimum ehtiyat depozitinin məbləği, pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatda pul vəsaitləri hesabına daxil edilmir.

**Banklara verilmiş kreditlər və depozitlər**

Banklara verilmiş kreditlər və depozitlər, Qrupun, müxbir banklara pul köçürməsi zamanı qeydə alınır. Banklara verilmiş kreditlər və depozitlər (i) müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması üçün saxlanıldıqda və həmin pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təmsil etdikdə və (ii) onlar MZVƏD-də təyin edilmədikdə amortizasiya olunmuş dəyərdə uçota alınırlar.

**Müştərilərə verilmiş kreditlər və avanslar**

Müştərilərə verilmiş kreditlər və avanslar Qrup tərəfindən müştərilərdən kredit almaq üçün avans şəklində nağd pul verildiyi zaman qeydə alınır. Biznes modeli və pul vəsaitlərinin hərəkəti xarakteristikasına əsasən Qrup müştərilərə verilmiş kreditləri və avansları aşağıdakı qiymətləndirmə kateqoriyalarından birində təsnifləşdirir:

- AD: müqavilə üzrə pul vəsaitlərinin toplanması üçün saxlanılan kreditlər və YƏMFÖ-nü təmsil edən həmin pul vəsaitlərinin hərəkəti və könüllü olaraq MZVƏD-də təyin olunmayan kreditlər və;
- MZVƏD: YƏMFÖ sınağını keçməyən və ya MZVƏD-də ölçülən AD və ya DMGVƏD üzrə digər meyarlara cavab verməyən kreditlər.

Dəyərsizləşmə üzrə ehtiyatlar perspektiv EOKZ modelləri əsasında müəyyən edilir. 2 saylı Qeyd Qrupun EOKZ modellərində perspektiv məlumatları necə əhatə etdiyinə dair izahat daxil olmaqla, EOKZ-nin ölçülməsində istifadə olunan giriş məlumatları, ehtimallar və qiymətləndirmə üsulları haqqında məlumat verir.

**Kreditlə bağlı öhdəliklər**

Maliyyə zəmanəti müqavilələri borclu şəxs borc alətinin şərtlərinə uyğun olaraq göstərilən ödəmə müddətində ödəniş edə bilmədiyi üçün, emitentin sahibinə zərərin ödənilməsi üçün müəyyən ödənişlər etməsini tələb edən müqavilələrdir. Bu cür maliyyə zəmanətləri kreditlər, overdraftlar və digər bank xidmətlərini təmin etmək üçün müştərilərin adından banklara, maliyyə təşkilatlarına və digər şəxslərə verilir.

Maliyyə zəmanəti müqavilələri ilk öncə ədalətli dəyərdə ölçülür və sonradan aşağıdakılardan ən üstün olanı ilə ölçülür:

- Zərər üzrə ehtiyatın məbləği; və
- 15 saylı MHBS-in prinsiplərinə uyğun olaraq gəlirlər çıxılmaqla ilkin tanınma üzrə əldə olunan mükafatlar.

Qrup tərəfindən verilən kredit öhdəlikləri, zərər ehtiyatının məbləği kimi ölçülür. Qrup, aşağı bazar faiz dərəcəsində kredit təmin etmə və ya nağd pulla və ya başqa bir maliyyə alətinin təqdim edilməsi və ya buraxılması yolu ilə həll etmə öhdəliyi verməmişdir.

Kredit öhdəlikləri və maliyyə təminatı müqavilələri üzrə zərər ehtiyatı ehtiyat kimi tanınır. Bununla belə, həm krediti, həm də ödənilməmiş öhdəliyi özündə əks etdirən müqavilələr üçün və Qrup ödənilməmiş öhdəlik komponenti üzrə ehtimal olunan kredit zərərlərini kredit komponenti üzrə olanlardan ayrı olaraq təyin edə bilmirsə, ödənilməmiş öhdəlik üzrə ehtimal olunan kredit zərərləri ehtiyatı ilə birlikdə tanınır. Birləşdirilmiş ehtimal olunan kredit zərərləri, kreditin ümumi qalıq dəyərindən artıq olduqda, ehtimal olunan kredit zərərləri ehtiyat kimi tanınır.

**Borc qiymətli kağızları üzrə investisiyalar**

Biznes modeli və pul vəsaitlərinin hərəkəti xarakteristikalarına əsasən, Qrup borc qiymətli kağızlarına qoyduğu investisiyaları AD, DMGVƏD və ya MZVƏD kateqoriyaları üzrə təsnifləşdirir. Borc qiymətli kağızları müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması üçün saxlanılırsa və bu pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təmsil edirsə və əgər onlar mühasibat uçotu mühitinin uyğunsuzluğunu əhəmiyyətli dərəcədə azaltmaq üçün könüllü olaraq MZVƏD-də təyin edilmirlərsə, belə investisiyalar AD-də təsnifləşdirilir.

Borc qiymətli kağızları müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması və satılması üçün saxlanılırsa və bu pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təmsil edirsə və əgər onlar MZVƏD-də təyin edilmirlərsə, DMGVƏD-də təsnifləşdirilirlər. Bu aktivlər üzrə faiz gəlirləri effektiv faiz dərəcəsi metodundan istifadə edərək hesablanır və mənfəət və ya zərərdə tanınır. Ehtimal olunan kredit zərəri modelindən istifadə etməklə ehtimal olunan dəyərsizləşmə ehtiyatı il üzrə mənfəət və ya zərərdə tanınır. Qalıq dəyəri üzrə olan bütün digər dəyişikliklər DMG-də tanınır. Borc qiymətli kağızlarının tanınması dayandırılan zaman, əvvəllər DMG-də tanınan məcmu gəlir və ya zərərlər DMG-dən çıxarılaraq mənfəət və ya zərər hesablarında təsnifləşdirilir.

Borc qiymətli kağızları üzrə investisiyalar AD və ya DMGVƏD-ə dair meyarlara cavab vermirsə, MZVƏD-də təsnifləşdirilir. Bu opsiyanın tətbiqi müxtəlif mühasibat uçotu əsasları üzrə tanınan və ya ölçülən maliyyə aktivləri və maliyyə öhdəlikləri arasındakı mühasibat uçotu uyğunsuzluğunu əhəmiyyətli dərəcədə azaldırsa, Qrup ilkin tanınma zamanı MZVƏD-də olan borc qiymətli kağızları üzrə investisiyaları qəti şəkildə təyin edə bilər.

**DMGƏD-də olan kapital alətləri**

Ticarət üçün nəzərdə tutulmayan kapital qoyuluşunun ilkin tanınması zamanı Qrup ədalətli dəyərdəki sonrakı dəyişiklikləri digər məcmu gəlirdə (DMG) təqdim etməyi seçə bilər. Bu seçim hər bir kapital qoyuluşu üçün ayrıca edilir.

Bu kapital alətləri üzrə gəlirlər və zərərlər heç vaxt mənfəət və ya zərərə çevrilmir. Qrup alətin dəyərinin bir hissəsinin bərpası kimi daxilolmalar üzrə mənfəət əldə etməsi və bu halda belə gəlirlərin DMG-də qeydə alınması halı istisna olmaqla, dividendlər ödəmə haqqı təqdim edilən zaman digər gəlir kimi mənfəət və ya zərərdə tanınır. DMGƏD-də olan kapital alətləri dəyərsizləşmə üzrə qiymətləndirməyə məruz qalmır. Bu alətlərin silinməsindən sonra yığılmış yenidən qiymətləndirmə ehtiyatı bölüşdürülməmiş mənfəətə köçürülür.

**Əmlak, avadanlıq və qeyri-maddi aktivlər**

***Mülkiyyətdə olan aktivlər***

Əmlak və avadanlıq obyektləri aşağıda qeyd olunan yenidən qiymətləndirilmiş dəyərlə uçota alınan binalar istisna olmaqla, yığılmış köhnəlmə və yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla maya dəyəri ilə göstərilir.

Əmlak və avadanlıq obyektləri müxtəlif faydalı istismar müddətləri olan komponentlərdən ibarətdirsə, onlar əmlak və avadanlığın ayrıca obyektləri kimi uçota alınır.

***Yenidən qiymətləndirmə***

Binalar mütəmadi olaraq yenidən qiymətləndirilir. Yenidən qiymətləndirmə tezliyi yenidən qiymətləndirilən binaların ədalətli dəyərindəki dəyişikliklərdən asılıdır. Bina ilə bağlı yenidən qiymətləndirmə artımı digər məcmu gəlirlərdə tanınır, lakin mənfəət və ya zərər hesablarında qeydə alınan əvvəlki yenidən qiymətləndirmə azalmasını əksinə dəyişdiyi hal istisna təşkil edir, belə ki, bu zaman o mənfəət və ya zərər hesablarında qeyd olunur. Binalar üzrə yenidən qiymətləndirmədən azalma mənfəət və ya zərər hesablarında tanınır, lakin birbaşa kapitalda digər məcmu gəlirlər kimi tanınan əvvəlki yenidən qiymətləndirmə artımının əksinə dəyişdiyi hal istisnadır, belə ki, bu zaman onlar digər məcmu gəlirlər üzrə uçota alınır.

***Köhnəlmə***

Köhnəlmə ayrı-ayrı aktivlərin təxmin edilən faydalı istismar müddətlərinə düzxətli amortizasiya metodunu tətbiq etməklə mənfəət və ya zərər hesablarında qeyd olunur. Köhnəlmənin hesablanması alış tarixində və ya müəssisənin istehsal etdiyi aktivlərlə əlaqədar aktiv tamamlandıqda və istismara tam hazır olduqda başlayır. Torpaq amortizasiya olunmur. Hesablanmış faydalı istismar müddətləri aşağıdakı kimidir:

| | |
|---|---|
| Binalar | 30 ildən 35 ilə qədər |
| İcarədəki əmlakın təkmilləşdirilməsi | 14 il |
| Avadanlıq | 4 il |
| Qurğular və quraşdırılmış avadanlıq | 5 il |
| Nəqliyyat vasitələri | 5 il |
| Digər əsas vəsaitlər | 5 il |
| Aktivlərdən istifadə hüququ | əsas icarə müddəti ərzində |

***Əmlak və avadanlıqların tanınmasının dayandırılması***

Əmlak və avadanlıq obyektləri hesabdan silindikdə və ya onların davamlı istifadəsi artıq iqtisadi fayda gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. Əmlak və avadanlıq obyektlərinin satılaraq hesabdan silinməsi və ya istismardan çıxarılmasından irəli gələn hər hansı gəlir və ya zərərlər belə aktivlərin qalıq dəyəri ilə satışdan əldə olunmuş gəlirlər arasında fərq kimi müəyyən edilir və mənfəət və ya zərər haqqında hesabatda tanınır.

***Qeyri-maddi aktivlər***

Alınmış qeyri-maddi aktivlər yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla ilkin dəyər ilə göstərilir. Alınmış kompüter proqram təminatı lisenziyaları xüsusi proqram təminatının alınması və gətirilməsi üçün çəkilmiş xərclər əsasında kapitallaşdırılır. Köhnəlmə qeyri-maddi aktivlərin təxmin edilən faydalı istismar müddətlərinə düzxətli amortizasiya metodunu tətbiq etməklə mənfəət və ya zərər hesablarında qeyd olunur. Hesablanmış faydalı istismar müddətləri 7-10 il arasında dəyişir.

***Qeyri-maddi aktivlərin tanınmasının dayandırılması***

Qeyri-maddi aktivlər silindikdə, yaxud onların sonrakı istifadəsi və ya silinməsi gələcəkdə iqtisadi mənfəət gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. Qeyri-maddi aktivlərin tanınmasının dayandırılmasından yaranan mənfəət və ya zərər, belə aktivlərin qalıq dəyəri ilə daxilolmalar üzrə xalis silinmə arasındakı fərq kimi ölçülür və aktivin tanınması dayandırıldığı zaman mənfəət və ya zərər hesablarında tanınır.

**Maddi və qeyri-maddi aktivlərin dəyərsizləşməsi**

Qrup maddi və qeyri-maddi aktivlərin dəyərsizləşmə zərərinə məruz qalıb-qalmadığını müəyyənləşdirmək üçün hər hesabat dövrünün sonunda belə aktivlərin qalıq dəyərini təhlil edir. Dəyərsizləşmənin baş verdiyinə dəlalət edən hər hansı hallar mövcud olarsa, dəyərsizləşmə üzrə zərərin (əgər varsa) həcmini müəyyən etmək üçün aktivin bərpa dəyəri hesablanır. Aktivin fərdi hallarda bərpa dəyərini hesablamaq mümkün olmazsa, Qrup belə aktivin aid olduğu gəlir gətirən aktivlər qrupunun bərpa dəyərini müəyyən edir. Aktivin yerləşdirilməsinə müvafiq və ardıcıllığı gözlənilən əsaslar müəyyən edildiyi hallarda, korporativ aktivlər də fərdi gəlir gətirən aktivlər qrupunda yerləşdirilə bilər, yaxud əks halda, müvafiq qaydada və ardıcıllığı gözlənilməklə yerləşdirilmə əsasları müəyyən edilmiş ən kiçik gəlir gətirən aktivlər qrupunda yer alır.

Bərpa dəyəri ədalətli dəyərdən satış və istifadə dəyərləri çıxıldıqdan sonra alınan daha yüksək məbləğdir. İstismar dəyərini qiymətləndirərkən təxmin edilən gələcək dövrlərin pul axınları pulun vaxt üzrə dəyərinin və gələcək pul axınları ilə bağlı təxminlərə düzəlişlərin edilmədiyi aktiv üçün səciyyəvi olan risklərin hazırkı bazar qiymətləndirməsini özündə əks etdirən vergiyə qədərki diskont dərəcəsindən istifadə etməklə cari dəyərinə qədər diskontlaşdırılır.

Aktivin (yaxud gəlir gətirən aktivlər qrupunun) bərpa dəyərinin onun qalıq dəyərindən az olduğu hesablanarsa, belə aktivin (yaxud gəlir gətirən aktivlər qrupunun) qalıq dəyəri bərpa dəyərinə kimi azaldılır. Dəyərsizləşmə zərərinin yenidən qiymətləndirmədən irəli gələn azalma kimi hesab edildiyi hal olaraq müvafiq aktiv uçotda yenidən qiymətləndirilmiş dəyərdə əks olunmazsa, belə zərər dərhal mənfəət və zərər hesabatında tanınır.

Dəyərsizləşmə üzrə zərər sonradan əvəzləşdirilərsə, aktivin (yaxud gəlir gətirən aktivlər qrupunun) qalıq dəyəri hesablanmasına düzəliş olunmuş bərpa dəyərinə qədər artırılır, bu şərtlə ki, artırılmış belə qalıq dəyəri aktivin (yaxud gəlir gətirən aktivlər qrupunun) dəyərsizləşmə zərərinin tanınmadığı keçmiş illərdə müəyyən edilmiş qalıq dəyərindən artıq olmasın. Dəyərsizləşmə üzrə zərərin əvəzləşdirilməsinin yenidən qiymətləndirmədən irəli gələn artım kimi hesab edildiyi hal olaraq müvafiq aktiv yenidən qiymətləndirilmiş dəyərlə uçotda əks edilməyənə qədər, belə zərərin əvəzləşdirilməsi dərhal mənfəət və ya zərər hesabında tanınır.

**Ehtiyatlar**

Ehtiyatlar Qrupun keçmişdə baş vermiş hadisənin nəticəsi olaraq hazırda öhdəliyi (hüquqi yaxud konstruktiv) olduqda tanınır; bu zaman Qrupdan öhdəliyin yerinə yetirilməsinin tələb olunacağı ehtimal edilir və öhdəlik məbləği etibarlı şəkildə hesablana bilir.

Ehtiyatlar kimi tanınan məbləğ öhdəliklə bağlı risk və qeyri-müəyyənlikləri nəzərə almaqla hesabat dövrünün sonunda cari öhdəliyin yerinə yetirilməsi ilə əlaqədar tələb olunan məbləğlərin ən düzgün hesablanmasıdır. Ehtiyat ayırmaları hazırkı öhdəliyin yerinə yetirilməsi üçün hesablanmış pul vəsaitləri axınına istinad etməklə ölçülərsə, onun qalıq dəyəri (pulun zaman dəyərinin təsiri əhəmiyyətli olduqda) həmin pul vəsaitlərinin cari dəyərinə bərabər olur.

Ehtiyatların yerləşdirilməsi üçün tələb olunan müəyyən və ya bütün iqtisadi mənfəətin kənar tərəflər vasitəsilə bərpa ediləcəyi gözlənilirsə, bu vəsaitin qaytarılması və alınacaq belə vəsaitlərin düzgün qiymətləndirilməsi barədə qəti əminlik olduqda alınacaq məbləğ uçotda aktiv kimi tanınır.

**İcarələr**

Müqavilə bağlanarkən, Qrup müqavilənin icarə olduğunu və ya icarə elementləri ehtiva etdiyini qiymətləndirir. Bu hal, müqavilənin müəyyən bir ödəniş müqabilində müəyyən edilmiş aktivin təyin edilmiş bir müddət ərzində istifadəsinə nəzarət etmək hüququnun əldə edilməsi zamanı baş verir.

**Qrup icarəçi qismində**

Qrup qısa müddətli icarələr və aşağı dəyərli aktivlərin icarəsi istisna olmaqla, bütün icarələr üçün vahid tanıma və ölçmə yanaşmasını tətbiq edir. Qrup icarə ödənişlərini həyata keçirmək üçün icarə öhdəliklərini, eləcə də əsas aktivlərdən istifadə hüququ təmin edən istifadə hüquqlarını aktiv olaraq tanıyır.

**Aktivlərdən istifadə hüququ**

Qrup aktivlərdən istifadə hüququnu icarənin başlanğıc tarixində tanıyır (əsas aktivin istifadə üçün mövcud olduğu tarix). Aktivlərdən istifadə hüququ yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla maya dəyəri ilə ölçülür və icarə öhdəliklərinin yenidən ölçülməsi üçün tənzimlənir. Aktivlərdən istifadə hüququnun dəyərinə tanınmış icarə öhdəliklərinin məbləği və alınmış icarə təşviqləri çıxılmaqla başlama tarixinə qədər və ya daha əvvəl edilmiş icarə ödənişləri daxildir. Aktivlərdən istifadə hüququ icarə müddəti ərzində düz xətt əsasında amortizasiya olunur.

İcarəyə götürülmüş aktivin mülkiyyəti icarə müddətinin sonunda Qrupa keçirsə və ya dəyəri bir alış opsiyasının həyata keçirilməsini əks etdirirsə, amortizasiya aktivin təxmin edilən faydalı ömrü istifadə olunmaqla hesablanır. İstifadə hüququ verən aktivlər də dəyərsizləşməyə məruz qalır.

**İcarə öhdəlikləri**

İcarənin başlanğıc tarixində Qrup, icarə müddəti ərzində həyata keçiriləcək icarə ödənişlərinin cari dəyəri ilə ölçülmüş icarə öhdəliklərini tanıyır. İcarə ödənişlərinə, hər hansı alınacaq güzəştli icarə ödənişləri, indeksdən və ya dərəcədən asılı olan dəyişkən icarə ödənişləri çıxılmaqla qalıq dəyər zəmanəti ilə ödənilməsi ehtimal olunan məbləğlər daxil olmaqla sabit ödənişlər (maddi sabit ödənişlər daxil olmaqla) daxildir. İcarə ödənişlərinə, həmçinin Qrup tərəfindən həyata keçirilməsinə əsaslı olaraq müəyyən edilmiş satınalma opsionunun icra qiyməti və icarə müddəti Qrupun ləğv etmə seçimini həyata keçirdiyini əks etdirirsə, icarəyə xitam verildiyi hallarda tətbiq olunan cərimələrin ödənişləri də daxildir.

İndeksdən və dərəcədən asılı olmayan dəyişkən icarə ödənişləri, ödənişə səbəb olan hadisə və ya şərtin baş verdiyi dövrdə xərc olaraq (mal və material ehtiyatlarının istehsalı üçün çəkilmədiyi təqdirdə) tanınır.

İcarə ödənişlərinin cari dəyərini hesablayarkən, icarəyə aid olan konkret faiz dərəcəsinin təyin olunması mümkün olmadığı üçün Qrup icarə müqaviləsinin qüvvəyə mindiyi tarixdə mövcud olan əlavə borcun cəlb edilməsi üzrə faiz dərəcəsindən istifadə edir. Müqavilənin qüvvəyə mindiyi tarixdən sonra, icarə öhdəliklərinin məbləği faizlərin artmasını əks etdirmək üçün artırılır və edilmiş icarə ödənişləri üçün azaldılır. Bundan əlavə, icarə öhdəliklərinin qalıq dəyəri hər hansı bir modifikasiya və ya icarə müddətində, eləcə də icarə ödənişlərində hər hansı bir dəyişiklik olduqda (bu cür icarə ödənişlərini təyin etmək üçün istifadə olunan indeks və ya faiz dərəcəsindəki dəyişiklik nəticəsində gələcək ödənişlərdə dəyişikliklər) və ya əsas aktivin satın alınması üçün hər hansı bir seçimin qiymətləndirilməsi üzrə dəyişiklik olduğu təqdirdə, yenidən ölçülür.

**Maliyyə öhdəlikləri və buraxılmış kapital alətləri**

**Borc və ya kapital qismində təsnifləşdirmə**

Borc və kapital alətləri müqavilə şərtlərinə, habelə maliyyə öhdəliyi və kapital alətləri haqqında anlayışa əsasən maliyyə öhdəlikləri, yaxud da kapital kimi təsnif edilir.

**Banklardan və digər maliyyə təşkilatlarından alınacaq depozitlər və qalıqlar**

Banklara, dövlətə və digər maliyyə təşkilatlarına ödəniləcək vəsaitlər, qarşı tərəflərin pul və ya digər bənzər aktivlərinin Qrupa ötürülməsi zamanı tanınır. Qeyri-törəmə öhdəliklər amortizasiya olunmuş maya dəyəri ilə ölçülür. Əgər Qrup öz borcunu satın alırsa, bu öhdəlik maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatından silinir və ödənilən vəsaitlə öhdəliyin qalıq dəyəri arasında olan fərq mənfəət və zərər hesablarında müvafiq olaraq öhdəliklərin vaxtından tez icra edilməsinin nəticəsi kimi təqdim edilir.

**Müştəri hesabları**

Müştəri hesabları fiziki şəxslər, dövlət müəssisələri və ya hüquqi şəxslər qarşısında olan qeyri-derivativ maliyyə öhdəliklərini əks etdirir və amortizasiya edilmiş dəyərdə qeydə alınır.

**Subordinasiya borcu**

Subordinasiya borcu, daxili bazarda Qrupun hüquqi və fiziki şəxslərdən cəlb etdiyi uzunmüddətli vəsaitlərdir. Subordinasiya borcunun sahibləri, müvafiq Qrup şirkətinin ləğv edilməsi halında borc üzrə ödəniş almaq hüququ olan bütün digər kreditorlardan daha az imtiyaza malikdirlər. Subordinasiya borcu amortizasiya olunmuş dəyərdə əks etdirilir.

**Digər borc alınmış vəsaitlər**

Digər borc alınmış vəsaitlər, maliyyə bazarları və ticarətin maliyyələşdirilməsinə dair sazişlər üzrə Qrup tərəfindən cəlb edilmiş kreditləri əks etdirir. Digər borc alınmış vəsaitlər amortizasiya edilmiş dəyərdə əks etdirilir.

**Digər maliyyə öhdəlikləri**

Digər maliyyə öhdəliyinin tanınması, bu öhdəlik üzrə ödənişlər yerinə yetirildikdə, öhdəlik ləğv edildikdə və ya müddəti başa çatdıqda dayandırılır.

Mövcud maliyyə öhdəliyi eyni borc verəndən əhəmiyyətli dərəcədə fərqli şərtlərlə başqa maliyyə öhdəliyi ilə əvəz edildikdə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirildikdə, belə bir mübadilə və ya dəyişiklik ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir və müvafiq qalıq dəyərində olan fərq mənfəət və ya zərərdə tanınır.

**Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması**

Maliyyə öhdəliklərinin tanınması yalnız və yalnız Qrup öz ödəniş öhdəliyini yerinə yetirdikdə, belə öhdəlik ləğv olunduqda, yaxud müddəti başa çatdıqda dayandırılır. Mövcud maliyyə öhdəliyi tam başqa şərtlərlə eyni kreditorun təqdim etdiyi digər öhdəliklə əvəzlənərsə, yaxud mövcud öhdəliyə əhəmiyyətli düzəlişlər edilərsə, belə əvəzləmə və ya düzəliş ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir. Tanınması dayandırılmış maliyyə öhdəliyinin qalıq dəyəri ilə öhdəliklər üzrə ödənilmiş və ödəniləcək məbləğlər arasındakı fərq mənfəət və zərər uçotunda tanınır.

**Maliyyə aktiv və öhdəliklərin əvəzləşdirilməsi**

Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüququn, eləcə də əvəzləşdirməni aparmaq və ya aktivi realizasiya edərkən müvafiq öhdəliyi də satmaq niyyətinin mövcud olduğu hallarda həyata keçirilə bilər. Belə əvəzləşdirmə hüququ (a) gələcək hadisələrdən asılı olmamalı və (b) aşağıdakı bütün hallarda hüquqi qüvvəyə malik olmalıdır (i) adi fəaliyyət gedişində (ii) defolt halı olduqda və (iii) ödəniş qabiliyyəti olmadıqda və ya müflisləşmə baş verdikdə.

**Qrup icarəçi qismində**

Maliyyə icarəsi ilə icarəçilərdən alınacaq məbləğlər Qrupun icarələr üzrə qoyduğu xalis investisiya məbləğində debitor borcları kimi tanınır. Maliyyə icarəsi üzrə gəlirlər Qrupun icarələr üzrə ödənilməmiş xalis investisiyaları üzrə sabit dövri gəlir dərəcəsini əks etdirmək üçün hesabat dövrlərinə bölüşdürülür.

Əməliyyat icarəsindən əldə edilən icarə gəliri müvafiq icarə müddəti ərzində düz xətt metodu əsasında tanınır. Əməliyyat icarəsi ilə bağlı danışıqların aparılması və təşkili zamanı çəkilmiş ilkin birbaşa məsrəflər icarəyə götürülmüş aktivin qalıq dəyərinə əlavə edilir və icarə müddəti ərzində düz xətt metodu əsasında tanınır.

**Vergiqoyma**

Hazırkı maliyyə hesabatlarında mənfəət vergisi qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş yerli qanunvericiliyə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci/krediti cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya digər dövrdə vergi təsiri bilavasitə kapitalda qeydə alınan əməliyyatlar istisna olmaqla, sair məcmu gəlirlərdə və ya birbaşa olaraq kapitalda qeydə alınır.

***Cari vergi***

Cari mənfəət vergisi cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər müvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl maliyyə hesabatlarının təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və sair əməliyyat xərcləri kimi qeydə alınır.

***Təxirə salınmış vergi***

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə aktiv və öhdəliklərin vergi bazası və maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün onların qalıq dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır. İlkin tanınma zamanı istisna hal olaraq, əgər əməliyyat maliyyə mənfəəti və vergiyə cəlb edilən mənfəətə təsir göstərmirsə, aktiv və öhdəliyin ilkin qeydə alınması nəticəsində yaranan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanmır (müəssisələrin birləşməsi halları istisna olmaqla). Təxirə salınmış vergi qalıqları qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi dərəcələrinə əsasən müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır.

**Səhmdar kapitalı**

Adi səhmlər kapital bölümündə təsnifləşdirilir. Adi səhmlərin yerləşdirilməsi ilə əlaqədar olan birbaşa əlavə xərclər bütün vergi təsirləri istisna olmaqla kapitalın azaldılması kimi uçota alınır. Adi səhmlər üzrə ödənilən dividendlər kapital bölümündə elan olunduğu dövrdə azalma kimi təqdim edilir.

Hesabat tarixindən sonra elan edilmiş dividendlər “Hesabat tarixindən sonra baş vermiş hadisələr” adlı 10 saylı Beynəlxalq Mühasibat Uçotu Standartına (“10 saylı BMUS”) müvafiq olaraq maliyyə hesabatlarında açıqlanır.

**Səhm üzrə mənfəət**

Səhm üzrə mənfəət, Qrupun mülkiyyətçilərinə aid olan mənfəət və ya zərərin hesabat dövrü ərzində iştirak payının orta çəkili sayına bölünməsi ilə müəyyən edilir.

### Xarici valyutanın çevrilməsi

Qrupun funksional valyutası həmin müəssisənin fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Qrupun və onun törəmə müəssisəsinin funksional valyutası və Qrupun təqdimat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN"). Monetar aktivlər və öhdəliklər ARMB-nin müvafiq hesabat dövrünün sonuna qüvvədə olan rəsmi valyuta məzənnəsinə uyğun olaraq Qrupun hər bir müəssisəsinin funksional valyutasına çevrilir. Bu cür əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və monetar aktiv və öhdəliklərin Mərkəzi Qrupun ilin sonuna müəyyən etdiyi rəsmi məzənnə ilə Qrupun hər bir müəssisəsinin funksional valyutasına çevrilməsi nəticəsində yaranan gəlir və zərər mənfəət və ya zərərdə (xaric valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə zərər çıxılmaqla gəlir kimi) tanınır. İlin sonuna qüvvədə olan məzənnə ilə çevrilmə ilkin dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə tətbiq edilmir.

Xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr, o cümlədən pay alətləri ədalətli dəyərin müəyyən edildiyi tarixə qüvvədə olan məzənnələrdən istifadə etməklə təqdimat valyutasına çevrilir. Məzənnə dəyişikliklərinin xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə təsiri ədalətli dəyərin dəyişməsindən yaranan gəlir və ya zərərin bir hissəsi kimi əks etdirilir.

İl sonunda xarici valyuta qalıqlarının çevrilməsində Qrup tərəfindən istifadə olunan rəsmi valyuta məzənnələri aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2021-ci il** | **31 dekabr 2020-ci il** |
|---|---|---|
| AZN/1 ABŞ dolları | 1.7000 | 1.7000 |
| AZN/1 Avro | 1.9265 | 2.0890 |

### Müsadirə edilmiş girovlar

Qrup məqsədəuyğun hesab edilən hallarda müştərilərin öhdəlikləri müqabilində girov alır. Girov adətən müştəri əmlakının müsadirə olunmasını nəzərdə tutur və Qrupa müştərinin həm cari, həm də gələcək öhdəlikləri ilə əlaqədar bu aktivlər üzrə iddianın qaldırılması üçün əsas yaradır. Bəzi hallarda, aktivlər ödənişi yerinə yetirilməyən kreditlərin geri alınma hüququ itirildikdən sonra müsadirə olunur. Müsadirə edilmiş girov ilk olaraq həmin girovun aid olduğu kreditin qalıq dəyərinə bərabər məbləğdə tanınır. Geri alınmış aktivlər satış dəyəri çıxılmaqla balans və ədalətli dəyərdən aşağı olanı ilə ölçülür.

### Kapital ehtiyatları

Qrupun maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatında kapital (digər məcmu gəlir) üzrə qeyd edilmiş ehtiyatlara binaların yenidən qiymətləndirilməsi üçün qiymət artımı daxildir.

### Təqaüd haqları üzrə xərclər

Təqaüd planları üzrə ödənişlər, işçilər, onlara töhfələr qazandıracaq xidmət göstərdikləri zaman tanınır.

### *İşçi heyəti üzrə xərclər və müvafiq ayırmalar*

Əmək haqları, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və xəstəlik vərəqələri üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Qrupun işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır. Qrupun yerli qanunvericiliyə uyğun olaraq müəyyən edilmiş haqlar üzrə qanunla müəyyən edilmiş ödənişlər sxeminə edilən ödənişlərdən başqa pensiya və analoji ödənişləri həyata keçirmək üçün hər hansı hüquqi və ya işgüzar praktikadan yaranan öhdəliyi yoxdur.

## 4. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ EHTİMALLAR VƏ MÜLAHİZƏLƏR

Qrup növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən məbləğlərə və aktiv və öhdəliklərin qalıq dəyərinə təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və ehtimallar irəli sürür. Konsolidə olunmuş maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin qalıq dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan ehtimallara aşağıdakılar daxildir:

**EOKZ ehtiyatının ölçülməsi**

EOKZ-nin ölçülməsi metodologiyanın, modelin və giriş məlumatlarının müəyyən edilməsini özündə birləşdirdən mühüm bir təxmindir. EOKZ ölçülməsi üzrə metodologiya 26 saylı Qeyddə açıqlanır. Aşağıdakı komponentlərin kredit zərəri ehtiyat üzrə əhəmiyyətli təsiri vardır: defoltun müəyyən edilməsi, KRƏA, defolt ehtimalı (“DE”), Defolt vəziyyətində riskə məruz qalma (“DVRMQ”) və defolt zamanı yaranan zərər (“DZYZ”), eləcə də makroiqtisadi ssenari modelləri. Qrup, müntəzəm olaraq ehtimal olunan kredit zərəri və faktiki zərər arasındakı fərqlərin azaldılması üçün model və giriş məlumatlarını yoxlayır və nəzərdən keçirir. Perspektiv məlumatlar da daxil olmaqla, EOKZ ölçülməsi üzrə ətraflı məlumatlar 26 saylı Qeyddə açıqlanır.

**Təkrarlanan kredit alətləri (məsələn kredit kartları və limitdən çox istifadələr) üzrə kredit riskləri**

Müəyyən kredit alətləri üzrə Qrupun kredit itkilərinə məruz qalması riski hətta bu alət üzrə müqavilə şərtlərində göstərilmiş müddətdən daha artıq ola bilər. Bu istisna, həm kredit həm də kredit verilməsi üzrə istifadə edilməmiş öhdəliklər kimi elementlərdən ibarət olan və Qrupun müqavilə çərçivəsində müştəridən ödənişləri geri tələb etmə və ya verilməmiş kredit məbləğini ləğv etmə kimi imkanlarının da praktiki olaraq kredit riskinə məruz qalma səviyyəsini məhdudlaşdıra bilmədiyi müəyyən təkrarlanan kredit alətlərinə tətbiq edilir.

Belə alətlər üzrə Qrup EOKZ məbləğini Qrupun kredit riskinə məruz qaldığı faktiki müddət üzrə hesablayır və EOKZ məbləğinə rəhbərliyin bu alətlə həyata keçirdiyi tədbirlər nəticəsində düzəlişlər edilmir. Bu istisnanın tətbiq edilməsi mülahizələrdən istifadə olunmasını tələb edir. Rəhbərlik həm pərakəndə həm də kommersiya kreditləri üzrə bu istisinadan istifadə edərkən öz təxmin və fərziyyələrinə istinad etmişdir. Qrup bu istisnadan istifadə edərkən kredit alətlərinin aşağıdakı xüsusiyyətləri nəzərə almışdır: (a) hər hansı bir sabit ödəmə müddəti və ya ödəniş strukturu mövcud deyil, (b) praktikada müqavilə şərtlərindən irəli gələrək müqavilənin ləğv edilməsi kredit riskinə məruz qalma səviyyəsinin gündəlik idarə olunması prosesinin nəticəsi olaraq həyata keçirilmir və müqavilənin ləğvi yalnız Qrupun kredit alətinin fərdi təhlili zamanı artması ilə bağlı məlumatlar əldə etdikdə baş verir, (c) kredit riskinə məruz qalma riski kollektiv qaydada idarə olunur. Əlavə olaraq Qrup EOKZ məbləğinin hesablanması üçün müddəti, eləcə də riskə məruz qalmanın başlanması və başa çatması tarixlərini təyin edərkən mülahizələrdən istifsdə etmişdir.

Qrup aşağıdakılarla bağlı tarixi məlumatlardan və öz təcrübəsindən istifadə etmişdir: (a) bənzər kredit alətləri üzrə Qrupun kredit riskinə məruz qalması müddəti, eləcə də kredit aləti üzrə son əhəmiyyətli dəyişikliyin baş verməsi tarixi və müvafiq olaraq KRƏA dəyərləndirilməsi üçün ilkin nöqtənin təyin edilməsi (b) bənzər kredit alətləri üzrə KRƏA təyin edilmə anından sonra defolt halının baş verməsi anına qədər olan zaman müddəti və (c) kredit riskinin idarə olunması ilə bağlı tədbirlər (məsələn istifadə edilməmiş kredit məbləğinin azaldılması və ya ləğv edilməsi), gözlənilən başa çatma tarixinə təsir edən öncədən ödənişlər və bu kimi digər amillər. Bu amilləri tətbiq edərkən Qrup təkrarlanan kredit alətləri portfelini alt kateqoriyalara bölür və tarixi məlumatlara və təcrübəyə əsaslanaraq ən uyğun sayılan müvafiq amilləri bu alt kateqoriyalara tətbiq edir.

**Kredit Riski üzrə Əhəmiyyətli Artım ("KRƏA")**

Kredit riskinin əhəmiyyətli dərəcədə artdığını müəyyənləşdirmək üçün Qrup, hesabat tarixinin sonunda maliyyə alətinin ömürlük müddəti ərzində baş verən defolt riskini ilk dəfə tanınma tarixində mövcud olan risk ilə müqayisə edir. Qiymətləndirmə hesabat dövrünün sonunda müəyyən bir kredit riski səviyyəsinə çatmağı deyil, kredit riskinin nisbi artımını nəzərə alır. Qrup müştəri portfelinin davranış aspektləri də daxil olmaqla bir sıra amilləri əhatə edən xüsusi səy göstərmədən və xərc çəkmədən mövcud olan bütün məqbul və dəstəklənən gələcəkyönümlü məlumatları nəzərə alır. Qrupun rəhbərliyi kredit riskinin artması üzrə davranış göstəricilərini kredit alətləri üzrə gecikmələrin baş verməsindən öncə təyin etmiş və istər fərdi kredit aləti səviyyəsində, istərsə də alətin aid olduğu portfel səviyyəsində müvafiq sayılan gələcəklə bağlı məlumatları kredit riskinin dəyərləndirilməsi zamanı nəzərə almışdır. 26 saylı Qeydə nəzər salın.

**Biznes modelinin qiymətləndirilməsi**

Biznes modeli maliyyə aktivinin təsnifləşdirilməsini təyin edən amildir. Rəhbərlik biznes modellərinin dəyərləndirilməsi zamanı maliyyə alətləri üzrə birləşdirmə və portfelə aid etmə səviyyəsini təyin edərkən mülahizələrdən istifadə etmişdir. Satış əməliyyatlarını dəyərləndirərkən Qrupun rəhbərliyi bu satışların müntəzəmliyi, zamanı və dəyəri barədə tarixi məlumatları, eləcə də satışın səbəbləri və gələcək satışlarla bağlı proqnozları nəzərə alır. Kreditin pisləşməsi ilə əlaqədar potensial itkilərin minimal həddə salınması ilə bağlı həyata keçirilən satış əməliyyatları "toplamaq üçün saxlanılma" biznes modelinin parametrlərinə uyğun gəlir. Alətin kredit riskinin idarə olunması ilə bağlı olmayan, müddəti bitməmiş həyata keçirilən digər satışlar da, fərdi və kollektiv qaydada müntəzəm olmadıqda və dəyər olaraq əhəmiyyət kəsb etmədikdə "toplamaq üçün saxlanılma" biznes modelinin çərçivəsində dəyərləndirilir. Qrupun rəhbərliyi satış əməliyyatlarının əhəmiyyətlilik səviyyəsini bu satışların dəyərinin biznes modeli üzrə qiymətləndirilən portfelin dəyərinə olan nisbəti şəklində həmin portfelin orta müddəti üzrə təhlil edir. Əlavə olaraq, yalnız stressli vəziyyətlərdə və ya Qrupun nəzarətindən kənar olan ayrıca bir hadisəyə cavab məqsədilə həyata keçirilməsi güman edilən satış əməliyyatları biznes modelinin məqsədləri üçün təsadüfi sayılır və müvafiq maliyyə alətlərinin təsnifləşdirilməsi prosesinə təsir göstərmir.

"Toplamaq üçün saxlanılma və satış" biznes modeli dedikdə, aktivlərin əsasən nağd vəsaitlərin toplanılması üçün saxlanılması ehtiva edilir, yalnız bu biznes modelinin məqsədlərinə nail olmaq üçün likvidlik ehtiyacının idarə olunması, müəyyən bir gəlir göstəricilərinə nail olunması və ya maliyyə aktivlərinin müddətlərinin bu aktivləri maliyyələşdirmək üçün istifadə edilən maliyyə öhdəliklərinin müddətlərinə uyğunlaşdırılması kimi bir sıra satış əməliyyatları da model çərçivəsində nəzərə alınır.

Qalıq kateqoriya elə maliyyə aktivləri portfellərindən ibarətdir ki, nağd vəsaitlərin reallaşdırılmasının əsas təyinatı satış vasitəsilə, məsələn ticarət məqsədilə satışın elementlərinin açıq şəkildə nəzərə çarpan olduğu hallar üçün nəzərdə tutulmuşdur. Müqavilə üzrə pul axınının toplanması bu biznes modeli üçün çox vaxt təsadüfi olur.

***Nağd vəsaitlər axınının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olmasının* dəyərləndirilməsi ("YƏMFÖ")**

Nağd vəsaitlər axının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olmasının təyin edilməsi mülahizələrdən istifadəni tələb edir. Pulun zaman dəyəri elementi müəyyən hallarda məsələn müqavilə üzrə faiz dərəcəsi dövri olaraq dəyişdirilir, amma, bu dəyişikliklərin tezliyi borc aləti üzrə nəzərdə tutulan əsas faiz dərəcəsi göstəricisinə uyğun olmadıqda dəyişdirilə bilər. Buna misal olaraq faizləri üç aylıq banklararası faiz dərəcəsinə uyğun olaraq ödənilən, yalnız faiz dərəcəsinin hər ay düzəldildiyi maliyyə alətlərini göstərmək olar. Pulun zaman dəyərinin dəyişdirilməsinin təsiri müvafiq alət üzrə nağd pul vəsaitləri axınının YƏMFÖ xarakterli bənzər maliyyə aləti üzrə nağd pul vəsaitləri axını ilə müqayisə edilərək dəyərləndirilir. Dəyərləndirmə məntiqli görünən bütün mümkün ssenarilər üçün, o cümlədən maliyyə bazarlarında baş verməsi mümkün olan maliyyə stresi vəziyyətləri üçün aparılmışdır. Nağd pul vəsaitləri ilə bağlı yaranan ssenarinin bənzər alətlər üzrə mövcud olan göstəricilərdən fərqli olduğu hallarda, dəyərləndirilən alət üzrə yaranan nağd pul vəsaitləri YƏMFÖ olaraq nəzərə alınmır və bu alət MZVƏD maliyyə aləti olaraq təsnifləşdirilir.

Qrup müqavilə üzrə nəzərdə tutulan nağd pul vəsaitlərinin axınını dəyişdirmək qabiliyyətinə malik olan müqavilə şərtlərini təyin etmiş və nəzərə almışdır. Kredit sazişinin müddəalarına görə vaxtından öncə ödənişlərin mümkün olması və bu ödənişlərin əsas məbləğ və hesablanmış faizlərlə, eləcə də öncədən ödənişlə bağlı müştəridən alınmalı olan haqq və komissiyalarla bağlı olması halında YƏMFÖ üzrə kriteriyalar yerinə yetirilmiş sayılır. Aktiv üzrə əsas məbləğə ilkin tanınma zamanı mövcud olan ədalətli dəyərlə sonrakı dövrlərdə əsas məbləğ üzrə ödənişlər (yəni effektiv faiz dərəcəsindən istifadə etməklə hesablanmış faiz ödənişləri nəzərə alınmadan yerdə qalan məbləğ) arasındakı fərq aid edilir. Bu prinsipə istisna olaraq standart həm də müəyyən ilkin ödəmə xüsusiyyətlərinə malik olan və aşağıdakı YƏMFÖ şərtlərinə cavab verən alətlərin də nəzərə alınmasına icazə verir: (i) aktiv ilkin olaraq premiya və ya diskontla hazırlanmışdır, (ii) ilkin ödəniş məbləği müqavilə üzrə əsas məbləği və hesablanmış faizləri və müqavilənin vaxtından əvvəl ləğvi üçün ağlabatan əlavə kompensasiyanı əks etdirir və (iii) öncədən ödəniş imkanı yaradan müddəanın ədalətli dəyəri ilkin tanınma zamanı əhəmiyyətli sayılmır.

Qrupun kredit müqavilələrində nəzərdə tutulmuş müddəalar müəyyən makroiqtisadi və ya tənzimləmə ilə bağlı yaranmış hallara cavab olaraq faiz dərəcələrinə dəyişikliyin edilməsinə icazə verir. Qrupun rəhbərliyi mülahizələrdən istifadə etməklə bank sektorunda rəqabətin mövcud olması və Qrupdan kredit alan müştərilərin potensial olaraq kreditləri yenidən maliyyələşdirmə imkanlarının olması fonunda faiz dərəcələrinin bazar faiz dərəcələrinə nisbətən artırılmasının mümkün olmaması qənaətinə gəlmiş və bu hal üzrə yaranan nağd pul vəsaitlərini YƏMFÖ çərçivəsində dəyərləndirmişdir.

**Maliyyə aktivlərinin dəyişdirilməsi**

Maliyyə aktivləri üzrə müqavilə şərtlərində dəyişikliklər baş verdikdə (məsələn şərtlər yenidən razılaşdırıldıqda), Qrupun rəhbərliyi ilk olaraq dəyişikliyin əhəmiyyətliliyinə, ilkin tanınmış maliyyə aktivinə xitam verilməsi və ədalətli dəyərdə yeni maliyyə aktivinin tanınması zərurətinə nəzər yetirir. Bu dəyərləndirmə əsasən müvafiq mühasibat siyasətində təsvir edilmiş keyfiyyət parametrlərinə əsaslanır və kifayət qədər mülahizələrdən istifadə olunmasını tələb edir. Xüsusən də Qrupun rəhbərliyi kredit dəyərsizləşməsinə məruz qalmış və şərtləri yenidən razılaşdırılmış maliyyə aktivinin tanınmasının dayandırılması və ikin tanınma zamanı kredit itkisinə məruz qalmış yeni alətin tanınmasına zərurətin olması məsələsində mülahizələrdən istifadə edir. Tanınmaya xitam verilməsi üzrə dəyərləndirmə zamanı müqavilə şərtlərinə edilən dəyişikliklərin kredit aləti üzrə gözlənilən (məhz müqavilə üzrə deyil gözlənilən) nağd pul vəsaitlərin hərəkətinə edilən təsir üzrə risk və mükafatlar nəzərə alınır. Qrupun rəhbərliyi hesab edir ki, belə kreditlərin şərtlərinin yenidən razılaşdırılması nəticəsində risk və mükafatlar dəyişməmiş, buna görə də bütün belə kreditlər üzrə kredit alətinin tanınmasına xitam verilməmiş və kredit dəyərsizləşməsi üzrə aid olduğu mərhələdən digərinə köçürülməmişdir.

**Əlaqəli tərəflərlə əməliyyatların ilkin uçotu**

| Qeyri-maddi aktivlərin alınması üçün avans ödənişləri | 207 | 91 |
| Xatirə sikkələri | 142 | 133 |
| Digər | 21 | 26 |
| **Cəmi digər qeyri-maliyyə aktivləri** | **5,293** | **4,514** |
| **Cəmi digər aktivlər** | **7,727** | **5,749** |

Plastik kartlar üzrə debitor borcları Bankın ATM-lərindən digər bankların müştəriləri tərəfindən çıxarılmış nağd vəsaitlərlə bağlı digər yerli banklardan alınacaq xalis vəsaitlərdən ibarətdir.

## 13. BANKLARDAN VƏ DİGƏR MALİYYƏ TƏŞKİLATLARINDAN ALINACAQ DEPOZİTLƏR VƏ QALIQLAR

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| Loro hesablar | 52,205 | 48,403 |
| Müddətli depozitlər | 9,172 | 19,417 |
| Yerli banklardakı məhdud depozitlər | 1,022 | 1,022 |
| **Cəmi banklardan və maliyyə təşkilatlarından alınacaq depozitlər və qalıqlar** | **62,399** | **68,842** |

31 dekabr 2021 və 2020-ci il tarixlərinə Qrupun kapitalının 10%-dən çox olan məbləğdə qalığa malik olan bankı mövcud olmamışdur. Bu qalıqların ümumi dəyəri 1,022 min AZN (2020-ci il: 1,022 min AZN) məbləğində olmuşdur.

31 dekabr 2021-ci il tarixinə Qrupun öz kapitalının 10%-dən çox qalığı olan, bank olmayan kredit təşkilatında bir əmanəti (2020-ci il: bir bank olmayan kredit təşkilatı) olmuşdur. Müddətli yerləşdirmələr üzrə faiz dərəcələri 2% və 7% (2020-ci il: 2% və 7%) olmaqla, ödəniş müddəti 1 il ərzində (31 dekabr 2020-ci il: 2 il ərzində) və ümumi məbləği 9,172 min AZN (31 dekabr 2020-ci il: AZN 19,417 min) təşkil etmişdir. Loro hesablarının ümumi məbləği 51,685 AZN (31 dekabr 2020-ci il: 48,403 AZN) olmuşdur.

31 dekabr 2021 və 2020-ci il tarixlərinə bankların və digər maliyyə təşkilatlarından alınmış depozit və qalıqlara müvafiq olaraq 12 min AZN və 13 min AZN məbləğlərində hesablanmış faizlər daxil edilmişdir.

## 14. CARİ HESABLAR VƏ MÜŞTƏRİLƏRDƏN ALINMIŞ DEPOZİTLƏR

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| **Cari hesablar və tələb edilənədək depozitlər** | | |
| - Pərakəndə | 45,926 | 42,874 |
| - Hüquqi şəxslər | 145,832 | 55,743 |
| | **191,758** | **98,617** |
| **Müddətli depozitlər** | | |
| - Pərakəndə | 216,306 | 172,795 |
| - Hüquqi şəxslər | 11,320 | 9,285 |
| | **227,626** | **182,080** |
| **Cəmi cari hesablar və müştərilərdən alınmış depozitlər** | **419,384** | **280,697** |

Müştəri hesablarının iqtisadi sahələr üzrə cəmləşməsi aşağıdakı kimidir:

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| **İqtisadi sahələr/müştərilər üzrə təhlil:** | | |
| Fiziki şəxslər | 262,232 | 215,669 |
| Tikinti və daşınmaz əmlak | 123,385 | 34,356 |
| Ticarət və xidmətlər | 23,940 | 20,632 |
| Dövlət təşkilatı | 9,190 | 9,193 |
| Maliyyə təşkilatları | 146 | 631 |
| Digər | 491 | 216 |
| **Cəmi müştəri hesabları** | **419,384** | **280,697** |

31 dekabr 2021 və 2020-ci il tarixlərinə müştəri hesablarında müvafiq olaraq 163,265 min AZN və 188,242 min AZN məbləğində, Azərbaycan Əmanətlərin Sığortalanması Fondu tərəfindən təmin edilmiş əmanətlər daxildir.

31 dekabr 2021-ci il tarixinə Qrupun onun tərəfindən verilən kreditlər və tanınmamış kredit alətləri ilə bağlı girov kimi saxladığı müştəri depozitlərinin qalıqları 21,095 min AZN (31 dekabr 2020-ci il: 23,696 min AZN) olmuşdur.

31 dekabr 2021-ci il tarixinə, qalıqları Qrupun kapitalının 10%-indən artıq olan 2 müştərisi olmuşdur (31 dekabr 2020-ci il: 4 müştəri). Bu qalıqların cəmi 152,351 min AZN təşkil etmişdir (31 dekabr 2020-ci il: 70,995 min AZN).

31 dekabr 2021 və 2020-ci il tarixlərinə cari hesablara və müştərilərdən alınmış depozitlərə müvafiq olaraq AZN 3,384 min AZN və 1,932 min AZN məbləğlərində hesablanmış faizlər daxil edilmişdir.

31 dekabr 2021 və 2020-ci il tarixlərinə Qrupun müvafiq olaraq 178,353 min AZN və 87,301 min AZN məbləğlərində faiz gətirən cari hesabları olmuşdur.

## 15. SUBORDİNASİYA BORCLAR VƏ DİGƏR BORC ALNMIŞ VƏSAİTLƏR

31 dekabr 2021 və 2020-ci il tarixlərinə alınmış subordinasiya borclarının qalıqları aşağıdakı kimi olmuşdur:

| | Valyuta | Son ödəniş tarixi | Faiz dərəcəsi | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|---|---|---|
| Fiziki şəxlərdən alınmış subordinasiya borcları | ABŞ dolları | 2022-2027 | 5.00-10.00% | 12,525 | 11,458 |
| Hüquqi şəxslərdən alınmış subordinasiya borcları | ABŞ dolları | 2022 | 10.00% | 340 | 340 |
| **Cəmi subordinasiya borcları** | | | | **12,865** | **11,798** |

31 dekabr 2021 və 2020-ci il tarixlərinə, müvafiq olaraq, 87 min AZN və 23 min AZN məbləğində olan subordinasiya borclarına hesablanmış faiz xərcləri daxil edilmişdir.

31 dekabr 2021-ci il tarixində borc alınmış vəsaitlərin qalığı aşağıdakı kimi olmuşdur:

| | Valyuta | Son ödəniş tarixi | Faiz dərəcəsi | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondu | AZN | 2051 | 1.00% - 8.00% | 61,853 | 44,252 |
| Azərbaycan Respublikasının Mərkəzi Bankı (ARMB) | AZN | 2022-2024 | 0.10% - 6.25% | 23,389 | 26,137 |
| Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu | AZN | 2028 | 1.00% | 17,730 | 17,080 |
| Qara Dəniz Ticarət və İnkişaf Bankı | AZN | 2023 | 8.00% | 10,153 | 10,144 |
| EMF MİKROMALİYYƏ FONDU AGMVK | ABŞ dolları | 2024 | 6.00% | 8,524 | - |
| Aqrar Kredit və İnkişaf Agentliyi | AZN | 2020-2026 | 2.00%-7.00% | 4,124 | 8,051 |
| *ECO Ticarət və İnkişaf Bankı | ABŞ dolları | 2022 | 3.50% | 3,454 | - |
| The World Business Capital Inc. (WBC) | - | - | - | - | 496 |
| **Cəmi digər borc alnmış vəsaitlər** | | | | **129,227** | **106,160** |

Xüsusi maliyyə şərtlərinə riayət olunması – Qrup müxtəlif maliyyə və bənzər müqavilələr üzrə bir sıra maliyyə və biznes şərtlərinə riayət etməyə razı olmuşdur.

*31 dekabr 2021-ci il tarixinə Qrup, 26 saylı Qeyddə likvidlik təhlili kateqoriyasında “tələb üzrə” kateqoriyasına daxil edilmiş açıqlanan ümumi dəyəri 3,454 min AZN olan bəzi maliyyə müqavilələrinin şərtlərini yerinə yetirməmişdir. Rəhbərlik maliyyə müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə baxmayaraq, borc verənlərin əvvəlki vəsaitləri geri götürmək hüquqlarını istifadə etməyəcəklərinə inanır.

31 dekabr 2020-ci il tarixində başa çatmış il ərzində Qrup Fərmana əsasən ARMB-dən 5 il müddətinə illik 0.1% faiz dərəcəsi ilə 744 min AZN məbləğində borc vəsaiti almışdır. Restrukturizasiya edilmiş kreditlərin maliyyələşdirilməsi məqsədilə ARMB-dən alınan borcların faiz dərəcəsi, yaranma tarixinə bazar dərəcəsindən aşağı olduğundan, Qrup bu borcların ilkin tanınması zamanı 31 dekabr 2020-ci il tarixində başa çatmış il ərzində 158 min AZN məbləğində gəlir əldə etmişdir.

31 dekabr 2021 və 2020-ci il tarixlərinə, müvafiq olaraq, 496 min AZN və 459 min AZN məbləğində olan digər borc vəsaitlərinə hesablanmış faiz xərcləri daxil edilmişdir.

Maliyyə öhdəliklərinin ilin əvvəlinə və sonuna olan məbləğlərinin maliyyə fəaliyyətlərindən əldə olunan müvafiq nağd və nağdsız dəyişikliklərlə üzləşdirilməsi aşağıda göstərilmişdir:

| | **Digər borc alınmış vəsaitlər** | **Subordinasiya borcları** | **Cəmi** |
|---|---|---|---|
| **1 yanvar 2020-ci il tarixinə qalıq** | **97,700** | **11,871** | **109,571** |
| **Pul vəsaitləri axınının maliyyələşdirilməsi üzrə dəyişikliklər** | | | |
| Digər borc alnmış vəsaitlər və subordinasiya borclarının alınması | 43,771 | - | 43,771 |
| Digər borc alnmış vəsaitlər və subordinasiya borclarının qaytarılması | (35,439) | - | (35,439) |
| **Cəmi pul vəsaitləri axınının maliyyələşdirilməsi üzrə dəyişikliklər** | **8,332** | **-** | **8,332** |
| İlkin tanınma zamanı digər borc alnmış vəsaitlər üzrə ədalətli dəyər üzrə gəlir | (158) | - | (158) |
| **Digər dəyişikliklər** | | | |
| Faiz xərci | 5,189 | 1,086 | 6,275 |
| Ödənilmiş faiz | (4,903) | (1,159) | (6,062) |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | **106,160** | **11,798** | **117,958** |
| | | | |
| **Pul vəsaitləri axınının maliyyələşdirilməsi üzrə dəyişikliklər** | | | |
| Digər borc alnmış vəsaitlər və subordinasiya borclarının alınması | 68,383 | 5,253 | 73,636 |
| Digər borc alnmış vəsaitlər və subordinasiya borclarının qaytarılması | (45,445) | (4,250) | (49,695) |
| **Cəmi pul vəsaitləri axınının maliyyələşdirilməsi üzrə dəyişikliklər** | **22,938** | **1,003** | **23,941** |
| **Digər dəyişikliklər** | | | |
| Faiz xərci | 5,189 | 1,111 | 6,300 |
| Ödənilmiş faiz | (5,060) | (1,047) | (6,107) |
| **31 dekabr 2021-ci il tarixinə qalıq** | **129,227** | **12,865** | **142,092** |

## 16. İCARƏ ÖHDƏLİYİ

| | **31 dekabr 2021-ci il** | **31 dekabr 2020-ci il** |
|---|---|---|
| İcarə öhdəlikləri (cari) | 429 | 349 |
| İcarə öhdəlikləri (uzunmüddətli) | 1,024 | 536 |
| **Cəmi icarə öhdəlikləri** | **1,453** | **885** |

31 dekabr 2021-ci il tarixinə gələcək minimal icarə ödənişləri aşağıdakı kimi olmuşdur:

| | **Minimal icarə ödənişləri** | | |
|---|---|---|---|
| | **Bir il ərzində** | **Bir ildən on ilədək** | **Cəmi** |
| İcarə ödənişləri | 555 | 1,219 | 1,774 |
| Maliyyə xərcləri | (126) | (195) | (321) |
| **31 dekabr 2021-ci il tarixinə xalis cari dəyər** | **429** | **1,024** | **1,453** |

31 dekabr 2020-ci il tarixinə gələcək minimal icarə ödənişləri aşağıdakı kimi olmuşdur:

| | **Minimal icarə ödənişləri** | | |
|---|---|---|---|
| | **Bir il ərzində** | **Bir ildən on ilədək** | **Cəmi** |
| İcarə ödənişləri | 421 | 632 | 1,053 |
| Maliyyə xərcləri | (72) | (96) | (168) |
| **31 dekabr 2020-ci il tarixinə xalis cari dəyər** | **349** | **536** | **885** |

31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə icarə öhdəlikləri üzrə ilin əvvəlinə və sonuna olan məbləğlərin maliyyə fəaliyyətlərindən əldə olunan müvafiq nağd və nağdsız dəyişikliklərlə üzləşdirilməsi aşağıdakı kimi olmuşdur:

| | **1 yanvar 2021-ci il tarixinə** | **Pul vəsaitlərinin axını** | **Pul vəsaitlərinin axını** | **Nağdsız dəyişikliklər** | **Nağdsız dəyişikliklər** | **31 dekabr 2021-ci il tarixinə** |
|---|---|---|---|---|---|---|
| | | *Ödənilmiş əsas məbləğ* | *Ödənilmiş faiz* | *Faiz xərci* | *Yeni icarələr* | |
| İcarə öhdəliyi | **885** | (398) | (100) | 100 | 966 | **1,453** |

31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə icarə öhdəlikləri üzrə ilin əvvəlinə və sonuna olan məbləğlərin maliyyə fəaliyyətlərindən əldə olunan müvafiq nağd və nağdsız dəyişikliklərlə üzləşdirilməsi aşağıdakı kimi olmuşdur:

| | **1 yanvar 2020-ci il tarixinə** | **Pul vəsaitlərinin axını** | **Pul vəsaitlərinin axını** | **Nağdsız dəyişikliklər** | **Nağdsız dəyişikliklər** | **31 dekabr 2020-ci il tarixinə** |
|---|---|---|---|---|---|---|
| | | *Ödənilmiş əsas məbləğ* | *Ödənilmiş faiz* | *Faiz xərci* | *Yeni icarələr* | |
| İcarə öhdəliyi | **1,059** | (355) | (106) | 106 | 181 | **885** |

## 17. DİGƏR ÖHDƏLİKLƏR

| | **31 dekabr 2021-ci il** | **31 dekabr 2020-ci il** |
|---|---|---|
| **Maliyyə öhdəlikləri** | | |
| Hesablaşma nəticəsində yaranan məbləğlər | 1,385 | 704 |
| Kreditorlara ödəniləcək məbləğlər | 433 | 332 |
| Əmanətlərin Sığortalanması Fonduna ödəniləcək məbləğlər | 368 | 234 |
| Ödəniləcək əmək haqları | 226 | 108 |
| Ödəniləcək kompensasiya | 99 | 27 |
| Digər | 46 | 71 |
| **Cəmi maliyyə öhdəlikləri** | **2,557** | **1,476** |
| Dövlət və yerli fondlara ödənişlər | 254 | - |
| Cari mənfəət vergisi öhdəliyi | 189 | 248 |
| Zəmanətlər və digər öhdəliklər üzrə EOKZ * | 188 | 111 |
| Digər ödəniləcək vergilər | 182 | 124 |
| Digər | 4 | - |
| **Cəmi digər öhdəliklər** | **3,374** | **1,959** |

*31 dekabr 2021 və 2020-ci il tarixlərində başa çatmış illər ərzində təhəddüdlər və şərti öhdəliklər üzrə EOKZ ehtiyatında dəyişikliklərin təhlili aşağıdakı kimi olmuşdur:

| | **1-ci Mərhələ** | **2-ci Mərhələ** | **3-cü Mərhələ** | **Cəmi** |
|---|---|---|---|---|
| **1 yanvar 2021-ci il tarixinə EOKZ** | **(111)** | **-** | **-** | **(111)** |
| EOKZ üzrə dəyişiklik | (77) | - | - | (77) |
| **31 dekabr 2021-ci il tarixinə** | **(188)** | **-** | **-** | **(188)** |

| | **1-ci Mərhələ** | **2-ci Mərhələ** | **3-cü Mərhələ** | **Cəmi** |
|---|---|---|---|---|
| **1 yanvar 2020-ci il tarixinə EOKZ** | **(219)** | **-** | **-** | **(219)** |
| EOKZ üzrə dəyişiklik | 108 | - | - | 108 |
| **31 dekabr 2020-ci il tarixinə** | **(111)** | **-** | **-** | **(111)** |

31 dekabr 2021 və 2020-ci il tarixlərində başa çatmış illər ərzində təhəddüdlər və şərti öhdəliklər üzrə mərhələlər arasında köçürmələr olmamışdır.

## 18. NİZAMNAMƏ KAPİTALI

| | Qalan adi səhmlərin sayı | Adi səhmlər | Səhm mükafatı | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2020-ci il tarixinə** | **64,699** | **70,004** | **724** | **70,728** |
| Buraxılmış səhmlər | 4,622 | 5,001 | - | 5,001 |
| **31 dekabr 2020-ci il tarixinə** | **69,321** | **75,005** | **724** | **75,729** |
| Buraxılmış səhmlər | 4,621 | 5,000 | - | 5,000 |
| **31 dekabr 2021-ci il tarixinə** | **73,942** | **80,005** | **724** | **80,729** |

31 dekabr 2021-ci il tarixinə təsdiq olunmuş, buraxılmış və dövriyyədə olan səhmlər 73,942 ədəd adi səhmdən ibarət olmuşdur (31 dekabr 2020-ci il: 69,321). Bütün səhmlərin nominal dəyəri hər səhm üçün 1,082 AZN təşkil edir. 31 dekabr 2021-ci il tarixində başa çatmış il ərzində 4,621 ədəd adi səhm nağd pul müqabilində buraxılmışdır (31 dekabr 2020-ci il: 4,622 adi səhm).

Adi səhm sahibləri vaxtaşırı elan edilmiş dividendləri almaq və Qrupun illik və ümumi yığıncaqlarında hər səhm üzrə bir səsvermə hüququna malikdirlər. 2021-ci ildə Qrup adi səhmlər üzrə heç bir dividend bəyan etməmişdir (31 dekabr 2020-ci il: sıfır).

## 19. SƏHM ÜZRƏ MƏNFƏƏT

### Səhm üzrə əsas və təxsis edilmiş mənfəət

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| **Səhm üzrə mənfəət** | | |
| Səhm üzrə əsas və təxsis edilmiş mənfəət (hər səhm üzrə AZN) | 67.8 | 37.0 |

31 dekabr 2021-ci il tarixinə səhm üzrə əsas və təxsis edilmiş mənfəətin hesablanması adi səhmdarlara aid olan 4,697 min AZN (2020-ci il: 2,397 min AZN zərər) məbləğində mənfəətə əsaslanır və dövriyyədə olan adi səhmlərin orta sayı 71,980 ədəd (2020-ci il: 64,737) istifadə edilməklə aşağıdakı kimi hesablanmışdır:

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| **Adi səhmlərə aid xalis gəlir (min)** | **4,877** | **2,397** |
| 31 dekabr tarixində başa çatmış bir il üçün adi səhmlərin orta çəkili sayı | 71,980 | 64,737 |
| **Səhm üzrə mənfəət (AZN)** | **67.8** | **37.0** |

## 20. XALİS FAİZ GƏLİRİ

| | **31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə (yenidən təsnif edilmiş)** |
|---|---|---|
| **Effektiv faiz metodundan istifadə etməklə hesablanmış faiz gəliri:** | | |
| Müştərilərə verilmiş kreditlər | 37,876 | 32,637 |
| İnvestisiya qiymətli kağızları | 1,429 | 740 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,015 | 1,049 |
| Banklara verilmiş kreditlər və depozitlər | 652 | 799 |
| Zəmanətlər | 29 | 42 |
| **Cəmi effektiv faiz metodundan istifadə etməklə hesablanmış faiz gəliri:** | **41,001** | **35,267** |
| **Effektiv faiz metodundan istifadə etməklə hesablanmış faiz xərci:** | | |
| Müştəri cari hesabları və depozitləri | (20,086) | (15,481) |
| Digər borc alınmış vəsaitlər | (5,189) | (5,189) |
| Subordinasiya borcları | (1,111) | (1,086) |
| Banklardan və digər maliyyə təşkilatlarından alınacaq depozitlər və qalıqlar | (1,061) | (970) |
| İcarə öhdəliyi | (100) | (106) |
| **Cəmi effektiv faiz metodundan istifadə etməklə hesablanmış faiz xərci:** | **(27,547)** | **(22,832)** |
| **Ehtimal olunan kredit zərərindən əvvəl xalis faiz gəliri** | **13,454** | **12,435** |

## 21. XALİS HAQQ VƏ KOMİSSİYA GƏLİRİ

| | **31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| **Haqq və komissiya gəlirləri:** | | |
| Hesablaşmalar | 2,320 | 1,463 |
| Pul vəsaitlərinin çıxarılması | 1,940 | 785 |
| Plastik kartlar | 1,176 | 694 |
| Xarici valyuta ilə əməliyyat | 135 | 75 |
| Xidmət olunan müştəri hesabları | 77 | 62 |
| Zəmanət və akkreditivlərin buraxılması | 50 | 17 |
| Digər | 32 | 46 |
| **Cəmi haqq və komissiya gəlirləri** | **5,730** | **3,142** |
| **Haqq və komissiya xərcləri:** | | |
| Plastik kartlar | (1,163) | (805) |
| Ödəniş sistemləri | (487) | (279) |
| Hesablaşmalar | (382) | (177) |
| Broker əməliyyatları | (163) | (78) |
| Nağd pul vəsaitlərinin yığılması | (111) | (91) |
| Zəmanət və akkreditivlərin buraxılması | (26) | (34) |
| **Cəmi haqq və komissiya xərcləri** | **(2,332)** | **(1,464)** |
| **Xalis haqq və komissiya gəlirləri** | **3,398** | **1,678** |

## 22. İŞÇİ HEYƏTİ İLƏ BAĞLI XƏRCLƏR

| | **31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə (yenidən təsnif edilmiş)** |
|---|---|---|
| İşçilərə ödənişlər | (8,010) | (6,471) |
| Dövlət Sosial Müdafiə Fonduna ödənişlər | (1,232) | (1,111) |
| **Cəmi işçi heyəti ilə bağlı xərclər** | **(9,242)** | **(7,582)** |

## 23. ÜMUMİ VƏ İNZİBATİ XƏRCLƏR

| | **31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| Reklam və marketinq | (3,538) | (3,028) |
| Köhnəlmə və amortizasiya | (1,545) | (1,484) |
| Peşəkar xərclər | (497) | (235) |
| Rabitə xərcləri | (493) | (392) |
| Təhlükəsizlik xərcləri | (485) | (473) |
| Çap və ofis ləvazimatları | (330) | (408) |
| Mənfəət vergisindən başqa vergilər | (188) | (170) |
| Təmir və texniki xidmət | (184) | (101) |
| Nəqliyyat vasitələrinin istismar xərcləri | (154) | (137) |
| Xeyriyyəçilik xərcləri | (142) | (300) |
| Kommunal xərclər | (124) | (109) |
| Sponsorluq xərcləri | (120) | (101) |
| Əməliyyat icarəsi xərcləri | (46) | (37) |
| Ezamiyyət xərcləri | (58) | (34) |
| Üzvlük xərcləri | (39) | (78) |
| Sığorta xərcləri | (37) | (59) |
| Maliyyə Bazarlarına Nəzarət Palatasına ödənişlər | - | (75) |
| Digər | (77) | (95) |
| **Cəmi ümumi və inzibati xərclər** | **(8,057)** | **(7,316)** |

## 24. MƏNFƏƏT VERGİSİ

Qrup ödəniləcək cari mənfəət vergisi, eləcə də aktiv və öhdəliklər üzrə vergi bazalarını onun fəaliyyət göstərdiyi ölkələrin Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hesablayır və uçotda əks etdirir ki, bu da MHBS-dən fərqli ola bilər. Bəzi xərclər vergiyə cəlb olunmadığından və bəzi gəlirlər vergi məqsədləri üçün vergidən azad olduğundan Qrup, daimi olaraq, vergi fərqləri ilə üzləşir.

Təxirə salınmış vergilər maliyyə hesabatı məqsədləri üçün uçota alınan aktiv və öhdəliklərin qalıq dəyəri ilə verginin hesablanması məqsədilə istifadə edilən məbləğlər arasındakı müvəqqəti fərqlərin xalis vergi təsirlərini əks etdirir. 31 dekabr 2020 və 2020-ci il tarixlərinə olan müvəqqəti fərqlər, əsasən, gəlir və xərclərin tanınması üzrə müxtəlif metodlar, zaman müddətləri, eləcə də müəyyən aktivlər üzrə vergi - uçot əsaslı fərqlərdən yaranan müvəqqəti fərqlər ilə əlaqəlidir.

Aşağıdakı məbləğlərin üzləşdirilməsində tətbiq edilən vergi dərəcəsi Azərbaycan Respublikasında vergi qanunvericiliyinə əsasən (müəyyən edildiyi kimi) hüquqi şəxslər tərəfindən vergiyə alınacaq mənfəət üzrə ödəniləcək 20%-lik mənfəət vergisi dərəcəsidir.

31 dekabr 2021 və 2020-ci il tarixlərinə təxirə salınmış vergi aktivləri/(öhdəlikləri) aşağıdakılardan ibarətdir:

| | **31 dekabr 2021-ci il** | **31 dekabr 2020-ci il** |
|---|---|---|
| Aşağıdakılar üzrə təxirə salınmış vergi aktivləri: | | |
| Müştərilərə verilmiş kreditlər | 4,708 | 4,679 |
| Banklara veriləcək kreditlər və depozitlər | 200 | 751 |
| Əmlak, avadanlıqlar və qeyri-maddi aktivlər | 64 | 63 |
| Digər öhdəliklər | 104 | 77 |
| İcarə öhdəliyi | 291 | 177 |
| Mümkün zəmanətlər və digər öhdəliklər üzrə ehtiyat | 38 | 22 |
| **Cəmi təxirə salınmış vergi aktivləri** | **5,405** | **5,769** |
| **Aşağıdakılar üzrə təxirə salınmış vergi öhdəlikləri:** | | |
| İstifadə hüququ verən aktivlər | (271) | (158) |
| Digər aktivlər | (158) | (82) |
| Digər borc alınmış vəsaitlər | (43) | (71) |
| **Cəmi təxirə salınmış vergi öhdəlikləri** | **(472)** | **(311)** |
| **Təxirə salınmış vergi aktivləri** | **4,933** | **5,458** |
| Tanınmamış təxirə salınmış vergi aktivləri | (5,053) | (4,699) |
| **Xalis təxirə salınmış vergi (öhdəlikləri)/aktivləri** | **(120)** | **759** |

31 dekabr 2021 və 2020-ci il tarixlərinə qüvvədə olan vergi dərəcəsinin üzləşdirilməsi aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| **Mənfəət vergisindən əvvəlki mənfəət** | **6,112** | **2,691** |
| Qanunla müəyyən edilmiş 20% vergi dərəcəsi ilə vergi | (1,222) | (538) |
| Müvəqqəti fərqlər üzrə vergi təsiri | (50) | (82) |
| Qiymətləndirmə ehtiyatında dəyişiklik | (354) | 326 |
| Əvvəlki ilin təxirə salınmış vergi qalıqlarına yenidən baxılması | 391 | - |
| **Mənfəət vergisi xərci** | **(1,235)** | **(294)** |
| Cari mənfəət vergisi xərci | (356) | (248) |
| Cari ildə tanınmış təxirə salınmış mənfəət vergisi xərci | (879) | (46) |
| **Mənfəət vergisi xərci** | **(1,235)** | **(294)** |

| Təxirə salınmış mənfəət vergisi (öhdəliyi)/aktivi | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| **1 yanvar tarixinə – təxirə salınmış mənfəət vergisi aktivi** | **759** | **805** |
| Konsolidə edilmiş mənfəət və ya zərər üzrə təxirə salınmış mənfəət vergisi qalıqlarında dəyişiklik | (879) | (46) |
| **31 dekabr tarixinə – təxirə salınmış mənfəət vergisi (öhdəliyi)/aktivi** | **(120)** | **759** |

| | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Davam edən əməliyyatlardan mənfəət vergisi xərci | (1,185) | (287) |
| Dayandırılmış əməliyyatlardan mənfəət vergisi xərci | (50) | (7) |
| **Cəmi mənfəət vergisi xərci** | **(1,235)** | **(294)** |

## 25. TÖRƏMƏ MÜƏSSİSƏLƏRİN XARİC EDİLMƏSİ - DAYANDIRILMIŞ ƏMƏLİYYATLAR

26 may 2021-ci il tarixində Qrup hər bir səhmin nominal dəyəri 20 AZN olan 5 adi səhmin üçüncü şəxs rezident fiziki şəxsə 100 AZN-ə satılması yolu ilə "TuranLizinq" MMC-dəki 100% sahiblik hüququnu tam olaraq ləğv etmişdir. Qrup törəmə müəssisəsini ləğv etdiyinə görə o, dayandırılmış əməliyyatlar üzrə açıqlanmalıdır.

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| Faiz xərci | - | (22) |
| **Xalis faiz xərci** | **-** | **(22)** |
| İşçi heyəti ilə bağlı xərclər | (6) | (14) |
| Ümumi və inzibati xərclər | (13) | - |
| **Dayandırılmış əməliyyatlardan gələn zərər** | **(19)** | **(36)** |

| **Ləğvin Qrupun maliyyə vəziyyətinə təsiri** | |
|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | (1) |
| Müştərilərə verilmiş kreditlər | (316) |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | (2) |
| Digər borc alınmış vəsaitlər | 587 |
| Digər öhdəliklər | 3 |
| **Ləöv edilmiş xalis öhdəliklər** | **271** |
| Əldə edilmiş məbləğlər (100 AZN, sıfıra yuvarlaqlaşdırılıb) | - |
| **Törəmə müəssisənin satışından əldə edilən gəlir** | **271** |

## 26. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ

Risklərin idarə edilməsi bank işinin əsasını təşkil edir və Qrup əməliyyatlarının əsas elementidir. Qrupun üzləşdiyi əsas risklər bazar riski, kredit riski və likvidlik riski ilə bağlıdır.

**Risklərin idarə edilməsi siyasətləri və prosedurları**

Risklərin idarə edilməsi siyasətləri Qrupun qarşılaşdığı riskləri müəyyən, təhlil və idarə etmək, müvafiq risk məhdudiyyətləri və nəzarətini təşkil etmək, davamlı olaraq riskin səviyyəsinə nəzarət etmək və məhdudiyyətlərə əməl etmək məqsədi daşıyır. Risklərin idarə edilməsi siyasətləri və prosedurları bazar şərtlərində, təklif edilən məhsul və xidmətlərdə, inkişaf etməkdə olan ən yaxşı təcrübədə baş verən dəyişiklikləri əks etdirmək üçün mütəmadi olaraq nəzərdən keçirilir.

İdarə Heyəti risklərin azaldılması üzrə tədbirlərin monitorinqi və həyata keçirilməsinə, Qrupun yaradılmış risk parametrləri daxilində əməliyyatların keçirilməsində əminliyin təmin edilməsinə görə məsuliyyət daşıyır.

Risklərin idarə edilməsi departamentinin sədri bütövlükdə risklərin idarə edilməsi və funksiyalara əməl olunması, maliyyə və qeyri-maliyyə risklərinin müəyyənləşdirilməsi, ölçülməsi, idarə edilməsi və hesabatın verilməsi üçün ümumi prinsip və metodların həyata keçirilməsinə əmin olmağa görə məsuliyyət daşıyır. O, İdarə Heyətinin məsul üzvünə hesabat verir.

Həm portfel, həm əməliyyat səviyyəsindəki kredit, bazar və likvidlik risklərinin idarə edilməsi və nəzarəti Kredit Komitələri və Aktivlərin və öhdəliklərin İdarə Olunması Komitəsi (AÖİK) vasitəsilə təmin olunur. Qərarların qəbul edilməsi prosesinin səmərəliliyini və operativliyini təmin etmək məqsədi ilə Qrup riskin növü və həcmindən asılı olaraq bir sıra kredit komitələri təşkil etmişdir.

Həm xarici, həm daxili risk amilləri təşkilatın bütün səviyyələrində və sahələrində müəyyən edilib idarə olunur və tənzimlənir. Risk amillərinin tam spektrinin və cari risklərin tənzimlənməsi prosedurlarının təminat səviyyəsinin müəyyən edilməsinə xüsusi diqqət yetirilir. Kredit və bazar risklərinin standart təhlili ilə yanaşı, Risklərin İdarə Olunması Departamenti əməliyyat şöbələri ilə dövri görüşləri keçirməklə və onların ixtisas sahələri üzrə ekspert rəylərini əldə etməklə maliyyə və qeyri-maliyyə risklərin monitorinqini aparır.

**Bazar riski**

Bazar riski maliyyə alətinin ədalətli dəyərinin və ya gələcək pul vəsaitlərinin hərəkətlərinin bazar qiymətlərində baş verən dəyişikliklər səbəbindən tərəddüd edəcəyi riskidir. Bazar riski valyuta riskindən, faiz dərəcəsi riskindən və digər qiymət risklərindən ibarətdir. Bazar riski bazar qiymətlərində və xarici valyuta məzənnələrində ümumi və spesifik xarakterli dəyişikliklərin və bazar qiymətlərinin dəyişkənlik səviyyəsində dəyişikliklərin təsirinə məruz qalan faiz dərəcələrində və səhm maliyyə alətlərində açıq mövqelərlə əlaqədar yaranır.

Bazar risklərinin idarə edilməsi müəyyən parametrlər çərçivəsində bazar risklərinin idarə edilməsi və tənzimlənməsi və eyni zamanda, gəlirliliyin risklərə nisbətinin optimallaşdırılması məqsədinə xidmət edir.

Bazar riski üzrə ümumi səlahiyyət, İdarə Heyətinin sədrinin rəhbərlik etdiyi AÖİK-ə aiddir. Bazar riski üzrə limitlər AÖİK tərəfindən Risklərin İdarə Olunması Departamentinin tövsiyələrinə əsasən təsdiq olunur.

Qrup bazar riskini maliyyə alətləri ilə, faiz dərəcələrin ödəniş müddətləri ilə, valyuta mövqeləri ilə və itkilər üzrə limitlərlə münasibətdə açıq mövqe limitlərini təyin etməklə tənzimləyir. Müşahidə Şurası qeyd edilən göstəricilərin mütəmadi monitorinqini və yoxlamalarını aparır.

**Faiz dərəcəsi riski**

Faiz dərəcəsi riski maliyyə alətinin ədalətli dəyərində və ya gələcək pul vəsaitlərinin hərəkətinə bazar faiz dərəcələrində dəyişikliklər nəticəsində dəyişəcəyi riskidir. Qrup, bazar faiz dərəcələrinin səviyyələrində dəyişikliklərin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin axını təsirinə məruz qalır. Faiz marjaları bu cür dəyişikliklərin nəticəsində yüksələ bilər, lakin eyni zamanda, gözlənilməyən dəyişikliklər baş verdikdə azala yaxud itkilərə gətirib çıxara bilər.

**Faiz dərəcələri arasındakı fərqin təhlili**

Faiz dərəcəsi riski, əsasən, faiz dərəcələri arasındakı fərqlərə nəzarət etməklə tənzimlənir. Aşağıdakı cədvəldə əsas maliyyə alətləri üzrə faiz dərəcələri arasındakı fərqlər təqdim olunur:

| | 3 aydan az | 3-6 ay | 6-12 ay | 1-5 il | 5 ildən artıq | Faiz gətirməyən | Qalıq dəyəri |
|---|---|---|---|---|---|---|---|
| **31 dekabr 2021-ci il** | | | | | | | |
| **AKTİVLƏR** | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 11,430 | - | - | - | - | 162,068 | 173,498 |
| Banklara verilmiş kreditlər və depozitlər | 4,437 | 2,793 | 4,391 | 31,208 | - | 2,767 | 45,596 |
| Müştərilərə verilmiş kreditlər | 74,428 | 66,387 | 70,922 | 131,904 | 59,710 | 11,034 | 414,385 |
| İnvestisiya qiymətli kağızları | - | 2,303 | - | 16,008 | 8,667 | 816 | 27,794 |
| Digər maliyyə aktivləri | - | - | - | - | - | 2,434 | 2,434 |
| | **90,295** | **71,483** | **75,313** | **179,120** | **68,377** | **179,119** | **663,707** |
| **ÖHDƏLİKLƏR** | | | | | | | |
| Banklardan və digər maliyyə təşkilatlarından alınacaq depozitlər və qalıqlar | 54,734 | - | 7,140 | - | - | 525 | 62,399 |
| Müştəri cari hesabları və depozitləri | 49,965 | 30,443 | 106,443 | 53,889 | 291 | 178,353 | 419,384 |
| Digər borc alınmış vəsaitlər | 5,193 | 17,911 | 14,930 | 40,328 | 50,865 | - | 129,227 |
| Subordinasiya borcları | 86 | - | 4,280 | 2,566 | 5,933 | - | 12,865 |
| İcarə öhdəliyi | 103 | 106 | 220 | 982 | 42 | | 1,453 |
| Digər maliyyə öhdəlikləri | - | - | - | - | - | 2,557 | 2,557 |
| | **110,081** | **48,460** | **133,013** | **97,765** | **57,131** | **181,435** | **627,885** |
| | **(19,786)** | **23,023** | **(57,700)** | **81,355** | **11,246** | **(2,316)** | **35,822** |

| | 3 aydan az | 3-6 ay | 6-12 ay | 1-5 il | 5 ildən artıq | Faiz gətirməyən | Qalıq dəyəri |
|---|---|---|---|---|---|---|---|
| **31 dekabr 2020-ci il** | | | | | | | |
| **AKTİVLƏR** | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 9,499 | - | - | - | - | 108,547 | 118,046 |
| Banklara verilmiş kreditlər və depozitlər | 20,195 | - | - | 17,304 | - | 2,115 | 39,614 |
| Müştərilərə verilmiş kreditlər | 72,112 | 54,445 | 53,549 | 89,061 | 47,098 | 10,391 | 326,656 |
| İnvestisiya qiymətli kağızları | 198 | - | 9,939 | 300 | - | 945 | 11,382 |
| Digər maliyyə aktivləri | - | - | - | - | - | 1,235 | 1,235 |
| | **102,004** | **54,445** | **63,488** | **106,665** | **47,098** | **123,233** | **496,933** |
| **ÖHDƏLİKLƏR** | | | | | | | |
| Banklardan və digər maliyyə təşkilatlarından alınacaq depozitlər və qalıqlar | 49,284 | - | 17,384 | 2,000 | - | 174 | 68,842 |
| Müştəri cari hesabları və depozitləri | 53,053 | 22,078 | 81,174 | 36,845 | 247 | 87,300 | 280,697 |
| Digər borc alınmış vəsaitlər | 13,469 | 14,968 | 17,219 | 19,601 | 40,903 | - | 106,160 |
| Subordinasiya borcları | 22 | - | - | 9,040 | 2,736 | - | 11,798 |
| İcarə öhdəliyi | 86 | 89 | 174 | 476 | 60 | - | 885 |
| Digər maliyyə öhdəlikləri | - | - | - | - | - | 1,476 | 1,476 |
| | **115,914** | **37,135** | **115,951** | **67,962** | **43,946** | **88,950** | **469,858** |
| | **(25,809)** | **17,310** | **(52,463)** | **38,703** | **3,152** | **34,283** | **27,075** |

***Orta effektiv faiz dərəcələri***

Aşağıdakı cədvəldə 31 dekabr 2021 və 2020-ci il tarixlərinə faiz gətirən aktivlər və öhdəliklər üzrə orta effektiv faiz dərəcəsi göstərilmişdir. Bu faiz dərəcələri gəlirlilik səviyyələrinin həmin aktivlərin və öhdəliklərin ödəniş müddətinə nisbətin təxminləridir.

| | 2021 Orta effektiv faiz dərəcəsi, % | | | 2020 Orta effektiv faiz dərəcəsi, % | | |
|---|---|---|---|---|---|---|
| | **AZN** | **ABŞ dolları** | **Digər valyutalar** | **AZN** | **ABŞ dolları** | **Digər valyutalar** |
| **Faiz gətirən aktivlər** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6.00 | - | - | 5.76 | - | - |
| Banklara verilmiş kredit və depozitlər | 7.00 | 1.23 | - | 6.96 | 1.12 | - |
| Müştərilərə verilmiş kreditlər | 12.62 | 7.16 | 5.56 | 11.63 | 7.59 | 5.33 |
| İnvestisiya qiymətli kağızları | 5.26 | 4.50 | - | 7.30 | - | - |
| **Faiz gətirən öhdəliklər** | | | | | | |
| Banklardan və digər maliyyə təşkilatlarından alınacaq depozitlər və qalıqlar | | | | | | |
| - Müddətli depozitlər | 1.23 | 1.77 | 1.49 | 2.83 | 2.00 | 2.00 |
| Cari hesablar və müştərilərdən alınmış depozitlər | | | | | | |
| - Cari hesablar və tələb olunan depozitlər | 7.53 | 2.83 | 2.56 | 7.52 | 3.01 | 2.75 |
| - Müddətli depozitlər | 10.95 | 2.54 | 0.75 | 10.97 | 2.56 | 1.02 |
| Digər borc alınmış vəsaitlər | 3.80 | 5.28 | - | 4.68 | 5.00 | - |
| Subordinasiya borcları | - | 9.21 | - | - | 9.22 | - |
| İcarə öhdəliyi | 10.00 | - | - | 10.00 | - | - |

### *Faiz dərəcəsinin həssaslıq təhlili*

Həm dəyişkən, həm də sabit faiz dərəcələri ilə kreditlər aldığından Qrup faiz dərəcəsi riskinə məruz qalır. Qrup sabit və dəyişkən faiz dərəcələri ilə borclar almaqla riskin idarə edilməsini həyata keçirir.

Aşağıdakı həssaslıq təhlilləri hesabat dövrünün sonunda törəmə və qeyri-törəmə maliyyə alətləri üzrə faiz dərəcələrinə məruzqalma əsasında müəyyən olunmuşdur. Dəyişkən dərəcəli öhdəliklərlə bağlı təhlil hesabat dövrünün sonuna qalıq öhdəlik məbləğinin il üzrə qalıq məbləği olduğunu fərz etməklə hazırlanır. Qrup daxilində faiz dərəcəsi riski barədə əsas idarə heyətinə məlumat verildikdə 100 baza dərəcəsində artım və ya azalmaya istinad edilir ki, bu da faiz dərəcələrində mümkün dəyişikliklərlə bağlı rəhbərliyin qiymətləndirilməsini əks etdirir.

### Valyuta riski

Qrupun müxtəlif valyutalarla ifadə olunmuş aktivləri və öhdəlikləri vardır. Valyuta riski xarici valyutanın mübadilə məzənnələrində dəyişikliklər nəticəsində ədalətli dəyərin və ya maliyyə alətləri üzrə gələcək pul daxilolmalarının dəyişməsi ilə əlaqəli riskdir. Qrup valyuta riskinə məruzqalmadan qorunsa da, belə fəaliyyətlər MHBS əsasında hedcinq fəaliyyətləri hesab edilmir.

AÖİK təxmin edilən ABŞ dollarının devalvasiyası və digər makroiqtisadi göstəricilər əsasında açıq valyuta mövqeyinin idarəedilməsi yolu ilə valyuta riskinə nəzarət edir ki, bu da Qrupa valyutaların manata qarşı mübadilə məzənnələrinin dəyişkənliyindən irəli gələn əhəmiyyətli zərərin azaldılması üçün imkan yaradır. Xəzinədarlıq şöbəsi Azərbaycan Respublikası Mərkəzi Bankının tələblərinə uyğunlaşmanı təmin etmək məqsədilə Qrupun açıq valyuta mövqeyinin gündəlik monitorinqini həyata keçirir.

Aşağıdakı cədvəldə 31 dekabr 2021-ci il tarixinə maliyyə aktivlərinin və öhdəliklərinin xarici valyuta riskinə məruzqalma strukturu təqdim olunur:

| | **AZN** | **ABŞ dolları** | **Avro** | **Digər valyutalar** | **Cəmi** |
|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 95,367 | 57,083 | 13,379 | 7,669 | 173,498 |
| Banklara ödəniləcək kreditlər və depozitlər | 4,615 | 40,981 | - | - | 45,596 |
| Müştərilərə verilmiş kreditlər | 345,505 | 68,121 | 759 | - | 414,385 |
| İnvestisiya qiymətli kağızları | 26,729 | 1,065 | - | - | 27,794 |
| Digər maliyyə aktivləri | 2,134 | 189 | 1 | 110 | 2,434 |
| **Cəmi aktivlər** | **474,350** | **167,439** | **14,139** | **7,779** | **663,707** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Banklardan və digər maliyyə təşkilatlarından alınacaq depozitlər və qalıqlar | 52,073 | 7,357 | 2,965 | 4 | 62,399 |
| Cari hesablar və müştərilərdən alınmış depozitlər | 275,462 | 133,722 | 3,863 | 6,337 | 419,384 |
| Digər borc alınmış vəsaitlər | 117,249 | 11,978 | - | - | 129,227 |
| Subordinasiya borcları | - | 12,865 | - | - | 12,865 |
| İcarə öhdəliyi | 1,453 | - | - | - | 1,453 |
| Digər maliyyə öhdəlikləri | 2,401 | 155 | 1 | - | 2,557 |
| **Cəmi öhdəliklər** | **448,638** | **166,077** | **6,829** | **6,341** | **627,885** |
| **Xalis mövqe** | **25,712** | **1,362** | **7,310** | **1,438** | **35,822** |

Aşağıdakı cədvəldə 31 dekabr 2020-ci il tarixinə maliyyə aktivlərinin və öhdəliklərinin xarici valyuta riskinə məruzqalma strukturu təqdim olunur:

| | **AZN** | **ABŞ dolları** | **Avro** | **Digər valyutalar** | **Cəmi** |
|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 58,357 | 31,716 | 13,945 | 14,028 | 118,046 |
| Banklardan alınacaq kreditlər və depozitlər | 4,218 | 35,396 | - | - | 39,614 |
| Müştərilərə verilmiş kreditlər | 264,631 | 60,565 | 1,460 | - | 326,656 |
| İnvestisiya qiymətli kağızları | 11,382 | - | - | - | 11,382 |
| Digər maliyyə aktivləri | 1,219 | 14 | 2 | - | 1,235 |
| **Cəmi aktivlər** | **339,807** | **127,691** | **15,407** | **14,028** | **496,933** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Banklardan və digər maliyyə təşkilatlarından alınacaq depozitlər və qalıqlar | 52,211 | 12,710 | 3,917 | 4 | 68,842 |
| Cari hesablar və müştərilərdən alınmış depozitlər | 159,297 | 104,271 | 3,975 | 13,154 | 280,697 |
| Digər borc alınmış vəsaitlər | 105,664 | 496 | - | - | 106,160 |
| Subordinasiya borcları | - | 11,798 | - | - | 11,798 |
| İcarə öhdəliyi | 885 | - | - | - | 885 |
| Digər maliyyə öhdəlikləri | 1,368 | 107 | 1 | - | 1,476 |
| **Cəmi öhdəliklər** | **319,425** | **129,382** | **7,893** | **13,158** | **469,858** |
| **Xalis mövqe** | **20,382** | **(1,691)** | **7,514** | **870** | **27,075** |

**Kredit riski**

Kredit riski müştəri və ya maliyyə aləti üzrə tərəf müqabili müqavilə üzrə öhdəliklərini yerinə yetirmədiyi təqdirdə Qrupun maliyyə zərərinə uğrayacağı riskdir. Qrupun kredit risklərinin tənzimlənməsi üçün siyasət və prosedurları vardır (həm uçota alınmış maliyyə aktivləri, həm də uçota alınmamış müqavilə öhdəlikləri üçün); o cümlədən, portfel cəmləşmələrinin məhdudlaşdırılması üzrə qaydalar və kredit riskinə fəal surətdə nəzarət edən Kredit Komitəsinin yaradılması barədə qaydalar daxildir. Kredit siyasəti Müşahidə Şurası tərəfindən nəzərdən keçirilir və təsdiqlənir.

***Kredit riskinin idarə edilməsi***

Kredit riski Qrupun biznes fəaliyyəti üçün yegənə ən böyük riskdir; buna görə də rəhbərlik kredit riskinə məruzqalmanı diqqətlə idarə edir.

Risklərin idarə edilməsi məqsədləri üçün kredit riski üzrə təxminlərin irəli sürülməsi olduqca mürəkkəbdir və bazarın şərtlərinə, ehtimal olunan pul vəsaitlərinin hərəkəti və vaxt keçidi ilə bağlı dəyişkənlik kimi modellərin istifadəsini nəzərdə tutur. Aktivlər portfeli üzrə kredit riskinin qiymətləndirilməsi, ehtimal edilən xətaların, əlaqəli zərər nisbətlərinin və kreditlərin çevrilməsi amillərinin daha çox qiymətləndirilməsini nəzərdə tutur.

***Limitlər.*** Qrup bir borcalanla və ya borcalanlar qrupuna, coğrafi və sənaye seqmentlər ilə bağlı qəbul edilmiş risk məbləğinə məhdudiyyət qoymaqla öhdəlik götürdüyü kredit riskinin səviyyələrini struklaşdırır.

İstehsal və sənaye sektoru tərəfindən kredit riski səviyyəsinə görə məhdudiyyətlər rəhbərlik tərəfindən, mütəmadi olaraq, təsdiq edilir. Bu risklər, dövri olaraq, izlənilir və illik və ya daha da mütəmadi şəkildə nəzərdən keçirilir.

Qrup fərdi borcalanlar üçün kredit limitlərini təsdiqləyən bir sıra kredit komitələri yaratmışdır. Kredit riskinin miqyasından asılı olaraq, korporativ müştərilərlə əməliyyatlar üzrə qərarlar Böyük Kredit Komitəsi və ya Kiçik Kredit Komitəsi tərəfindən təsdiq edilir. Komitələr həftəlik olaraq toplanır. Bəzi hallarda (məsələn, iri və ya əhəmiyyətli) kreditlər İdarə Heyətinin Sədri və ya Direktorlar Şurası tərəfindən təsdiq edilir.

Müvafiq müştəri xidmətləri üzrə menecerleri tərəfindən tərtib olunmuş kredit ərizələri, kredit limitinin təsdiqi üçün müvafiq kredit komitəsinə verilir. Kredit riskinə məruz qalma, qismən, girovun alınması, həmçinin korporativ və şəxsi zəmanətlər vasitəsilə idarə olunur. Kredit riskinə məruz qalmaq üçün müştərilərin biznes və maliyyə göstəricilərinə əsaslanan strukturlaşdırılmış təhlil əsasında məsul şəxslər tərəfindən müntəzəm hesabatlar hazırlanır. Ödəmə qabiliyyətini itirmiş müştərilər ilə hər hansı əhəmiyyətli təsirlər İdarə Heyəti və ya Direktorlar Şurasına təqdim edilir və nəzərdən keçirilir.

**Ehtimal olunan kredit zərəri (EOKZ) üzrə ölçülmələr – anlayışlar**

EOKZ, gələcək pul çatışmazlığının cari dəyərinin (kredit zərərlərinin orta çəkili dəyəri, verilmiş müddətə istifadə edilən müvafiq defolt riskləri ilə) ehtimal olunan təxminidir. EOKZ ölçüsü qərəzsizdir və bir sıra mümkün nəticələrin qiymətləndirilməsi ilə təyin edilir.

Diskont Dərəcəsi – hesabat tarixində ehtimal edilən zərərin cari dəyərə endirilməsi üçün bir alətdir. Diskont dərəcəsi maliyyə aləti üçün effektiv faiz dərəcəsini (EFD) və ya onun təxmini uyğunlaşdırılmasını əks etdirir.

Ömürlük müddət – EOKZ-in ölçülməsi üçün maksimal müddətdir. Sabit ödənişli kreditlər üçün ömürlük müddət qalan müqavilə müddətinə bərabərdir. Sabit ödəmə müddəti olan kreditlər üçün ömürlük müddət qalan müqavilə müddətinə bərabərdir. Kredit öhdəlikləri və maliyyə təminatı müqavilələri üçün bu, kreditin uzadılması üçün müəssisənin müqavilə öhdəliyi olan maksimal müqavilə müddətidir. Fiziki şəxslərə verilən kredit kartları üçün daxili statistikaya əsaslanır və 3 ilə bərabərdir.

Ömürlük EOKZ – maliyyə alətinin qalan ömür müddəti ərzində mümkün olan defolt hallarında baş verən itkilərdir.

12 aylıq EOKZ – maliyyə alətləri üzrə defolt hallarının baş verməsi nəticəsində meydana çıxan EOKZ əks etdirən EOKZ-lərin bir qismi, maliyyə alətinin qalan müqavilə müddəti ilə məhdudlaşdıran hesabat tarixindən 12 ay ərzində mümkündür.

Proqnozlaşdırılan məlumat – hər bir portfel seqmenti üçün kredit riskini və ehtimal olunan kredit zərərlərinə təsir edən əsas makroiqtisadi dəyişiklikləri özündə ehtiva edən məlumatdır. 9 saylı MHBS maddəsinə uyğun olaraq, EOKZ-nin qiymətləndirilməsində geniş konsepsiya proqnozlaşdırılan məlumatları nəzərdən keçirməkdir.

Kredit Konvertasiya Əmsalı (KKƏ) - balansdankənar məbləğlərin müəyyən edilmiş müddətdə balans maddəsinə çevrilmə ehtimalı olduğunu göstərir. Bu, 12 aylıq və ya ömürlük dövr üçün hesablana bilər. Həyata keçirilən təhlilə əsasında Qrup, 12 aylıq və ömürlük KKƏ-in eyni olduğunu ehtimal edir.

Satın alındıqda və ya əldə edildikdə kredit dəyərsizləşməsinə uğramış aktivlər (SƏKD) ilkin tanınmada kredit dəyərsizləşməsinə məruz qalmış maliyyə aktivləridir.

Aşağı kredit riskli maliyyə aktivləri – xarici reytinq agentlikləri və ya müvafiq daxili reytinq tərəfindən investisiya dərəcəsi verilmiş aktivlər, Azərbaycan Respublikası tərəfindən buraxılmış və manatla irəli sürülmüş borc alətləri, Azərbaycan Respublikasının mülkiyyətində olan şirkətlərə verilmiş manat ilə olan kreditlərdir. Maliyyə aktivləri üzrə ödənişlərin 30 gündən çox gecikməsi halında ilkin tanınma tarixinə nisbətən kredit riskində əhəmiyyətli dərəcədə artımın baş verməsi ehtimalı istisna edilməmişdir.

Defolt və kredit dəyərsizləşməsinə məruz qalmış aktiv – Defolt vəziyyətində olan kredit aşağıda göstərilən meyarlardan birinə və ya bir neçəsinə cavab verdikdə “kredit dəyərsizləşməsinə məruz qalmış” aktivin tərifi ilə tamamilə uyğunlaşdırılmış hesab olunur:

- Müqavilə şərtlərinə uyğun olaraq 90 gündən çox vaxtı keçmişdir;
- Kredit 6 aydan az əvvəl restrukturizasiya edilmişdir və müqavilə üzrə ödəmələrə görə 31-90 gün vaxtı keçmişdir;
- Borcalanın xarici reytinqi Caa2-dən aşağıdır;
- Qrup borcalanın borcunu əhəmiyyətli zərər ilə satmağı düşünür (borcun əsas məbləğinin və hesablanmış faizlərin 5%-dən çoxu);
- borcalanın müflis elan edilməsi barədə digər məlumatlar mövcuddur.

Kredit Komitəsi aşağıda sadalanan ödəmə ehtimalının olmaması meyarlarına əsasən borcalanı kredit zərəri yaradan şəxs kimi tanıyır:

- Borcalan likvidlik problemi ilə üzləşmişdir;
- Borcalanın iflasa girməsi ehtimalı artır;
- Borcalanın öhdəliklərini müvəffəqiyyətlə yerinə yetirməsindəki çətinlikləri əks etdirən digər meyarlar mövcuddur.

Ardıcıl altı aylıq müddət ərzində heç bir defolt meyarlarına cavab vermədikdə, alət artıq defolt vəziyyətində mövcud hesab edilmir (yəni, artıq bərpa olunmuşdur).

Kredit Riskində Əhəmiyyətli Artım (KRƏA) – KRƏA qiymətləndirməsi fərdi və portfel əsasında həyata keçirilir. AD və ya DMGVƏD-də hesablanmış fiziki və hüquqi şəxslərə verilmiş kreditlər üçün, KRƏA aşağıda göstərilən şərtlərin monitorinqi əsasında fərdi şəkildə qiymətləndirilir. KRƏA-nın müəyyənləşdirilməsi üçün istifadə edilən kriteriyalar Qrupun Risklərin İdarə Edilməsi Komitəsi tərəfindən uyğunluq üçün mütəmadi olaraq izlənilir və nəzərdən keçirilir.

Qrup maliyyə alətini aşağıda göstərilən kəmiyyət, keyfiyyət və ya dəstəkləyici meyarlardan birinin və ya bir neçəsinin yerinə yetirildiyi zaman KRƏA-ya uğraması kimi dəyərləndirir.

Hüquqi şəxslərə verilmiş kreditlər və hüquqi şəxslər tərəfindən buraxılmış istiqrazlar, banklararası əməliyyatlar və banklar tərəfindən buraxılan istiqrazlar üçün:

- 31-90 gündən artıq gecikdirilmiş;
- Restrukturizasiya edilmiş və 6-30 gün gecikdirilmiş;
- Monitorinqlər borcalanın maliyyə çətinlikləri olduğunu göstərir.

Fiziki şəxslərə verilmiş kreditlər üçün:

- 31-60 gündən artıq gecikdirilmiş;
- Restrukturizasiya edilmiş və 6-30 gün gecikdirilmiş kreditlər;

KRƏA meyarlarına artıq cavab vermədiyi və bunun ən az 6 ay davam etməsinə dair sübutlar olduqda, alət 1-ci Mərhələyə qaytarılır. Keyfiyyət göstəricisinə əsasən, risk 2-ci Mərhələyə köçürülmüşdürsə, Qrup göstəricinin mövcud olması və ya dəyişməsi dinamikasını izləyir.

**EOKZ-nin ölçülməsi – qiymətləndirmə üsullarının təsviri**

*Ümumi prinsip*

SƏKD olmayan maliyyə aktivləri üçün, EOKZ, ilkin tanınma tarixindən sonra borcalanın kredit riskinə əhəmiyyətli dərəcədə artmış olub-olmamasına bağlı olaraq, iki müxtəlif müddətdən biri üzrə defolt riskinə əsasən qiymətləndirilir. Bu yanaşma EOKZ ölçülməsi üçün üç mərhələli bir modeldə göstərilə bilər:

- 1-ci Mərhələ: ilkin tanınma zamanı kredit zərərinə məruz qalmamış maliyyə aləti və onun kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmamışdır; zərərin ödənilməsi 12 aylıq EOKZ-lərə əsaslanır.
- 2-ci Mərhələ: ilkin tanınmadan sonra KRƏA-nın müəyyən edildiyi təqdirdə, maliyyə aləti 2-ci Mərhələyə köçürülür, lakin hələ də kredit zərərinə məruz qalmış hesab olunmur; zərərin ödənilməsi ömürlük EOKZ-lərə əsaslanır.
- 3-cü Mərhələ: maliyyə aləti kredit zərərinə məruz qalarsa, maliyyə aləti daha sonra 3-cü Mərhələyə köçürülür və zərərin ödənilməsi ömürlük EOKZ-lərə əsaslanır.

SƏKD maliyyə aktivləri üçün EOKZ həmişə ömürlük ölçülür (3-cü Mərhələ), buna görə hesabat tarixində Qrup yalnız ömürlük ehtimal olunan kredit zərərlərindəki məcmu dəyişiklikləri tanıyır.

Qrup EOKZ ölçülməsi üçün üç ayrı yanaşma həyata keçirə bilər:

- Fərdi əsasda qiymətləndirmə;
- Portfel əsasında qiymətləndirmə;
- Xarici reytinqə əsaslanan qiymətləndirmə.

Qrup hüquqi şəxslərə verilmiş kreditlərin aşağıdakı növləri üzrə fərdi əsasda qiymətləndirmə aparır: vahid kredit riski xüsusiyyətlərinə malik kreditlər, fərdi əhəmiyyətli kreditlər və dəyərsizləşmiş kreditlər.

Qrup aşağıdakı növ aktivlər üzrə portfel əsasında qiymətləndirməni həyata keçirir: hüquqi şəxslərə verilmiş kreditlər və kreditlə bağlı öhdəliklər (standart kredit, ixtisaslaşdırılmış kreditlər, lizinq kreditləri və s.), qruplararası kreditlər, fərdi kreditlər və KOB-ə verilmiş kreditlər). Bu yanaşma portfelin borcalanın xüsusi məlumatlarına əsaslanan eyni xüsusiyyətlərə malik seqmentlərə birləşməsini əhatə edir.

Qrup aşağıdakı kredit növləri üçün xarici reytinqlər üzrə qiymətləndirmələr aparır: banklararası kreditlər, banklar tərəfindən verilmiş borc qiymətli kağızları, hüquqi şəxslər və suveren, suveren kreditlər.

Fərdi əsasda qiymətləndirmə prinsipləri - fərdi əsasda EOKZ qiymətləndirmələri hər bir nəticənin ehtimalına qarşı müxtəlif mümkün nəticələrə görə kredit zərərləri üzrə təxminlərini ölçülməsi ilə həyata keçirilir. Qrup hər bir kredit üçün ən azı iki mümkün nəticəni müəyyən edir ki, bunlardan biri belə bir ssenarinin ehtimalına baxmayaraq kredit zərərinə səbəb olur. Fərdi qiymətləndirmə əsasən Problemli Kreditlərlə İş Departamentinin mütəxəssislərinin rəyi əsasında aparılır. Mütəxəssislərin hesabatları qalıqlar və faktiki zərərlər arasındakı fərqi azaltmaq üçün müntəzəm olaraq yoxlanılır.

Portfel əsasında qiymətləndirmə prinsipləri – riskə məruzqalma mərhələsini qiymətləndirmək və kollektiv əsasda zərər ehtiyatını ölçmək üçün Qrup öz risklərini Qrup daxilində riskə məruz qalmalar kimi ortaq kredit riski xüsusiyyətləri əsasında eyni xüsusiyyətlərə malik seqmentlərə birləşdirir.

Xüsusiyyətlərə daxildir: müştərinin növü (məsələn, gəlir gətirən əmlak və ya lizinq şirkətləri), məhsul növü (kredit kartları və ya pul kreditləri kimi), kredit riski reytinqi və ilkin tanınma tarixi.

Fərqli seqmentlər DE və DZYZ kimi kredit risk parametrlərindəki fərqləri əks etdirir. Qrupların uyğunluğu Risklərin İdarə edilməsi Departamenti tərəfindən dövri olaraq izlənilir və nəzərdən keçirilir.

Ümumiyyətlə, EOKZ aşağıdakı kredit riski parametrlərinin birləşməsidir: DVRMQ, DE və DNZ (parametrlərin tərifləri yuxarıda göstərilmişdir). EOKZ hesablanması üzrə ümumi yanaşma aşağıda göstərilmişdir. Bu yanaşma portfel əsasında qiymətləndirilmiş məhsullar üzrə və bankın həmin məhsul üzrə borcalanının xüsusi məlumatı əsasında kredit riski reytinqi qiymətləndirməsi olan məhsul üzrə tətbiq oluna bilər.

EOKZ növbəti 12 ay və ya ömürlük alətlər üzrə kredit riski paramterlərinin (DVRMQ, DE və DZYZ) proqnozlaşdırılması ilə müəyyən edilir. Bu üç komponent birlikdə artırılır və qalıq ehtimalı (yəni əvvəlki dövrdə ödənilmiş və ya defolt vəziyyətində riskə məruz qalmışdır) üzrə düzəliş edilir.

Kredit riski parametrlərinin hesablanmasının qısa olaraq əsasları aşağıdakılardır.

DVRMQ-lar ehtimal olunan ödəniş profilinə əsasən müəyyən edilir ki, bu da məhsul növünə görə dəyişir:

- məhsulların və annuitet əsasında ödənilən kreditlərin amortizasiyası üçün DVRMQ, borcalanın 12 aylıq və ya ömürlük əsasda borclu olduğu müqavilə ödəmələrinə əsaslanır.
- məhsulların dövriyyəsi üçün DVRMQ, defolt anına qalmış limitin gözlənən istifadəsini nəzərə alaraq, cari istifadə edilmiş qalığın alınması və kredit konvertasiya əmsalının əlavə edilməsi yolu ilə proqnozlaşdırılır.

EOKZ-lərin hesablanması üçün DE-nin iki növü istifadə edilir: 12 aylıq və ömürlük DE:

- 12 aylıq DE-lər – Defoltun növbəti 12 ay ərzində (və ya maliyyə alətinin qalan ömrü 12 aydan az olduqda) təxmin edilən baş verməsi ehtimalı. Bu amil 12 aylıq EOKZ-ləri hesablamaq üçün istifadə edilir. 12 aylıq DE-nin qiymətləndirilməsi ən son mövcud tarixi məlumatlara əsaslanır və lazım olduğu təqdirdə gələcək perspektiv məlumatlar üçün uyğunlaşdırılır.
- Ömürlük DE-lər – Defoltun maliyyə alətinin qalan ömrü üzrə təxmin edilən baş verməsi ehtimalı. Bu amil ömürlük EOKZ-ləri 2-ci Mərhələ riskləri üzrə hesablamaq üçün istifadə edilir. Ömürlük DE-nin qiymətləndirilməsi ən son mövcud tarixi məlumatlara əsaslanır və lazım olduğu təqdirdə gələcək perspektiv məlumatlar üçün uyğunlaşdırılır.

Ömürlük DE-ni hesablamaq üçün, Qrup 12 aylıq DE-lərin miqrasiya cədvəllərinə əsasən ekstrapolyasiya edilməsi və tarixi defolt məlumatına əsaslanan ömürlük DE-nin əyrilik əmsalı kimi seqment və məhsul növündən asılı olaraq müxtəlif statistik yanaşmalardan istifadə edir. Ömürlük DE hesablamaları üçün, Qrup tarixi defolt məlumatları və defolt məlumatların mövcud olmadığı uzun müddətlər üçün isə trendlərin ekstrapolyasiyasından istifadə edir.

DNYZ, defolt riski ilə bağlı olaraq Qrupun yarana bilən zərərlə bağlı gözləntisini əks etdirir. DNYZ, məhsul, mərhələ, girovun və ya digər bu kimi kreditin təminatının mövcudluğuna görə fərqli nəticələr göstərir.

12 aylıq və ömürlük DNYZ-lər, defolt hadisəsindən sonra ehtimal olunan əldə ediləcək vəsaitlərə təsir edən amillər əsasında müəyyən edilir.

DNYZ-nin ölçülməsinə yanaşma üç mümkün qrupa bölünə bilər:

- girovun özəl xüsusiyyətlərinə əsasən DNYZ-nin ölçülməsi;
- bərpa statistikasına əsaslanaraq portfel əsasında DNYZ-nin hesablanması;
- fərqli amil və ssenarilərdən asılı olaraq fərdi qaydada müəyyən edilmiş DNYZ.

Daşınmaz əmlakın girov qoyulduğu kreditlər üçün qrup DNYZ-ni girovun xüsusiyyətləri əsasında, məsələn, proqnozlaşdırılan girov dəyərləri, satış üzrə tarixi güzəştlər və digər amillər ilə hesablayır.

Korporativ, pərakəndə, banklararası kredit portfelinin və korporativ istiqrazların xüsusi seqmentləri üçün DNYZ son mövcud statistik məlumatlara əsasən kollektiv əsasda hesablanır.

Hüquqi şəxslərin istifadə edilməmiş kredit xətləri üçün kredit kartları, fərdi şəxslərə verilmiş kredit kartları və maliyyə zəmanətləri üzrə KKƏ, defolt vəziyyətində olan dəyərin statistik təhlili əsasında müəyyən edilir.

Kredit xətləri üzrə KKƏ hər hansı bir zamanda müştərilər tərəfindən istifadə edilə bilən qısamüddətli limitlərdən sonra 20%, uzunmüddətli limitlərdən sonra 50% kimi müəyyən edilir.

Xarici reytinqlərə əsaslanan qiymətləndirmə prinsipləri - xarici reytinqlərə əsaslanan EOKZ hesablama prinsipləri portfel əsasında qiymətləndirmə prinsipləri ilə eynidir. Müştərilər xarici kredit reytinqlərini təyin etdikləri üçün kredit riski parametrləri (DE) beynəlxalq reytinq agentlikləri tərəfindən dərc olunan defolt və bərpa statistikasından götürülə bilər.

EOKZ modellərinə daxil olan proqnoz xarakterli məlumatlar. Həm KRƏA, həm də EOKZ-ların hesablanmasında gələcəklə bağlı məlumatlar istifadə edilir. Qrup tarixi təhlillər aparmış və hər bir portfel üçün kredit riskini və EOKZ-lərə təsir edən əsas iqtisadi amilləri müəyyən etmişdir.

Bu iqtisadi amillər və onların DE ilə əlaqədar təsirləri maliyyə aləti üzrə fərqlənir. İstehlakçı qiymətləri indeksi üzrə dəyişikliklər, real ÜDM-in artımı, ABŞ dolları məzənnəsi üzrə dəyişikliklər, neft qiymətinin dəyişməsi kimi iqtisadi amillər, bu amillərdə baş verən dəyişikliklərin təsirini anlamaq üçün statistik reqresiya təhlili aparmaqla sınaqdan keçirilmişdir.

Bu amillərə əsaslanaraq Qrupun rəhbərliyi özünün məqbul hesab etdiyi iqtisadi dövrün növbəti mərhələsini müəyyənləşdirmək üçün yalnız statistik təhlillər nəticəsində deyil, eyni zamanda rəhbərliyin təcrübəsindən istifadə etməklə gələcək makroiqtisadi şəraitin proqnozunu verir.

KRƏA meyarlarının qiymətləndirilməsi pərakəndə borcalanlar üçün ömürlük DE istifadə edilməklə, digər maliyyə aktivləri üçün isə keyfiyyət və təminat göstəriciləri ilə bərabər 12 aylıq DE-dən də istifadə edilməklə həyata keçirilir. Bu proses bütün maliyyə alətlərinin 1-ci, 2-ci və ya 3-cü Mərhələdə olub-olmadığını və dolayısı ilə 12 aylıq və ya ömürlük EOKZ-in tanınmasına zərurətin olub-olmadığını müəyyənləşdirir. Bu qiymətləndirmədən sonra Qrup EOKZ-ni 12 aylıq EOKZ (1-ci Mərhələ) ehtimalına əsasən və ya ehtimal olunan ömürlük EOKZ (2-ci və 3-cü Mərhələ) kimi qiymətləndirir. Bu ehtimal əsasında formalaşan EOKZ-lər müvafiq EOKZ modelinin tətbiqi ilə müəyyən edilir.

Hər hansı bir iqtisadi proqnozda olduğu kimi, baş vermiş proqnozlar və ehtimallar yüksək dərəcədə qeyri-müəyyənliklə bağlıdır və buna görə də faktiki nəticələr proqnozlaşdırılan məlumatlardan əhəmiyyətli dərəcədə fərqlənə bilər. Qrup bu proqnozların ehtimal olunan nəticələrə dair mümkün ən yaxşı qiymətləndirməni təmsil etdiyini hesab edir və seçilmiş ssenarilərin mümkün ssenarilərin ən uyğun nümunəsinin olmasından əmin olmaq üçün Qrupun müxtəlif portfellərində qeyri-xəttilik və assimetriyaları təhlil etmişdir.

**Yoxlama.** Qrup, mütəmadi olaraq, qiymətləndirmələr və faktiki kredit zərərləri arasında mümkün fərqləri azaltmaq üçün öz metodologiyası və fərziyyələrini nəzərdən keçirir. Belə təhlil ən azı ildə bir dəfə həyata keçirilir. EOKZ ölçü metodologiyası üzrə yoxlamanın nəticələri Qrup rəhbərliyinə çatdırılır və model və fərziyyələrin tənzimlənməsi üçün növbəti addımlar səlahiyyətli şəxslər arasında müzakirələrdən sonra müəyyənləşdirilir.

***Kredit verilməsi ilə bağlı öhdəliklər üzrə zərər ehtiyatının dəyərləndirilməsi.*** Kredit verilməsi ilə bağlı öhdəliklər üzrə zərər ehtiyatının dəyərləndirilməsi qarşı tərəfin balansdankənar öhdəliyi varsa, kredit konversiya əmsalı (KKƏ) tətbiqi ilə qalıq mübadiləsi ilə oxşar şəkildə həyata keçirilir. KKƏ-nin hesablanması üçün statistik məlumatlar və Bazel Komitəsi vahidlərindən istifadə edilir. Qarşı tərəfin balansdankənar öhdəliyi olduğu təqdirdə ehtimal edilən kredit zərərləri ehtimalının qiymətləndirilməsi KKƏ-yə müraciət edərək məruz qalma məbləğinə əsasən fərdi və ya kollektiv əsaslarla həyata keçirilir.

Kredit riskinə maksimal məruzqalma riski maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatda, adətən, maliyyə aktivinin qalıq dəyərində və müqavilə üzrə öhdəlik götürülmüş, lakin hesabatlarda tanınmamış məbləğdə əks olunur. Potensial kredit risklərini azaltmaq məqsədi ilə aktiv və öhdəliklərin mümkün əvəzləşdirilməsinin təsiri əhəmiyyətli deyil.

31 dekabr 2021-ci il tarixinə maliyyə aktivlərindən kredit riskinə maksimum məruzqalma aşağıda göstərilmişdir:

| | 31 dekabr 2021-ci il | Silinmələr (nağd pul və qızıl girovu) | Silinmələrdən sonrakı xalis risk | Qoyulmuş girov | Xalis risk |
|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri (dövriyyədəki pul vəsaitləri xaric olmaqla) | 129,649 | - | 129,649 | - | 129,649 |
| Banklara verilmiş kreditlər və depozitlər | 45,596 | - | 45,596 | - | 45,596 |
| Müştərilərə verilmiş kreditlər | 414,385 | 13,747 | 400,638 | 330,269 | 70,369 |
| İnvestisiya qiymətli kağızları | 27,794 | - | 27,794 | - | 27,794 |
| Digər maliyyə aktivləri | 2,434 | - | 2,434 | - | 2,434 |
| **Cəmi maksimal risk** | **619,858** | **13,747** | **606,111** | **330,269** | **275,842** |

31 dekabr 2020-ci il tarixinə maliyyə aktivlərindən kredit riskinə maksimum məruz qalması aşağıda göstərilmişdir:

| | 31 dekabr 2020-ci il | Silinmələr (nağd pul və qızıl girovu) | Silinmələrdən sonrakı xalis risk | Qoyulmuş girov | Xalis risk |
|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri (dövriyyədəki pul vəsaitləri xaric olmaqla) | 84,394 | - | 84,394 | - | 84,394 |
| Banklara verilmiş kreditlər və depozitlər | 39,614 | - | 39,614 | - | 39,614 |
| Müştərilərə verilmiş kreditlər | 326,656 | 12,820 | 313,836 | 262,662 | 51,174 |
| İnvestisiya qiymətli kağızları | 11,382 | - | 11,382 | - | 11,382 |
| Digər maliyyə aktivləri | 1,235 | - | 1,235 | - | 1,235 |
| **Cəmi maksimal risk** | **463,281** | **12,820** | **450,461** | **262,662** | **187,799** |

Balansdankənar risk

Bank balansdankənar risklər üçün də balans riskləri ilə bağlı tətbiq etdiyi risklərin idarə edilməsi prosedurlarını fundamental surətdə tətbiq edir. Borc verilməsi üçün öhdəlik yarandıqda, Bank müştəri və tərəfdaşlara kreditlər və qabaqcadan ödənişlər üçün tətbiq edilən kredit risklərinin idarə edilməsi prosedurlarını tətbiq edir. Əməliyyatın xarakteri və müştərinin maliyyə vəziyyətindən asılı olaraq girov tələb edilə bilər.

**Coğrafi konsentrasiya**

Aktiv və Öhdəliklərin İdarə Edilməsi Komitəsi ("AÖİK") qanunvericilik və qanuni tənzimləmə arenasında müşahidə olunan risklərə nəzarət edir və onların Qrupun fəaliyyətinə təsirini qiymətləndirir. Belə yanaşma Qrupa Azərbaycan Respublikasının investisiya mühitindəki dəyişikliklər nəticəsində yaranan mümkün zərərləri minimuma endirmək imkanı verir.

Aktiv və öhdəliklərin coğrafi konsentrasiyası aşağıda göstərilmişdir:

| | **Azərbaycan Respublikası** | **İƏİT ölkələri** | **Digər qeyri-İƏİT ölkələri** | **31 dekabr 2021-ci il Cəmi** |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 115,718 | 54,008 | 3,772 | 173,498 |
| Banklara verilmiş kreditlər və depozitlər | 33,698 | 11,898 | - | 45,596 |
| Müştərilərə verilmiş kreditlər | 414,385 | - | - | 414,385 |
| İnvestisiya qiymətli kağızları | 27,794 | - | - | 27,794 |
| Digər maliyyə aktivləri | 2,101 | 176 | 157 | 2,434 |
| **Cəmi maliyyə aktivləri** | **593,696** | **66,082** | **3,929** | **663,707** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Banklardan və digər maliyyə təşkilatlarından alınacaq depozitlər və qalıqlar | 61,934 | - | 465 | 62,399 |
| Cari hesablar və müştərilərdən alınmış depozitlər | 417,970 | 164 | 1,250 | 419,384 |
| Digər borc alınmış vəsaitlər | 107,096 | 13,607 | 8,524 | 129,227 |
| Subordinasiya borcları | 12,865 | - | - | 12,865 |
| İcarə öhdəlikləri | 1,453 | - | - | 1,453 |
| Digər maliyyə öhdəlikləri | 2,557 | - | - | 2,557 |
| **Cəmi maliyyə öhdəlikləri** | **603,875** | **13,771** | **10,239** | **627,885** |
| **MALİYYƏ ALƏTLƏRİ ÜZRƏ XALİS MÖVQE** | **(10,179)** | **52,311** | **(6,310)** | |

| | Azərbaycan Respublikası | İƏİT ölkələri | Digər qeyri-İƏİT ölkələri | 31 dekabr 2020-ci il Cəmi |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 90,538 | 26,703 | 805 | 118,046 |
| Banklara verilmiş kreditlər və depozitlər | 27,714 | 11,900 | - | 39,614 |
| Müştərilərə verilmiş kreditlər | 326,656 | - | - | 326,656 |
| İnvestisiya qiymətli kağızları | 11,382 | - | - | 11,382 |
| Digər maliyyə aktivləri | 1,235 | - | - | 1,235 |
| **Cəmi maliyyə aktivləri** | **457,525** | **38,603** | **805** | **496,933** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Banklardan və digər maliyyə təşkilatlarından alınacaq depozitlər və qalıqlar | 68,698 | - | 144 | 68,842 |
| Cari hesablar və müştərilərdən alınmış depozitlər | 279,834 | 73 | 790 | 280,697 |
| Digər borc alınmış vəsaitlər | 95,520 | 10,640 | - | 106,160 |
| Subordinasiya borcları | 11,798 | - | - | 11,798 |
| İcarə öhdəlikləri | 885 | - | - | 885 |
| Digər maliyyə öhdəlikləri | 1,476 | - | - | 1,476 |
| **Cəmi maliyyə öhdəlikləri** | **458,211** | **10,713** | **934** | **469,858** |
| **MALİYYƏ ALƏTLƏRİ ÜZRƏ XALİS MÖVQE** | **(686)** | **27,890** | **(129)** | |

## Girov

Girovun məbləği və tipi borc götürənlə bağlı olan kredit riskinin qiymətləndirilməsindən asılıdır. Girovun tiplərindən və qiymətləndirmə parametrlərinin məqbulluğundan asılı olaraq təlimatlar həyata keçirilir. Əldə olunmuş girovların əsas tipləri aşağıdakılardır:

- Biznes kreditləri üçün - daşınmaz əmlak, daşınar aktivlər, depozitlər və zəmanətlər; və
- Pərakəndə kreditlər üçün - əmlak və daşınar aktivlərin ipotekası.

Rəhbərlik girovun bazar dəyərini monitorinq edir, razılaşmaya uyğun olaraq yeni girov tələb edir və dəyərsizləşmə ilə bağlı ehtiyatların adekvatlığını nəzərdən keçirərkən girovun bazar dəyərini monitorinq edir.

## Şərtləri yenidən razılaşdırılmış kreditlər və avanslar

Kreditlərin və avansların şərtləri müştərilərlə davamlı münasibətlərin bir hissəsi yaxud da borcalanın vəziyyətində baş vermiş mənfi dəyişikliklərə cavab olaraq, adətən, yenidən razılaşdırılır. İkinci halda şərtlərin yenidən razılaşdırılması borc ödəniş müddətlərinin yaxud da həqiqətən maliyyə çətinlikləri ilə üzləşən borcalanlara Qrup tərəfindən təklif olunan güzəştli faiz dərəcələrini nəzərdə tutan geri ödəniş planlarının uzadılması ilə nəticələnir. Əks halda yenidən razılaşma yeni müqavilə ilə nəticələnə bilər, bu isə yeni kredit kimi nəzərə alınır.

## Maliyyə aktivlərinin sinfi üzrə kredit keyfiyyəti

Aşağıdakı cədvəldə Qrup tərəfindən saxlanılan maliyyə aktivləri üzrə kredit reytinqləri barədə məlumat təqdim olunur:

| | A | A- | BBB | <BBB | Reytinqsiz | Cəmi |
|---|---|---|---|---|---|---|
| **31 dekabr 2021-ci il** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri (dövriyyədəki pul vəsaitləri xaric olmaqla) | - | 43,445 | 2,865 | 83,283 | 56 | 129,649 |
| Banklara verilmiş kreditlər və depozitlər | 11,898 | - | - | 18,541 | 15,157 | 45,596 |
| Müştərilərə verilmiş kreditlər | - | - | | - | 414,385 | 414,385 |
| İnvestisiya qiymətli kağızları | - | - | - | 27,271 | 523 | 27,794 |
| Digər maliyyə aktivləri | - | - | - | - | 2,434 | 2,434 |
| **31 dekabr 2020-ci il** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri (dövriyyədəki pul vəsaitləri xaric olmaqla) | 17,044 | | 10,291 | 56,944 | 115 | 84,394 |
| Banklara verilmiş kreditlər və depozitlər | 11,901 | - | - | 15,422 | 12,291 | 39,614 |
| Müştərilərə verilmiş kreditlər | - | - | - | - | 326,656 | 326,656 |
| İnvestisiya qiymətli kağızları | - | - | - | 10,762 | 620 | 11,382 |
| Digər maliyyə aktivləri | - | - | - | - | 1,235 | 1,235 |

Müştərilərə verilmiş kreditlərdən başqa digər maliyyə aktivləri onlara Fitch, Standard & Poor's və Moody's kimi beynəlxalq səviyyədə tanınmış agentliklər tərəfindən verilən kredit reytinqinə görə dərəcələrə bölünür. AAA mümkün olan ən yüksək reytinq dərəcəsi hesab edilir. İnvestisiya dərəcəli maliyyə aktivlərinin reytinqi AAA-dan BBB-yə kimi dəyişir.

31 dekabr 2021 və 2020-ci il tarixlərinə Azərbaycan Respublikasının Mərkəzi Bankında yerləşdirilmiş vəsaitlərin qalıqları, müvafiq olaraq, 74,100 min AZN və 56,538 min AZN təşkil etmişdir. Beynəlxalq reytinq agentliklərinə əsasən Azərbaycan Respublikasının kredit reytinqi 2021-ci ildə BB+ (31 dekabr 2020-ci il: BB+) dərəcəsinə uyğun gəlmişdir.

**Likvidlik riski**

Likvidlik riski Qrupun pul vəsaitləri və ya digər maliyyə aktivlərini təqdim etməklə maliyyə öhdəliklərinin yerinə yetirməsi zamanı çətinliklərlə üzləşəcəyi riskdir. Likvidlik riski aktivlər üzrə əməliyyatların yerinə yetirilmə müddətinin öhdəliklər üzrə əməliyyatların ödəmə müddətləri ilə uzlaşmadığı hallarda ortaya çıxır. Aktiv və öhdəliklərin ödəmə müddətlərinin və faiz dərəcələrinin uyğunluğu və/və ya nəzarət edilən uyğunsuzluğu likvidliyin idarə olunması üçün əsas amillərdir. Maliyyə təşkilatları üçün həyata keçirilən biznes sövdələşmələrinin müxtəlif tipli və qeyri-müəyyən müddətli olduğunu nəzərə alaraq uyğunluğun tam şəkildə saxlanması adi xarakter daşımır. Uyğunlaşdırılmayan mövqe potensial olaraq gəlirlilik dərəcəsini artırmaqla yanaşı zərər risklərini də artıra bilər.

Qrup bütün pul vəsaitlərinin hərəkəti ilə bağlı yaranan öhdəliklərin vaxtı çatanda yerinə yetirilməsi üçün hazır vəsaitlərin olması məqsədilə likvidliyin idarə edilməsini həyata keçirir. Likvidlik siyasəti təhlil edilir və İdarə Heyəti tərəfindən təsdiqlənir.

Qrup gözlənilməyən likvidlik tələblərinin cəld və rahat şəkildə aradan qaldırılması üçün qiymətli kağızların buraxılmasından, digər banklardan uzunmüddətli və qısamüddətli kreditlərin alınmasından, müxtəlif yüksək likvidli aktivlər portfeli ilə yanaşı əsas hüquqi və fiziki şəxslər üçün müştəri depozitlərindən ibarət olan müxtəlif və sabit maliyyələşmə mənbələrinə fəal şəkildə dəstək olmağa çalışır.

Likvidlik idarə edilməsi qaydaları aşağıdakıları tələb edir:

- Pul vəsaitlərinin hərəkətinin proqnozlaşdırılması və bununla bağlı zəruri likvid aktivlərin səviyyəsinin saxlanması;
- Müxtəlif maliyyələşdirmə mənbələrinin saxlanması;
- Konsentrasiya və borc profillərinin tənzimlənməsi;
- Borc maliyyələşdirilmə planlarının saxlanması;
- Pul vəsaitlərinin hərəkətində hər hansı fasilələr yaranarsa, mühafizə tədbirləri kimi asanlıqla realizə oluna bilən yüksək likvidli aktivlər portfelinin saxlanması;
- Likvidlik və maliyyələşdirmə ilə bağlı fövqəladə planların saxlanması;
- Likvidlik əmsallarının qanunvericilikdəki tələblər əsasında monitorinqi.

Xəzinədarlıq Departamenti şöbələrdən öz maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin likvidlik profilləri və proqnozlaşdırılan gələcək fəaliyyətlər üzrə daxilolması ehtimal edilən digər pul vəsaitləri ilə bağlı məlumatlar alır. Daha sonra Xəzinədarlıq Departamenti Qrup üzrə likvidliyin lazımi səviyyədə saxlanmasını təmin etmək məqsədilə qısamüddətli likvid ticarət qiymətli kağızlarından, banklara verilmiş kreditlərdən və digər banklararası kreditlərdən ibarət olan saxlanılmalı müvafiq qısamüddətli likvid aktivlər portfelini təqdim edir.

Xəzinədarlıq Departamenti gündəlik likvidlik mövqeyinə nəzarət edir, normal və daha çətin bazar şəraitlərində, mütəmadi olaraq, müxtəlif ssenarilər üzrə likvidlik stress testlərini həyata keçirir. Normal bazar şəraitində likvidlik mövqelərini ilə bağlı likvidlik hesabatları hər həftə baş rəhbərliyə təqdim olunur. Likvidliyin idarə edilməsi ilə bağlı qərarlar AÖİK tərəfindən verilir və Xəzinədarlıq Departamenti tərəfindən icra olunur.

Aşağıdakı cədvəllərdə Qrupun geri ödəniş müddətləri razılaşdırılmış maliyyə öhdəliklərinin müqavilə üzrə qalan ödəniş müddətlərinin təfərrüatları göstərilir. Cədvəllər Qrupdan ödəniş etməsinin tələb oluna biləcəyi ən erkən tarix əsasında maliyyə öhdəliklərinin diskontlaşdırılmamış pul hərəkəti üzrə tərtib edilmişdir. Cədvəllərdə həm faiz, həm da əsas pul hərəkəti məbləğləri göstərilir. Faiz daxilolmaları dəyişən faiz dərəcələr olduqda, diskontlaşdırılmamış məbləğlər hesabat dövrünün sonunda faiz dərəcəsi sxemi əsasında müəyyən olunur. Müqavilə üzrə ödəniş müddəti Qrupdan ödənişin tələb oluna biləcəyi ən erkən tarixə əsasən müəyyən olunur.

| | **Tələb əsasında və 1 aydan az** | **1 aydan 3 ayadək** | **3 aydan 6 ayadək** | **6 aydan 12 ayadək** | **1 ildən artıq** | **31 dekabr 2021-ci il Cəmi** |
|---|---|---|---|---|---|---|
| **Qeyri-törəmə öhdəliklər** | | | | | | |
| Banklardan və digər maliyyə təşkilatlarından alınacaq depozitlər və qalıqlar | 53,282 | 2,023 | 32 | 7,185 | - | 62,522 |
| Cari hesablar və müştərilərdən alınmış depozitlər | 205,243 | 28,085 | 34,789 | 111,858 | 61,316 | 441,291 |
| Digər borc alınmış vəsaitlər | 4,643 | 1,645 | 19,107 | 16,595 | 125,428 | 167,418 |
| Subordinasiya borcları | 185 | 196 | 294 | 4,720 | 11,985 | 17,380 |
| İcarə öhdəliyi | 47 | 92 | 139 | 277 | 1,219 | 1,774 |
| Digər maliyyə öhdəlikləri | 2,557 | - | - | - | - | 2,557 |
| **Cəmi maliyyə öhdəlikləri** | **265,957** | **32,041** | **54,361** | **140,635** | **199,948** | **692,942** |
| **Kreditlə bağlı öhdəliklər və zəmanətlər** | **23,382** | **-** | **-** | **-** | **-** | **23,382** |

| | Tələb əsasında və 1 aydan az | 1 aydan 3 ayadək | 3 aydan 6 ayadək | 6 aydan 12 ayadək | 1 ildən artıq | 31 dekabr 2020-ci il Cəmi |
|---|---|---|---|---|---|---|
| **Qeyri-törəmə öhdəliklər** | | | | | | |
| Banklardan və digər maliyyə təşkilatlarından alınacaq depozitlər və qalıqlar | 49,499 | 81 | 122 | 17,619 | 2,015 | 69,336 |
| Cari hesablar və müştərilərdən alınmış depozitlər | 109,339 | 34,551 | 25,131 | 84,915 | 40,648 | 294,584 |
| Digər borc alınmış vəsaitlər | 12,723 | 1,797 | 15,721 | 18,067 | 83,506 | 131,814 |
| Subordinasiya borcları | 113 | 181 | 272 | 543 | 13,592 | 14,701 |
| İcarə öhdəliyi | 37 | 70 | 109 | 205 | 632 | 1,053 |
| Digər maliyyə öhdəlikləri | 1,476 | - | - | - | - | 1,476 |
| **Cəmi maliyyə öhdəlikləri** | **173,187** | **36,680** | **41,355** | **121,349** | **140,393** | **512,964** |
| **Kreditlə bağlı öhdəliklər və zəmanətlər** | **11,562** | **-** | **-** | **-** | **-** | **11,562** |

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən fiziki və hüquqi şəxslər öz müddətli depozitlərini əksər hallarda hesablanmış faizləri itirməklə istənilən vaxt götürə bilərlər. Bu depozitlər müəyyən olunmuş ödəniş tarixləri əsasında təsnifləşdirilir.

Rəhbərlik bəzi maliyyə aktivləri və öhdəlikləri üzrə pul daxilolmalarının onun belə pul vəsaitlərini müstəqil şəkildə idarə etmək səlahiyyətləri olduğundan və ya keçmiş təcrübə pul daxilolmalarının müqavilədəki şərtlərdən fərqli olduğunu göstərdiyindən müqavilə şərtlərindən fərqli olacağını ehtimal edir.

Aşağıdakı cədvəldə 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatda tanınmış məbləğlərin ehtimal olunan ödəniş müddətləri üzrə təhlili verilmişdir:

| | Tələb əsasında və 1 aydan az | 1 aydan- 3 ayadək | 3 aydan - 12 ayadək | 1 ildən 5 ilədək | 5 ildən artıq | Faiz gətirmə-yən | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 173,498 | - | - | - | - | - | 173,498 |
| Banklara verilmiş kreditlər və depozitlər | 4,436 | - | 7,185 | 31,208 | - | 2,767 | 45,596 |
| Müştərilərə verilmiş kreditlər | 63,506 | 41,137 | 118,128 | 131,904 | 59,710 | - | 414,385 |
| İnvestisiya qiymətli kağızları | 293 | - | 2,303 | 16,008 | 8,667 | 523 | 27,794 |
| Digər maliyyə aktivləri | 2,434 | - | - | - | - | - | 2,434 |
| **Cəmi aktivlər** | **244,167** | **41,137** | **127,616** | **179,120** | **68,377** | **3,290** | **663,707** |
| **ÖHDƏLİKLƏR** | | | | | | | |
| Banklardan və digər maliyyə təşkilatlarından alınacaq depozitlər və qalıqlar | 53,259 | 2,000 | 7,140 | - | - | - | 62,399 |
| Cari hesablar və müştərilərdən alınmış depozitlər | 201,312 | 21,854 | 126,302 | 48,531 | 290 | 21,095 | 419,384 |
| Digər borc alınmış vəsaitlər | 4,278 | 915 | 32,841 | 40,328 | 50,865 | - | 129,227 |
| Subordinasiya borcları | 87 | - | 4,280 | 2,566 | 5,932 | - | 12,865 |
| İcarə öhdəliyi | 34 | 69 | 326 | 982 | 42 | - | 1,453 |
| Digər maliyyə öhdəlikləri | 2,557 | - | - | - | - | | 2,557 |
| **Cəmi öhdəliklər** | **261,527** | **24,838** | **170,889** | **92,407** | **57,129** | **21,095** | **627,885** |
| **Xalis mövqe** | **(17,360)** | **16,299** | **(43,273)** | **86,713** | **11,248** | **(17,805)** | **35,822** |
| **5 ilədək məcmu xalis mövqe** | **(17,360)** | **(1,061)** | **(44,334)** | **42,379** | **53,627** | **35,822** | |

Aşağıdakı cədvəldə 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatda tanınmış məbləğlərin ehtimal olunan ödəniş müddətləri üzrə təhlili verilmişdir:

| | Tələb əsasında və 1 aydan az | 1 aydan-3 ayadək | 3 aydan - 12 ayadək | 1 ildən 5 ilədək | 5 ildən artıq | Faiz gətirmə-yən | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 118,046 | - | - | - | - | - | 118,046 |
| Banklara verilmiş kreditlər və depozitlər | 13,404 | 6,791 | - | 17,304 | - | 2,115 | 39,614 |
| Müştərilərə verilmiş kreditlər | 64,073 | 36,656 | 89,768 | 89,061 | 47,098 | - | 326,656 |
| İnvestisiya qiymətli kağızları | 323 | 200 | 9,939 | 300 | - | 620 | 11,382 |
| Digər maliyyə aktivləri | 1,235 | - | - | - | - | - | 1,235 |
| **Cəmi maliyyə aktivləri** | **197,081** | **43,647** | **99,707** | **106,665** | **47,098** | **2,735** | **496,933** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | | |
| Banklardan və digər maliyyə təşkilatlarından alınacaq depozitlər və qalıqlar | 49,458 | - | 17,384 | 2,000 | - | - | 68,842 |
| Cari hesablar və müştərilərdən alınmış depozitlər | 101,613 | 31,722 | 91,920 | 31,500 | 246 | 23,696 | 280,697 |
| Digər borc alınmış vəsaitlər | 12,325 | 1,144 | 32,187 | 19,601 | 40,903 | - | 106,160 |
| Subordinasiya borcları | 22 | - | - | 9,040 | 2,736 | - | 11,798 |
| İcarə öhdəliyi | 29 | 57 | 263 | 475 | 61 | - | 885 |
| Digər maliyyə öhdəlikləri | 1,476 | - | - | - | - | - | 1,476 |
| **Cəmi maliyyə öhdəlikləri** | **164,923** | **32,923** | **141,754** | **62,616** | **43,946** | **23,696** | **469,858** |
| **Xalis mövqe** | **32,158** | **10,724** | **(42,047)** | **44,049** | **3,152** | **(20,961)** | **27,075** |
| **5 ilədək məcmu xalis mövqe** | **32,158** | **42,882** | **835** | **44,884** | **48,036** | **27,075** | |

Likvidlik riskinin idarə olunması üçün Qrup tərəfindən istifadə olunan əsas meyar ARMB tərəfindən təyin olunan likvidlik əmsalıdır.

Qrup ARMB-nin tələblərinə əsasən icbari likvidlik əmsalını gündəlik olaraq hesablayır. Bu əmsal daimi likvidlik əmsalı ilə ifadə olunur və yüksək likvidlik dərəcəsinə malik aktivlərin tələb edilənədək ödənilməli olan öhdəliklərə nisbəti kimi hesablanır. Tələb əsasında ödəmə müddəti olaraq təsnif edilmiş digər borc alınmış vəsaitləri üçün 15 saylı Qeydə nəzər salın.

## 27. KAPİTALIN İDARƏ EDİLMƏSİ

ARMB Bank üçün kapital tələblərini müəyyən edir və onların yerinə yetirilməsinə nəzarət edir.

1 yanvar 2015-ci il tarixində ARMB tərəfindən müəyyən edilmiş cari kapital tələblərinə müvafiq olaraq mövcud banklar 50,000 min AZN məbləğində məcmu kapitalın minimum həddini saxlamalıdır, bununla belə yeni yaradılmış banklar və xarici bankların yerli filialları üçün ödənilmiş kapital 50,000,000 AZN məbləğində olacaq. Bundan başqa, banklar minimal kapital və risk dərəcəsi üzrə ölçülmüş aktivlər (“nizamnamə kapitalının nisbəti”) arasındakı nisbəti minimal olaraq göstərilmiş 9%-də və ya ondan yüksək dərəcədə (31 dekabr 2020-ci il: 9%) və 1-ci dərəcəli kapital və risk dərəcəsi üzrə ölçülmüş aktivlər arasındakı nisbəti (“1-ci dərəcəli kapital nisbəti”) minimal olaraq göstərilmiş 5%-də və ya ondan yüksək dərəcədə (31 dekabr 2020-ci il: 5%) saxlamalıdır.

Bank, kapital adekvatlığının səviyyəsini apardığı əməliyyatların səviyyəsinə və mahiyyətinə uyğun şəkildə tənzimləyir. Akdekvatlıqla bağlı əmsallara dair məlumatlar, mütəmadi olaraq, ARMB-nə müəyyən edilmiş formaya uyğun təqdim edilir. Risk şöbəsi, gündəlik olaraq, kapitalın adekvatlıq əmsallarının uyğunluğunu yoxlayır. Kapital adekvatlığı əmsallarının göstəriciləri ARMB-nin və Bankın daxili siyasətinin müəyyən etdiyi hədlərə yaxın olduqda Müşahidə Şurasına məlumat verilir. 31 dekabr 2021-ci il tarixinə Bankın məcmu kapitalı 91,916 min AZN (31 dekabr 2020-ci il: 82,215 min AZN) məbləğində olmuşdur (nizamnamə kapitalı nisbəti – 18.9% və 1-ci dərəcəli kapital nisbəti – 16.2%). ARMB tərəfindən müəyyən edilmiş kapital əmsallarının hesablanmasında istifadə olunan maliyyə məlumatları MHBS rəqəmlərindən fərqli ola bilər.

Aşağıdakı cədvəldə 31 dekabr tarixinə Bazel Sazişinin tələblərinə uyğun olaraq hesablanmış kapital mövqeyinin tərkibi göstərilmişdir:

| | **31 dekabr 2021-ci il** | **31 dekabr 2020-ci il** |
|---|---|---|
| **1-ci dərəcəli kapital** | | |
| Səhmdar kapitalı | 80,005 | 75,005 |
| Səhm üzrə mükafat | 724 | 724 |
| Yığılmış zərər | (29,522) | (31,919) |
| Çıxılsın: qeyri-maddi aktivlər | (419) | (355) |
| **Cəmi 1-ci dərəcəli kapital** | **50,788** | **43,455** |
| | | |
| **2-ci dərəcəli kapital** | | |
| Cari il üzrə mənfəət | 4,877 | 2,397 |
| Ehtiyatlar (risk üzrə ölçülmüş aktivlərin 1.25%-i) | 6,047 | 4,327 |
| Aktivin yenidən qiymətləndirməsi üzrə ehtiyat | 1,644 | 1,644 |
| Subordinasiya borcları (amortizasiya olunmamış hissə) | 7,679 | 4,646 |
| **Cəmi 2-ci dərəcəli kapital** | **20,247** | **13,014** |
| Çıxılsın: İnvestisiyalar | (523) | (620) |
| **Cəmi kapital** | **70,512** | **55,849** |
| | | |
| **Risk dərəcəsi üzrə ölçülmüş aktivlər** | | |
| Balans hesabatı | 483,794 | 346,158 |
| Balansdankənar hesabat | 1,564 | 129 |
| **Cəmi risk üzrə ölçülmüş aktivlər** | **485,358** | **346,287** |
| | | |
| **Risk dərəcəsi üzrə ölçülmüş aktivlərin faizi kimi ifadə olunan cəmi kapital (cəmi kapital əmsalı), (minimum 10%)** | **15%** | **16%** |
| | | |
| **Risk dərəcəsi üzrə ölçülmüş aktivlərin faizi kimi ifadə olunan cəmi 1-ci dərəcəli kapital (1-ci dərəcəli kapital əmsalı), (minimum 5%)** | **10%** | **13%** |

Risk dərəcəsi üzrə ölçülmüş aktivlər təsnifləşdirilmiş risk ölçülərinin iyerarxiyası vasitəsilə qiymətləndirilir və müvafiq girov və təminatları nəzərə almaqla aktivlər və qarşı tərəflərlə bağlı kredit, bazar və digər risk təxminlərini əks etdirir. Bənzər şərhlər potensial zərərlərin daha şərti xarakterini əks etdirmək üçün bəzi düzəlişlər ilə, tanınmayan müqavilə öhdəlikləri üzrə qəbul edilir.

Qrup Bazel Sazişinə uyğun olaraq yaratdığı öhdəliklərlə əlaqədar maliyyə şərtlərində müəyyən olunan minimum kapitalın adekvatlıq tələblərinə məruz qalır. 31 dekabr 2021 və 2020-ci il tarixlərinə Qrup bütün kənar kapital tələblərini yerinə yetirmişdir.

## 28. KREDİTLƏ BAĞLI ÖHDƏLİKLƏR

Qrupun kreditlərin verilməsi ilə bağlı ödənilməmiş kredit öhdəlikləri mövcuddur. Bu kredit öhdəlikləri təsdiqlənmiş kreditlər, kredit kartları üzrə limitlər və overdraftlar formasındadır.

Qrup müştərilərin üçüncü tərəflər qarşısında öhdəliklərinin yerinə yetiriləcəyinə təminat vermək məqsədi ilə maliyyə zəmanətləri və akkreditivlər verir. Bu müqavilələrin sabit müddətləri vardır və ümumiyyətlə 5 ilədək uzadıla bilər. Həmçinin Qrup qiymətli kağızların borc alınması və kreditlərin verilməsi əməliyyatları üzrə hesablaşma agenti kimi çıxış edərək zəmanətlər verir.

Qrup kredit vermək öhdəliklərini üzərinə götürdükdə, maliyyə zəmanətlərini və akkreditivləri verdikdə müştərilərə kredit verdiyi zaman tətbiq etdiyi kredit risklərinin idarə edilməsi siyasət və prosedurlarını tətbiq edir.

Aşağıdakı cədvəldə öhdəliklərin müqavilə üzrə məbləğləri kateqoriyalar üzrə təqdim olunur. Cədvəldə kreditlə əlaqədar öhdəliklər üzrə göstərilmiş məbləğlər onlar üzrə tam həcmdə avansların verildiyini fərz edir. Cədvəldə zəmanətlər üzrə göstərilmiş məbləğlər tərəf müqabilləri bağladıqları müqavilələrdə nəzərdə tutulmuş öhdəliklərini tam həcmdə yerinə yetirmədikləri halda hesabat tarixinə tanınacaq maksimal uçot zərərləri əks olunur.

| | **31 dekabr 2021-ci il** | **31 dekabr 2020-ci il** |
|---|---|---|
| **Müqavilə dəyəri** | | |
| Kredit və kredit xətti üzrə öhdəliklər | 15,884 | 9,121 |
| Zəmanətlər və akkreditivlər | 7,686 | 2,552 |
| Çıxılsın: Əlaqəli öhdəliklər üzrə EOKZ ehtiyatı | (188) | (111) |
| **Cəmi risk** | **23,382** | **11,562** |

Müqavilə üzrə öhdəliklərlə bağlı kreditlərin ümumi qalığı gələcək pul tələblərini əks etdirməyə bilər, belə ki, kreditlərlə bağlı bu öhdəliklərin müddəti başa çata və ya onlar maliyyələşdirilmədən ləğv oluna bilər. Kredit və kredit xətti ilə bağlı öhdəliklərin əksəriyyəti Qrupun şərtsiz kredit öhdəliklərini əks etdirmir.

Kreditlə bağlı öhdəliklər aşağıda valyutalarla göstərilmişdir:

| | **31 dekabr 2021-ci il** | **31 dekabr 2020-ci il** |
|---|---|---|
| **Müqavilə dəyəri** | | |
| Azərbaycan manatı | 15,254 | 7,128 |
| ABŞ dolları | 7,687 | 3,692 |
| Avro | 441 | 742 |
| **Cəmi risk** | **23,382** | **11,562** |

## 29. ŞƏRTİ ÖHDƏLİKLƏR VƏ TƏHƏDDÜDLƏR

### Maliyyə şərtlərinə riayət olunması

Qrup müxtəlif maliyyə və bənzər müqavilələr çərçivəsində bir sıra maliyyə və biznes şərtlərinə əməl etməyi öz öhdəsinə götürmüşdür.

31 dekabr 2021-ci il tarixinə Qrup 26 saylı Qeyddə açıqlanan likvidlik təhlili bölməsində tələb üzrə kateqoriyasında ümumi qalıq dəyəri 3,454 min AZN məbləğində olan bir neçə maliyyə müqaviləsinin şərtlərini yerinə yetirməmişdir.

**Sığorta**

Azərbaycan Respublikasında sığorta sahəsi inkişaf mərhələsindədir və dünyanın digər ölkələrində qəbul edilmiş sığortalamanın bir çox formaları Azərbaycanda hələ mövcud deyil. Qrupun əmlak və avadanlıqları, biznes fəaliyyətinin dayanması və ya Qrupa məxsus olan ərazilərdə və ya onun əməliyyatları ilə əlaqəli baş vermiş hadisələr nəticəsində əmlak və ya ətraf mühitə zərərin vurulması ilə əlaqədar olaraq yaranan üçüncü tərəf məsuliyyətinə dair tam sığorta təminatı yoxdur. Qrup tam sığorta təminatı alanadək, müəyyən aktivlərin itirilməsi və ya məhv olunması riski mövcuddur və bu riskin əməliyyatlara və maliyyə vəziyyətinə əhəmiyyətli dərəcədə mənfi təsiri ola bilər.

**Məhkəmə işləri**

Qrup öz fəaliyyəti ilə əlaqədar olaraq məhkəmə iddiaları və şikayətlərlə üzləşir. Rəhbərlik bu kimi iddia və şikayətlər nəticəsində yaranan maddi məsuliyyətin maliyyə vəziyyətinə və ya gələcək əməliyyatların nəticələrinə ciddi mənfi təsir göstərməyəcəyini hesab edir.

**Vergi öhdəlikləri**

Azərbaycan Respublikasının vergiqoyma sistemi inkişaf etməkdə olduğuna görə bir çox hallarda aydın olmayan, ziddiyyətli və müxtəlif vergi orqanları tərəfindən fərqli qaydada təfsir edilən qanunvericilikdə tez-tez dəyişikliklərlə, rəsmi göstərişlərlə və məhkəmə qərarları ilə səciyyələnir. Vergilər sərt cərimələr və faizlər tətbiq edən orqanlar tərəfindən yoxlanılır və araşdırılır. Bir vergi ili ümumən üç növbəti təqvim ili müddətində vergi orqanları tərəfindən nəzarət üçün açıq qalır. Lakin müəyyən hallarda bir vergi ili daha uzun müddətə açıq qala bilər.

Bu hallar Azərbaycan Respublikasında digər ölkələrlə müqayisədə daha ciddi vergi risklərinin yaranmasına səbəb ola bilər. Rəhbərlik qüvvədə olan Azərbaycan vergi qanunvericiliyinin, rəsmi göstərişlərin və məhkəmə qərarlarının təsnifləri əsasında vergi öhdəlikləri ilə əlaqədar adekvat tədbirləri gördüyünü hesab edir. Buna baxmayaraq, müvafiq səlahiyyətli orqanların şərhləri fərqli ola bilər və vergi orqanları öz şərhlərinin tətbiq edilməsinə nail olduqları halda, bunun maliyyə hesabatlarına təsiri əhəmiyyətli ola bilər.

**Əməliyyat mühiti**

Qrup fəaliyyətini Azərbaycan Respublikasında həyata keçirir.

2020-ci ildə koronavirus pandemiyasının yayılması qlobal iqtisadiyyata mənfi təsir göstərmişdir. Bir çox ölkələrdə səyahətlərə və fərdi şəxslərin hərəkətlərinə məhdudiyyətlər qoyulmuş, ikinci dərəcəli iş yerlərinin bağlanması üzrə əhəmiyyətli məhdudiyyətlər tətbiq edilmiş və ya pandemiya nəticəsində bir sıra iş yerləri bağlanmışdır. Bu, Azərbaycan Respublikası ilə ticarət əlaqələri olan, iqtisadi cəhətdən güclü ölkələrin çoxunda ÜDM-də əhəmiyyətli dərəcədə azalmaya səbəb olmuşdur. 2020-ci ilin iyun ayından başlayaraq, Azərbaycan Respublikası da daxil olmaqla, bir çox ölkələrdə pandemiya əlamətlərində yaxşılaşma müşahidə olunmuş və sonradan müəyyən məhdudiyyətlər ləğv edilmişdir.

Nəticədə, qlobal maliyyə və əmtəə bazarlarında bərpa müşahidə olunmuşdur. Lakin sonradan Azərbaycan Respublikasında qeydə alınmış yoluxma sayı xeyli artmış və hökumət tərəfindən 2020-ci il dekabr ayının ortalarından etibarən yeni məhdudiyyətlər tətbiq edilmişdir.

Ölkədə COVİD-19 ilə mübarizə üçün aparılan məhdudlaşdırıcı tədbirlər iqtisadi aktivliyin və məcmu xərc səviyyəsinin əhəmiyyətli dərəcədə azalmasına səbəb olmuşdur. Məhdudlaşdırıcı tədbirlər iqtisadiyyatın otel, nəqliyyat, səyahət, əyləncə və sair digər seqmentlərinə, eləcə də beynəlxalq ticarətə öz təsirini göstərmişdir.

16 yanvar 2021-ci ildən etibarən Azərbaycan əhalisinin peyvəndlənməsinə başlanılması ilə əlaqədar Azərbaycan Respublikası hökuməti COVİD-19 pandemiyası ilə mübarizə məqsədilə əvvəlki ildə tətbiq edilmiş səyahət məhdudiyyəti, biznes və digər sahələrin bağlanması və ölkə daxilində müəyyən ərazilərin bağlanması kimi xüsusi karantin rejimi tədbirlərinin mərhələli şəkildə aradan qaldırılması barəsində qərar qəbul etmişdir.

Bank fəaliyyətini əsasən Azərbaycan Respublikasında həyata keçirir. Azərbaycan Respublikası Hökuməti iqtisadi islahatları və ölkənin hüquqi, vergi və qanunvericilik çərçivəsində inkişafını davam etdirir. Azərbaycan iqtisadiyyatının gələcək davamlı inkişafı, əsasən bu islahatlardan və sektordakı tərəqqidən, eləcə də hökumət tərəfindən iqtisadi, maliyyə və pul siyasəti üzrə həyata keçirilmiş tədbirlərdən və Azərbaycan manatı ilə xam neftin sabit qiymətlərindən asılıdır. Azərbaycan Respublikasının iqtisadiyyatı, xüsusilə neft və qaz qiymətlərinə həssas olmasına baxmayaraq, son illərdə Azərbaycan Respublikası Hökuməti daha balanslı iqtisadiyyata keçidi sürətləndirmək və neft-qaz sektorundan asılılığı azaltmaq üçün böyük iqtisadi və sosial islahatlara başlamışdır. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına əsasən, Azərbaycanda ÜDM 2021-ci ildə 55.62 milyard ABŞ dolları səviyyəsində olmuşdur. Uzunmüddətli perspektivdə, ekonometrik modellərimizə görə, 2022-ci ildə Azərbaycan ÜDM-nin 54.73 milyard ABŞ dolları və 2023-cü ildə 55.98 milyard ABŞ dolları səviyyəsində olacağı proqnozlaşdırılır.

Hökumət Azərbaycan manatının sabitliyi ilə əlaqədar olaraq pul siyasətini davam etdirmiş və Azərbaycan manatını sabitləşdirən xarici valyuta ehtiyatlarını ayırmışdır. Bu siyasət 2021-ci ildə makroiqtisadi sabitliyin qorunması məqsədi ilə davam etdirilmişdir. Azərbaycan Respublikasının Mərkəzi Bankı il ərzində yenidən maliyyələşdirmə dərəcəsini bir neçə dəfə dəyişdirmiş və bu dərəcə sabit artmaqla 6.25% - 7.25% arasında dəyişmişdir.

Qrupun rəhbərliyi, makroiqtisadi mühitdəki dəyişiklikləri izləyir və yaxın gələcəkdə Qrupun fəaliyyətinin dayanıqlığını və inkişafını dəstəkləmək üçün zəruri hesab etdiyi tədbirləri görür.

Beynəlxalq kredit reytinq agentlikləri, mütəmadi olaraq, Azərbaycan Respublikasının kredit reytinqini qiymətləndirirlər. “Fitch” və “S&P” Azərbaycan Respublikasının reytinqini “BB+” olaraq qiymətləndirmişdir. “Moody’s Investors Service”, ölkə üçün “Ba2” kredit reytinqini təyin etmişdir.

Azərbaycan Respublikasının gələcək iqtisadi inkişafı, əsasən, hökumətin vergi, hüquq, tənzimləyici və siyasi islahatlarla birlikdə həyata keçirdiyi iqtisadi, maliyyə və pul tədbirlərinin səmərəliliyindən asılıdır. Rəhbərlik Qrupun fəaliyyətinə təsir göstərəcək iqtisadi mühitdəki bütün islahatları və nəticədə onların maliyyə vəziyyətinə necə təsir göstərə biləcəyini proqnozlaşdırmaq iqtidarında deyil. Rəhbərlik hazırda müxtəlif neft qiymətləri üzrə həssaslıq təhlili həyata keçirir və biznesin davamlılığını təmin etmək üçün müvafiq tədbirlər planı hazırlayır.

## 30. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

### (a) Nəzarət

Qrupun son nəzarət edən tərəfi yoxdur.

### (b) Müşahidə Şurasının və İdarə Heyətinin üzvləri ilə əməliyyatlar

31 dekabr 2021 və 2020-ci il tarixlərində başa çatmış illər üzrə işçilərlə bağlı xərclərə daxil edilmiş cəmi ödənişlər aşağıdakı kimi olmuşdur:

| | **2021** | **2020** |
|---|---|---|
| Qısamüddətli işçi müavinətləri | 577 | 589 |
| | **577** | **589** |

Bu məbləğlərə Müşahidə Şurası və İdarə Heyətinin üzvlərinə verilən müavinətləri daxildir.

İdarə Heyətinin üzvləri ilə aparılan əməliyyatlar üzrə 31 dekabr 2021 və 2020-ci il tarixlərinə olan ödənilməmiş qalıqlar və orta effektiv faiz dərəcələri aşağıdakı kimidir:

| | **31 dekabr 2021-ci il** | **Orta effektiv faiz dərəcəsi, %** | **31 dekabr 2020-cİ il** | **Orta effektiv faiz dərəcəsi, %** |
|---|---|---|---|---|
| **Maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabat** | | | | |
| Verilmiş kreditlər (ümumi) | 346 | 7.63 | 436 | 8.48 |
| Müştərilərə verilmiş kreditlər üzrə EOKZ ehtiyatı | (3) | - | (8) | - |
| Cari hesablar və alınmış depozitlər | 1,128 | 5.89 | 1,459 | - |
| Subordinasiya borcları | 340 | 10.00 | 340 | 10.00 |

31 dekabr tarixinə İdarə Heyətinin üzvləri ilə əməliyyatlarla bağlı mənfəətə/(zərərə) daxil edilmiş məbləğlər aşağıdakı kimidir:

| | **2021** | **2020** |
|---|---|---|
| **Mənfəət /(zərər)** | | |
| Faiz gəliri | 25 | 40 |
| Faiz xərci | (103) | (38) |
| Xarici valyuta ilə ticarət əməliyyatlarından xalis gəlir | 9 | 1 |
| Ehtimal olunan kredit zərərlərinin bərpası/(tutulması) | 5 | (2) |

### Səhmdarlarla əməliyyatlar

Qrup 31 dekabr 2021 və 2020-ci il tarixlərinə ödənilməmiş qalıqları və müvafiq orta faiz dərəcələrini, habelə həmin tarixlərdə başa çatmış illər üzrə digər səhmdarlarla (Qrupda 5% və ya daha çox payı olan) aparılan əməliyyatlar üzrə müvafiq mənfəət və ya zərər məbləğlərini açıqlamışdır:

| | **2021** | | **2020** | |
|---|---|---|---|---|
| | **Məbləğ** | **Orta efektiv faiz dərəcəsi, %** | **Məbləğ** | **Orta efektiv faiz dərəcəsi, %** |
| **Maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabat** | | | | |
| **AKTİVLƏR** | | | | |
| Müştərilərə verilmiş kreditlər | | | | |
| - AZN ilə: | | | | |
| Əsas qalıq | 17,858 | 7.46 | 16,519 | 7.64 |
| Müştərilərə verilmiş kreditlər üzrə EOKZ ehtiyatı | (2,445) | | (1,620) | |
| **ÖHDƏLİKLƏR** | | | | |
| Cari hesablar və müştərilərdən alınmış depozitlər | 7,105 | 8.30 | 8,447 | 9.51 |
| Subordinasiya borcları | 1,923 | 9.29 | 1,921 | 9.29 |
| **Mənfəət/(zərər)** | | | | |
| Faiz gəliri | 1,080 | | 1,053 | |
| Faiz xərci | (559) | | (529) | |
| Xarici valyuta ilə ticarət əməliyyatlarından xalis gəlir | 1 | | 5 | |
| Ehtimal olunan kredit zərərlərinin (tutulması)/bərpası | (825) | | 684 | |

Əlaqəli tərəflərlə əməliyyatlar nəticəsində yaranan əksər qalıqların müddəti bir ildir.

## 31. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

MHBS ədalətli dəyəri qiymətləndirmə tarixində bazar iştirakçıları arasındakı əməliyyat üzrə aktivin satılması üçün alınmış və ya öhdəliyin ötürülməsi üçün ödənilmiş qiymət kimi müəyyən edir.

**Qrupun dövri olaraq ədalətli dəyərlə ölçülən maliyyə aktivləri və maliyyə öhdəliklərinin ədalətli dəyəri**

Qrupun maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin bəziləri hər hesabat tarixinin sonunda ədalətli dəyərlə ölçülür. Aşağıdakı cədvəldə bu maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin ədalətli dəyərinin necə müəyyən edildiyi (xüsusilə, istifadə edilmiş qiymətləndirmə metodları və giriş məlumatları) barədə məlumat əks olunmuşdur.

| Maliyyə aktivləri / maliyyə öhdəlikləri | Ədalətli dəyər | | Ədalətli dəyər iyerarxiyası | Qiymətləndirmə vasitələri və əsas giriş məlumatları | Əsas müşahidə olunmayan giriş məlumatları |
|---|---|---|---|---|---|
| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il | | | |
| İnvestisiya qiymətli kağızları (borc qiymətli kağızları) | 27,271 | 10,762 | 1-ci Səviyyə | Fəal bazarda kotirovka edilmiş təklif qiymətləri | Uyğun deyil |
| İnvestisiya qiymətli kağızları (korporativ istiqrazlar) | 523 | 620 | 3-cü Səviyyə | FCFE | Pul vəsaitlərinin hərəkəti üzrə ehtimal Güzəşt dərəcəsi |

Dövr ərzində 1-ci və 2-ci Səviyyələr arasında köçürmə olmamışdır.

**Dövri olaraq ədalətli dəyərlə ölçülməyən maliyyə aktivləri və maliyyə öhdəliklərinin ədalətli dəyəri (lakin ədalətli dəyər açıqlamaları tələb olunur)**

Aşağıdakı cədvəldə göstərilən hallar istisna olmaqla, Rəhbərlik hesab edir ki, konsolidə edilmiş maliyyə hesabatlarında tanınmış maliyyə aktivləri və maliyyə öhdəliklərinin qalıq dəyərləri təxminən onların ədalətli dəyərini əks etdirir.

| | 31 dekabr 2021-ci il | | 31 dekabr 2020-ci il | |
|---|---|---|---|---|
| | Qalıq dəyəri | Ədalətli dəyər | Qalıq dəyəri | Ədalətli dəyər |
| Banklara verilmiş kreditlər və depozitlər | 45,716 | 45,716 | 39,614 | 39,614 |
| Müştərilərə verilmiş kreditlər | 414,385 | 414,385 | 326,656 | 326,656 |
| Banklara verilmiş kreditlər və depozitlər | 62,399 | 62,399 | 68,842 | 68,842 |
| Cari hesablar və müştərilərdən alınmış depozitlər | 419,384 | 419,384 | 280,697 | 280,697 |
| Digər borc alınmış vəsaitlər | 129,227 | 129,227 | 106,160 | 106,160 |
| Subordinasiya borcları | 12,865 | 12,865 | 11,798 | 11,798 |
| İcarə öhdəliyi | 1,453 | 1,453 | 885 | 885 |

| | 31 dekabr 2021-ci il | | | |
|---|---|---|---|---|
| | **1-ci Səviyyə** | **2-ci Səviyyə** | **3-cü Səviyyə** | **Cəmi** |
| **Maliyyə aktivləri:** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 173,378 | - | - | 173,378 |
| Banklara verilmiş kreditlər və depozitlər | - | 45,716 | - | 45,716 |
| Müştərilərə verilmiş kreditlər | - | - | 414,385 | 414,385 |
| Digər maliyyə aktivləri | - | 2,434 | - | 2,434 |
| **Maliyyə öhdəlikləri:** | | | | |
| Banklardan alınacaq depozitlər və qalıqlar | - | 62,399 | - | 62,399 |
| Cari hesablar və müştərilərdən alınmış depozitlər | - | 419,384 | - | 419,384 |
| Digər borc alınmış vəsaitlər | - | 129,227 | - | 129,227 |
| Subordinasiya borcları | - | - | 12,865 | 12,865 |
| İcarə öhdəliyi | - | - | 1,453 | 1,453 |
| Digər maliyyə öhdəlikləri | - | - | 2,557 | 2,557 |

| | 31 dekabr 2020-ci il | | | |
|---|---|---|---|---|
| | **1-ci Səviyyə** | **2-ci Səviyyə** | **3-cü Səviyyə** | **Cəmi** |
| **Maliyyə aktivləri:** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 118,046 | - | - | 118,046 |
| Banklara verilmiş kreditlər və depozitlər | - | 39,614 | - | 39,614 |
| Müştərilərə verilmiş kreditlər | - | - | 326,656 | 326,656 |
| Digər maliyyə aktivləri | - | 1,235 | - | 1,235 |
| **Maliyyə öhdəlikləri:** | | | | |
| Banklardan alınacaq depozitlər və qalıqlar | | 68,842 | | 68,842 |
| Cari hesablar və müştərilərdən alınmış depozitlər | - | 280,697 | - | 280,697 |
| Digər borc alınmış vəsaitlər | - | 106,160 | - | 106,160 |
| Subordinasiya borcları | - | - | 11,798 | 11,798 |
| İcarə öhdəliyi | - | - | 885 | 885 |
| Digər maliyyə öhdəlikləri | - | - | 1,476 | 1,476 |

Cədvəldə 2-ci və 3-cü Səviyyə kateqoriyasına daxil edilmiş maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin ədalətli dəyərləri, diskontlaşdırılmış pul vəsaitlərinin hərəkətinin təhlilinə əsasən və tərəflərin kredit riskini əks etdirən diskont dərəcəsi üzrə mühüm məlumatlardan istifadə etməklə ümumi qəbul edilmiş qiymətqoyma modellərinə uyğun olaraq müəyyən edilmişdir. Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyərləri Qrup tərəfindən onun yerləşdiyi ölkənin bazar məlumatı və müvafiq qiymətləndirmə metodologiyaları əsasında müəyyən edilmişdir. Lakin təxmin edilən ədalətli dəyəri müəyyən etmək üçün bazar məlumatının şərh edilməsi ilə bağlı qərar vermək tələb olunur. Rəhbərlik maliyyə alətlərinin ədalətli dəyərinin qiymətləndirilməsində bütün mümkün bazar məlumatından istifadə etmişdir.

## 32. HESABAT TARİXİNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

24 fevral 2022-ci il tarixindən etibarən Rusiya və Ukrayna arasında siyasi gərginlik müşahidə olunur. Münaqişə Avropa ölkələri, Böyük Britaniya və Amerika Birləşmiş Ştatları tərəfindən Rusiyaya qarşı yeni sanksiyaların tətbiq olunması ilə yanaşı geniş beynəlxalq qınaqla qarşılanmışdır. Sanksiyalar Rusiyanın mərkəzi bankını və suveren fondlarını əhatə etmiş, onların aktivlərini faktiki olaraq dondurmuş və Rusiya maliyyə təşkilatları ilə əlaqələri qadağan etmişdir. Bəzi Rusiya banklarının SWIFT-ə çıxışına qadağa qoyulmuşdur.

Rusiya fond bazarı ilk gündə 39% ucuzlaşmış, RTS İndeksi ilə ölçüldüyü kimi, rubl ABŞ dolları qarşısında rekord səviyyədə ucuzlaşmışdır. Ukrayna Milli Bankı rəsmi məzənnəni təyin edəcəyini açıqlayaraq valyuta bazarlarını dayandırmışdır. Münaqişə nəticəsində Brent markalı neftin qiyməti 2014-cü ildən bəri ilk dəfə bir barel üçün 100 ABŞ dollarını ötmüşdür.

Bu hesabat tarixinə vəziyyət sabitləşməmişdir. Qrupun Rusiya banklarında müvafiq bank hesabları var, ancaq indiyədək bu hesablar vasitəsilə bank əməliyyatları həyata keçirilməmişdir. Hazırda rəhbərlik qarşıdurmanın Qrupun maliyyə hesabatlarına təsirini qiymətləndirə bilməsə də, alternativ nostro hesabların açılması ilə bağlı digər banklarla danışıqlar aparır. Həmçinin nostro hesablar vasitəsilə ödənişlərdən əldə edilən gəlirlərin payı əhəmiyyətli deyil və Qrupa əhəmiyyətli təsir göstərə bilməz.